**Nəriman Əyyub**

# Şəhid Xocalı

Nərgiz NƏŞRİYYATI
BAKI - 2013

**Redaktor:** OSMAN ƏFƏNDİYEV

**Nəriman Əyyub, “Şəhid Xocalı” və şeirlər.**
**Bakı, "NƏRGİZ" nəşriyyatı, 2013,**
224-səh.

Bu kitab şair Nəriman Əyyubun oxucularla 20-ci görüşüdür. Kitabda şairin son il də yazdığı şerləri və rübailəri toplanmışdır. Kitabda Qarabağ və Vedibasar həsrətiylə yanan və alovlanan şair ürəyi döyünür.
Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$A\frac{742000000}{079}776-2013$ ©«Nərgiz»,2013

# ƏDALƏTSİZLİYƏ DÖZMƏYƏN KÖVRƏK

# QƏLBLİ ŞAİR



Mən Nəriman Əyyubu 1965-ci ildən tanıyıram. O, həmin ilin yay ayında ADU-ya imtahan verməyə gəlmişdi 1956-cı ildə orta məktəbi bitirən Nəriman Əyyub ailə vəziyyəti ilə əlaqədar ali məktəbə əyani oxumağa gələ bilməmişdi. Həmin ildə ailəyə kö-

mək etmək üçün Gəncədə bir illik mühasiblər məktəbinə oxumağa getmiş və həmin məktəbi bitirib kəndləri olan Yevlax rayonu Nərimanabad kəndində işləməyə başlayır. Mühasib işləməklə bərabər ədəbi yaradıcılıqla da məşğul olur. Orta məktəbdən yazdığı şerləri Yevlax rayon qəzetində dərc etdirir. O vaxt onu Yevlaxda Nəriman Məmmədov imzası ilə tanıyırdılar. O, 1955-ci ildə orta məktəbdə oxuduğu zaman "Xanlar xan" adlı mənzum dram yazır. Fəqət çap etdirə bilmir. Həmin dram 2006-cı ildə "General" adlı kitabda nəşr olunur, Mən Nəriman Əyyubun 18 ildə yazmış olduğu 19 kitabını oxumuşam. Son il yazdığı "Şəhid Xocalı" toplusunu mənə təqdim etdi ki oxuyub öz münasibətimi bildirim. Burada iki poe-ma, dörd yüz rübai və xeyli şerləri vardır. Sovetlər dövründən bu günə kimi mühasib işləyən Nəriman nəşr oluna bilməmişdi. Kənddə mühasib işləyən heç kim o zamanlar nəşr oluna bilməzdi. 55 il fasiləsiz işləyən Nəriman Əyyub son 18 ildə 19 kitab həşr etdirmişdi. İndiki dövrdə ildə bir kitab nəşr etdirmək hünərdi. Bu kitablarda 34 poema, 1790 dan şox rubai, 400-ə qədər bayatı 8000 bənddən çox şerləri nəşr edilib. Nəriman Əyyub sovetlər dövründə nəşr olunmadığına görə təbliğ olunmamışdi. Ona görə də o qədər tanınmamışdır.

Poemalarından 15-i Qarabağ müharibəsinə aiddir ki hərəsi bir səhnə əsərinə layiqdir desək yanılmanıq. Xocalıya aid poemanı həyəcansız oxumaq olmur. Xalqımızın başına açılan min bir müsibətdən bəhs edir. Poema Allaha şikayətlə başlanır:

***Allahım vətəni olmayan kəsə,***
***Mənim torpağımda sən vətən verdin.***
***Ermənıyə hörmət edirsən nəsə,***
***İndi qudurubdur həmin namərdin.***

***Haylar Azərinin nökəri olub,***
***İllərlə qapımda yallanıb gündə.***
***Qeyrətsizim axçinin əri olub,***
***Onları gözümlə görmüşəm mən də.***

***Çingizin çəkdiyi o səhnələrə,***
***Baxdıqca bir daşdan ürək gərəkdi.***
***Çəkdikcə ağladı Çingiz min kərə,***
***Əhəmiyyət verməyən vəhşi ürəkdi.***

***Hamilə qadının qarnını yarıb,***
***Çıxarıb oradan körpə uşağı.***
***O həmin uşağı süngüyə taxıb,***
***Olub ləzzət ilə ona baxmağı.***

Belə səhnələri poema boyu yana-yana yazan Nəriman Əyyub sanki hər bir misrada hönkürüb ağlayır. Bütün xalqını ayıq olmağa və cihada çağırır. Vəhşi düşmənə qarşı nifrət hissi oyadır:

***Rusun şinelinə girsə də haylar,***
***Vətənim verəcək öz qərarını.***
***Haylar edəcəkdir onda haraylar,***
***İtirəcək axçisini, yarını.***

***Ali Baş Komandan icazə versə,***
***Qarabağı alacaqdır ordumuz.***
***Onu mən deyirəm qısaca-kəsə,***
***Düşmən əllərində qalmaz yurdumuz.***

Poemanı oxuduqca sanki özünü Qarabağ müharibəsində sayırsan. Qatı düşmənlərimiz olan Zori Balayanları, Serj Sərkisyanları lənətləyirsən.

Klassik şer nümunəsi olan rübayilərində çox mətləblərdən danışır. Zəhmətsiz varlanan, qara xalqa yaxşı baxmayan adamları poeziya dili ilə qamçılayır:

*Zəhmətsiz var ilə quduranları,*
*Varla cılızlaşan "ölücanları".*
*İnsan saymamışam, sayan deyiləm,*
*Belə xalq malını o yığanları.*

*Zəhmətsiz varlanan öyünməsin heç,*
*O var halal deyil, axır ondan keç.*
*Şüurlu övlada var lazım deyil,*
*Şüursuzsa varı tez edəcək puç.*

*Hörmət eylə, özün hörmətlə yaşa,*
*Vaxt gələcək ömür çatacaq başa.*
*Elə işlər gör ki xalq səni sevsin,*
*Nəinki gedəndə xalq tutsun daşa*

Nəriman Əyyub həyata çox açıq gözlə baxır. Olan xoşagəlməz halları vaxtında görür. Gördüyü hadisələrin üstündən keçmir. Vaxtında münasibətini şer vasitəsi ilə bildirir. Hər şeyi vaxtında görmək və ona öz münasibətini bildirmək yazar üçün yaxşı haldır.

*Çox da kədərlənmə Zahid Xəlilov,*
*Artıq dünyamızda insan qalıb az.*
*Varlı bir ovçudur, kasıb isə "ov",*
*Ona görə kasıb olubdur nasaz.*

***

***Siz Allah yalanı söyləməyin siz,***
***Sovet Dövlətini yıxdı yalanlar.***
***Sözləri söyləyin doğruca, əziz,***
***Yalanı söyləyir geri qalanlar.***

***

***Zəmanə dəyişdi, qudurdu insan,***
***Zəhmətsiz var dəyişdirdi çoxların.***
***İnsan çirkli doğulmayıb anadan,***
***Fəqət pul çoxunu eyləyib harın.***

Nəriman Əyyubun əsərlərini oxuduqca zövq alırsan. Poemalarından, rübailərindən, qoşmalarından doymursan. Özünəməxsus dildə tərənnüm etdiyi bu əsərlər geniş oxucu üçün çox qiymətlidir. Onun əsərlərinin dərinliyinə varanda çox mətləblər aydın olur. Hər bir əsərini diqqətlə, axıra kimi oxumaq çox faydalıdır.

Nəriman Əyyub xalq duyğularından yazmağa üstünlük verir. Onun yaradıcılığı müxtəlif səpkili mövzu əhatəsinə malikdi. Rübailərində eşqin, mərdliyin insanlığın, mənasını düşüncələrini yazır. Bütün yaradıcılığının məhvərini şərtləndirən xalq duyğularıdır:
Xalqın dərdinə daim ağlayır. Zərərli rüşvətxorluq əleyhinə üsyan edir, tənqidi olan qatı sözünü deyir.

***Kəfəndə cib yoxdur yığdıqlarını,***
***Yığıb aparasan gedəndə gora.***
***Gor da qəbul etmir olan harını,***
***Faydası yox peşman olanda sonra.***

Nəriman Əyyub yoxsul təbəqənin şəraitindən, çətin güzərandan yazır. İşsizliyə dözməyən, kəndlərimizi qoyub başqa ölkələrə gedən gənclərimizin taleyinə acıyır. Həqiqəti bəzək-düzəksiz deməyi xoşlayır. O, kövrək qəlbində Qarabağ dərdini, Vedibasar niskilini daşıyır. Gözəlliyə, haqq ədalətə tapınan vətəndaş amalı, fəlsəfi düşüncələri poetik lövhələrlə heyrətamiz obrazlara dönür şerlərin, rübailərin hər birində.

Nəriman Əyyub Vedibasarın Milli dərəsində dünyaya göz açıb, nəfəsini bulaqların sərinliyindən, çayların şəlalələrin ahəngindən götürüb. Ana təbiət onun ruhuna qanad, ilhamına həzin bir şirinlik gətirib. Hələ orta məktəbdə dodaqlarında şirin misralar səslənib. O misraları uzun müddət ürəyində gəzdirib, nəşriyyat qapılarını döyməyib. Taleyi onu iyirmi yaşında mühasib işləməyə məcbur edib. İlhamına qısılıb o zaman hesab sayğac danələrini dığırlamaq ilə məşğul olub. Şerini yazıb, içtimai bəlalara qarşı barışmamazlıq

onun yazılarının əsasını təşkil edib. Qəlbində, gözlərində bədii sözün şöləsi canlanan Nəriman Əyyub şair qələminin qədrini bilən, ülviyyətini dərk edən bir qələm sahibidir. Qaçqınlıq, didərginlik Nərimanın yaradıcılığında mühüm yer tutur. Təqdir olunan cəhət həm də budur ki şair sözçülükdən qaçmağa çalışır O, bədii yaradıcılıq məsuliyyətinin ağırlığını başa düşür. Nəriman Əyyub onu narahat edən hər bir hadisəyə, sözə dərhal öz münasibətini bildirir. O, 2003-cü ildə

erməni prezidentini təbrik edən Türkiyənin prezidenti Əhməd Nejdər Sezərə şer yazıb göndərib.

***Sən necə dostsan ki dostluğu atıb,***
***Qatı düşmənimi təbrik edirsən.***
***Bu acı həqiqət bizlərə çatıb,***
***Xoşa gəlməz yolla hara gedirsən?***

***"Namus" kitabı səhifə 43.***

Eləcə də İrəvanda saxta soyqırımı abidəsinə əklil qoyam İran prezidenti Məhəmməd Xatəmiyə “Nəyə baş əydin" şerini yazıb göndərir:

***Nəyə əklil qoydun, nəyə baş əydin?***
***Sən islam xalqının uzaq görəni.***
***Böyük Türk xalqının qəlbinə dəydin,***
***Dığa yaltaqlandı, aldatdı səni.***

***Əklil qoyduğun yer şeytan yuvası,***
***Uydurulmuş yalan soyqırımıdır.***
***Torpaq almaq üçün dığa sövdası,***
***Türkün sinəsinin gen şırımıdır.***

***Nə ad verək sənə, müsəlman qardaş?***
***Əsgər Akayev də bir vaxt uduzdu.***
***Qırğız başçısına olmusan yoldaş,***
***Sənin də, onun da ürəyi "buzdu".***

***"Haray" kitabı 2005 il səhfə 58.***

Eləcə də Ramil Səfərov ermənini öldürüb tutulan zaman Zərdüşt Əlizadə "525-ci qəzet" də belə bir çıxış etmişdir ki Ramil Səfərovun ailəsi ermənin ailəsindən üzr istəməlidir. Nərimana xoş gəlməyən bu çıxışa dərhal cavab verərək şeir yazmışdır.

***Eşitdiyim sözə inanmadım mən,***
***Hansı adı verək sənə Zərdüşt bəy?***
***Belə bir fikri söylədin nədən?***
***Sənə nifrət edər nənə, Zərdüşt bəy!***

***Baş sağlığı verək yağı düşmənə?***
***Qulaq asaq sizin kimi dönənə?***
***Bu dönüklük hardan gəlibdir sənə?***
***Doğru cavab söylə mənə Zərdüşt bəy.***

***Ramil Səfərovdur Milli Qəhrəman,***
***Azərbaycan üçün verər şirin can.***
***Sizə həqiqəti dedi Nəriman,***
***İnanmıram kişi dönə, Zərdüşt bəy.***

***"Haray" kitabı 2005. Səhifə 80.***

Yenə də bu günlərdə Dahi Səməd Vurğuna böhtan atan və hətta təhqir edən Sərdar Cəlaloğluna da öz münasibətini bildirərək bu kitabda gedəsi Sərdar Cəlaloğlu şerini yazmışdır.

***Sərdar Cəlaloğlu başından yekə,***
***Bir qələt etmisən başa düşmədən.***
***O səndə qalacaq daimi ləkə,***
***Bu fikir başına gəlibdir nədən?***

***Səməd Vurğun dünya şöhrətli şair,***
***O, uca bir dağdı, sən isə təpə.***
***Onu xalq özünə peyğəmbər sayır,***
***Sən isə dənizdə sısqaca ləpə.***

Beləliklə 17 bənddən ibarət bir şer yazaraq öz yanan ürəyini boşaltmışdır.

Nəriman Əyyubun təbilik, səmimilik aləmində ikiüzlülüyə, yalançılığa yer yoxdur. Hamını da belə görmək istəyir.

***Bəzən seçilməyir yaxşıyla-yaman,***
***Deyin insan hara, yamanlıq hara?***
***Arzulayır bəzi vəzifə, maşın,***
***Nə zaman istəsə gərəyi olsun.***
***Mənimsə arzumdur dostun-sirdaşın,***
***Saf qəlbi, vicdanı, ürəyi olsun.***

Bəzən Nərimanın misralarında nə isə çatmadığını hiss edirsən. Fəqət onlar məzmundan doğan daxili bir ritm, musiqiyə malikdir. Dilin qəlizliyi, söz oynatmaq ona yabançıdır.

Mən eşitdiyimə, bildiyimə görə Nəriman heç vaxt düz, hamar yol arzusunda olmayıb. Eniş-yoxuş onu qorxutmayıb, həmişə bu yollarda qarşısına çıxan hər şeyə xeyirxahlıqla yanaşıb, hamıya qayğı göstərməyə çalışıb.

V.İ.Suxomlinski deyib: "Başqasını duyğusunu çəkə-çəkə öz ömrünü başa vuranlar ən gözəl və eyni zamanda ən xoşbəxt insanlardı". Sən də xoşbəxtsən Nəriman Əyyub.

Sənə uzun ömür, can sağlığı və yeni-yeni əsərlər yazmağı arzulayıram. Qoy qələmin iti olsun!

***HÖRMƏTLƏ. OSMAN ƏFƏNDİYEV***
***Fəlsəfə elmləri doktoru, professor.***

# ŞƏHİD XOCALI

## *Poema*

Allahım, vətəni olmayan kəsə,
Mənim torpağımda sən vətən verdin.
Erməniyə hörmət edirsən nəsə,
İndi qudurubdur həmin namərdin.

Verdin İrəvanı, Zəngibasarı,
Vedibasarımı, Göyçə gölünü.
Bir də Dərələyəzi yarıdan yarı,
Aşıq Ələsgərin doğma elini.

İndi də istəyir Qarabağımı,
Alıb birləşdirsin hayastanına.
Gözəl Kəlbəcəri, Dəlidağımı,
Nanəcib bir xalqdır, min dəfə qına.

Allahım, olmasa razılığınız,
Bu qədər qudurmaz başıboş dığa.
Sizdən razılığı alıbdır yalnız,
Sahib olub Sarıyertək yaylağa.

Daşıyır gündəlik Kəlbəcərimin,
Bütün sərvətini, sarı qızılı.
Onu qudurdubdur o xaçpərəst din,
Qurtaran deyildir Zarın qızılı.

Haylar Azərinin nökəri olub,
İllərlə qapımda yallanıb gündə.
Qeyrətsizim axçilər əri olub,
Onları görmüşəm gözümlə mən də.

Neçə axçiləri vardır Səmədin,
Müalicə edirdi gündə onları..
Düşündürməyirdi o müqəddəs din,
Xərclərdi onlara nə qədər varı.

Bakıda olanda erməni qızı,
Bizim biqeyrətlər aldı çoxunu.
Dostuna verirdi olan baldızı,
Erməni qızları onun yaxını.

On beş min gəlinim var dedi Öndər,
Rəhmətlik təxmini deyirdi bəlkə.
Doğru söyləyirdi O Böyük Hünər,
O həmin gəlinlər Vətənə ləkə.

Ləkəni silmədik üzərimizdən,
Dığalar böyütdük ermənilərçün.
Dayısına kömək eyləyir hərdən,
Daxildən Vətəni satırlar bütün.

Odur ki, narahat oluram Allah,
Yaratdıqlarına sahib olmursan.
İstəsən düzəldə bilərsən Vallah,
Müsəlmanın qeydinə qalmırsan.

O yurdzuz, yuvasız olan erməni,
Qoşulub ruslara incidir bizi.
Doğru söyləyirəm, qınama məni,
Qalır Qarabağda erməni izi.

Donuz kimi dolub kola çıxmayır,
Rusun şinelinə bürünür gündə.
Özünü Qarabağ sahibi sayır,
Düşünmür başım əzəcəm öndə.

Nə idi günahı Xocalımızın?
Erməni rus ilə o günə saldı.
Gülü də bitmədi həmin o yazın,
Ölən öldü, qalanlar da qocaldı.

Qırıldı orada nə qədər insan,
Çoxunun meşədə cəsədi qaldı.
Qar-çovğun içində verdi şirin can,
Bu bir həqiqətdir, sanma xəyaldır.

Sahibsiz qalmışdı Vətənim onda,
Dəstələrə bölünmüşdür ordumuz.
Ümidsizlik yaranmışdı hər canda,
Rəhbərlik etmədi Ayaz qəlbi buz.

Qırdırdı xalqımı vəhşi Qarbaçov,
Güllə vurulmadı ala başıma.
Qırıldı nə qədər igid-dəlisov,
Qanlar çilələndi torpaq daşına.

Satılmışdı erməniyə arvadı,
Ermənininin məşuqəsi o alçaq.
Rusiyada qalıb natəmiz adı,
Vecinə almadı əri qurumsaq.

Beləcə alındı gözəl Qarabağ,
Hələlik erməni ağalıq edir.
Dağıdır meşə, bütün bağça-bağ,
Qiymətli ağaclar xaricə gedir.

Eşidilməyirdi Xocalı səsi,
Vəhşi rus alayı aldı oranı.
Saya salınmadı xalqın kəlməsi
Tutuldu dağları, bəzi aranı.

***

Səhv edib bir zaman, türk oğlu türküm,
İrəvanı verib yad erməniyə.
Başıma bəladır hər zaman ərkim,
Qərbi Azərbaycan verilib niyə?

Tikib İrəvanı, İrəvan Xanı,
İçində tikibdir gözəl mədrəsə.
İndi Göy məsçidim görünmür, hanı?
Səhərlər dururduq azanlıq səsə.

İrəvanda yoxuydu bir erməni,
Küçələrin hamsı türklərin adı.
Erməni kim idi, türkün vətəni,
Buraxdıq oraya haytəki yadı.

Girdi qılığıma gah nökər oldu,
Gahda ki, yamadı ayaqqabımı.
Malım zibilini o tökər oldu,
Süpürdü küçəmi, hətta qapımı.

Yaltaqlıq eylədi, kirvədə tutduq,
Yaxına buraxdıq doğmalar kimi.
Hərdən yoldan çıxsa onu da udduq,
Bilmədik ki, altdan bərkidir himi.

Sanmadıq üzündən insan olsada,
Daxili zəhərmiş bir ilan kimi.
Türk oğlu daimi inanıb yada,
Çünki insan kimi olur səmimi.

Beləcə inandıq əfi ilana,
Bağışladıq gözəl yurd-yuvamızı.
İndi sahib olub o İrəvana,
Bəzimiz də aldıq hər abırsızı.

Axçisini alıb arvad eylədik,
Tanımadıq axçisi qancıq imiş.
Ona hörmət ilə arvad söylədik,
Peşman olsaq belə artıq o keçmiş.

Bax belə aldandıq yalquzaqlara,
Düşmənə dost kimi çox yaxınlaşdıq.
Dayandıq yan-yana, qalmadı ara,
Sanmadıq düşməndi illərlə çaşdıq.

Çaşmağımız hələ çox sürünəcək,
Əgər birləşməsək, bir olmasaq biz.
Torpağımda sürünəcək o böcək,
Birdəfəlik başa düşsün nəslimiz.

Çox da qürrələnmə, Serj Sərkisyan!
Başmı bədəndən ayıracağam.
Düşün həqiqəti, bir dəfəlik qan,
Gündəlik böyüyür nə qədər ağam.

Xalqının yarısı qaçır əlindən,
Gündəlik çörəyi verə bilmirsən.
Tökülür yalançı vədlər dilindən,
Tutulub gözlərin onu silmirsən.

Daşnaqlar əlində oldun oyunçaq,
Hara istəsələr ora atırlar.
Hələlik özünü sayırsan qoçaq,
Müvəqqəti səni əldə tuturlar.

Ac-yalavac qalıb millətin çoxu,
Bilməyir ki, hara qaçsın gündəlik.
Orda qalıb ancaq sizintək toxu,
İşsiz qalan xalqın olubdurləlik.

Nə iş yeri yoxdur, nə əkin yeri,
Bekar qalan da ac durmaqmı olar
Dolanır səninlə şəhərin Meri,
Serj utanmırsan, nə etmirsən ar.

Bütün yalanların üzə çıxacaq,
Asacaqlar səni bir gün meydanda.
Qanın o meydanda yerə axacaq,
Biabır olarsan bütün cahanda.

Xocalıda qırdığın hər kəsin,
Olan nəvələri böyüyür gündə.
Yuyacağıq Xocalının ləkəsin,
Gözünlə görərsən sən olsan öndə.

Böyüyən ordunun hər bir əsgəri,
Gözləyir Ali Baş Komandanı.
Zəfərlər çalmasa qayıtmaz geri,
Vətənə qıyacaq şirin canını.

Axı sən kimsən ki, hədələyirsən,
Xalqını aldadıb kişiləşdikcə.
Tez-tez də rusların yanına dəyirsən,
Axırda əlimdə olarsan cücə.

Tək Milli ordumun xəzinəsinə,
Ölkənizin çatmır bütün gəliri.
Səni salacağam çox ağır günə,
Səndən çox iriyəm, iridən-iri.

İyirmi altı fevral, soyuq bir gecə,
Xocalı qırıldı, oldu tarimar.
Bu vəhşi hücuma dözəsən necə,
Qırdı həm mərmilər, həm də soyuq qar.

Allahım Xocalı nə günə düşdü,
Sən özün tamaşa etdin Allahım.
Sanki yer tərpəndi, dağlar sürüşdü,
Fikir də vermədin, ay Qibləgahım.

Özün yaratdığın nə qədər insan,
Bir gecənin içərisində məhv oldu.
Yaşamağa yaratmışdın anadan,
Vəhşi erməniyə bir hədəf oldu.

Töküldü göylərdən mərmi, qurğuşun,
Qırdı insanları bir pencər kimi.
Çoxları qorxudan itirdi huşun,
Heç kim başa düşmədi bu tilsimi.

Bizi düşmən sayan vəhşi erməni,
Şovinist rusların qılığına düşdü..
Rus qəbul eylədi dığa deyəni,
Gündəlik onunla tez-tez görüşdü.

Üç yüz altmış altı olan alayın,
Rus ilə doluydu onun tərkibi.
Erməniyə satılmışdı o xain,
Erməni puluyla doluydu cibi.

Birgə törətdilər vəhşilikləri,
Vəhşilər vəhşiyə olmuşdu yoldaş.
Bizlə dolanmayıb illərdən bəri,
O qurd əqidəli, ürəkləri daş.

Daş olmasa niyə körpə uşağın,
Öldürüb başını kəsir yenidən.
Ürəyi daş olan həmin alçağın,
O beyini çürük, o murdar bədən.

Çingizin çəkdiyi o səhnələrə,
Baxdıqca bir daşdan ürək gərəkdir.
Çəkdikcə ağladı Çingiz min kərə,
Əhəmiyyət verməyən vəhşi ürəkdir.

Güllə ilə ölən hər bir cəsədin,
Başına min oyun açıb vəhşilər.
Ona nifrət edir həm inam, həm din,
Vəhşiliklər edib qaçıb vəhşilər.

Köksündə olsaydı insan ürəyi,
Heç zaman etməzdi belə vəhşilik.
Haram olsun müsəlmanın çörəyi,
O vicdansız insan, ürəyi çürük.

Bir gündə altı yüz on üç qırıldı,
Bəzisi də qar altında məhv oldu.
Qorxudan nələrin qəlbi yarıldı,
Yaylım güllələrə çox hədəf oldu.

Körpənin gözünü çıxaran nadan,
Niyə körpəsini yada salmadı?
Gözünün önündə axan qızıl qan,
Vəhşi ürəyini oda salmadı.

Hamilə qadının qarnını yarıb,
Çıxarıb oradan körpə uşağı.
O həmin uşağı süngüyə taxıb,
Olub ləzzət ilə ona baxmağı.

Ürəyə bax, ürəyə bax Allahım!
Sən yaratdığını nə günə salır.
Sən də gördün axı ay Qibləgahım,
Bu vəhşilik illərdən bəri qalır.

Xocalı yarası ən ağır yara,
Nə qədər il keçsə sağaltmaq olmaz.
Bu vəhşilik görən gedəcək hara?
Baxdıqca ürəklər olur çox nasaz.

Arxalı köpəklər daim qurd basar,
Bunu çoxdan söyləyibdir atalar.
Ruslar erməniyə olubdur hasar,
Daim nifrət eyləyibdir atalar.

Arxayın olmasa rusa erməni,
Başından çox böyük qələt eyləməz.
Ermənilər türkün daim düşməni,
O gürzə ilandı, yox ona əvəz.

Düşməndi xalqıma illərdən belə,
Min doqquz yüz beşdən gələndən bəri.
O düşmən kəsilib bizim hər elə,
Keçmişdə türklərin olan nökəri.

Yurdsuz olduğuçün, yurd saldı bizim
Qərbi Azərbaycan olan torpaqda.
Hətta söylədi ki, Xəzər dənizim,
Onun hər kəlməsi saxtadır, saxta.

Dünya da öyrənib saxtakarlığa,
Bizlərin haqq səsi eşidilməyir.
Avropa da qara söyləyir ağa,
Vicdan çürüyüb, qəddini əyir.

Olmayan soyqırım söylənir gündə,
Dünənki Xocalı sayılmır niyə?
Hələ nə olacaq bilinmir öndə,
Avropa Serijə verir hədiyə.

Həqiqət tapdanır, yalan yeriyir,
Yalanlar dünyanı məhv edəcəkdir.
Əriməyən buzlaqlar da əriyir,
Bu yerişlə insan səhv edəcəkdir.

O səhvlər getdikcə daha çoxalır,
Sayılmır yazılan heç bir qanunlar.
Avropa Şurası havayı qalır,
Qərarları keçmir indi bu anlar.

Yazdığı qanunun bircəciyi də,
Sayılmadı erməninin yanında.
Hətta daldasında söylədi hədə,
Saymamazlıq vardır onun canında.

Rusun şinelinə girsə də haylar,
İnsanlar verəcək öz qərarını.
Haylar görəcəkdir onda haraylar,
İtirəcək axçisini, yarını.

Arxayın olmasın havadarlara,
Havadarı axır peşman olacaq.
Güvənməsin o zəhmətsiz varlara,
Varı da çox azdır, sıcaqdır-sıcaq.

Bir hərbi xərcimə bütün dövlətin,
Büdcəsi çatmayır heç yarısına.
Hayların işləri olacaq çətin,
Erməni, sözümü axırda sına.

Ay ağılsız dığa nəyə güvənib
Getmək istəmirsən mənimlə yola.
Dağların başından aşağı enib,
Dünənki nökərtək ocağımı qala.

Qatı düşmənimdi Zori Balayan,
Zor da mənimkidi, bala da mənim.
Zorinin toxumu mənimdir inan,
Qərbi Azərbaycan mənim vətənim.

O zaman türkümün yazığı gəlib,
Müvəqqəti verib torpağı sənə.
Sənin vəhşi xalqın xeyli dincəlib,
Murdar xasiyyəti işlədib yenə.

Nə idi günahı o qara xalqın?
Qırdın Xocalıda nə qədər insan.
Rusun ətəyindən tutdun, tutalqın,
Nə qədər qırıldı orda gözəl can.

Çingizin çəkdiyi o səhnələrə,
Baxdıqca insanlar dəhşətə gəlir.
Ölən igidlərin hərə bir nərə,
Baxdıqca dəhşətlər qəlbimi dəlir.

Çəkdikcə ağlayır, dözmür ürəyi,
Fəryadlar eyləyir qəlbi Çingizin.
Həmin an o idi xalqın gərəyi,
Xocalıda gəzdi o dizin-dizin.

Heyif ki, tez dəydi namərd gülləsi,
Milli Qəhrəmanın ürəyi söndü.
Ekranlarda qaldı o məğrur səsi,
O qartal qanadı qayadan endi.

Hamıda olsaydı onun qeyrəti,
Qorxardı erməni, qalib gəlməzdi.
Qeyrətlər olsaydı hamıda qəti,
Şuşada erməni bizə gülməzdi.

Nə edək Çingizin ruhu şad olsun,
Onun heyifini qoymarıq yerdə.
Qeyrətsizlik bizə daim yad olsun,
Qırıb erməninini salarıq dərdə.

Gündəlik yetişir Milli Ordumuz,
Hər əsgər böyüyür qəhrəman kimi,
Mütləq azad olacaqdır yurdumuz,
Həqiqi sözümdü bir fərman kimi.

Ali Baş komandan icazə versə,
Qarabağı alacaqdır ordumuz.
Onu mən deyirəm qısaca, kəsə,
Düşmənlər əlində qalmaz yurdumuz.

Onda şad olacaq ruhu Çingizin,
Şuşaya, Laçına bayraq sancanda.
Düşmən sürünəcək çox dizin-dizin,
Əsgər əməl edəcəkdi hər anda.

İlan ki ölməsə düzəlmir heç an,
Erməni ilandı, oxucum, bilin!
Onu ilan yaradıbdır Yaradan,
Əsgərim ilanı öldürün, silin!

Əgər silinməsə o kainatdan
Murdar xasiyyəti düzələn deyil.
Silin erməni gözəl həyatdan!
İnsanlıq yoluna o gələn deyil.

Tök murdar başına qıran bombanı!
Bircə nişanəsi qalmasın heç an.
Zəhərdi iliyi, zəhərdi qanı,
Belə doğulubdur haylar anadan.

Vəhşi olmasaydı anası əgər,
Tərbiyə verərdi bir ana kimi.
Yalnız böyütməyi deyildi hünər,
Bu vəhşilik gedər hayana kimi.

On beşinci ildən cumur bizlərə,
İyirminci əsr ilk vəhşiliyi.
Yalquzaq qurd kimi düşüb düzlərə,
Zəhərlənib qanı, çirkdi iliyi.

Sağalmaz yaradır, sağaltmaq olmur,
Bəd xasiyyət şişdi, necə sağalsın.
O beyini şişin ağılı dolmur,
İnsan deyil insan adını alsın.

Tək ona layiqdir, əziz oxucum,
Heç zaman saymayın məni insafsız.
Əsgərim, qır onu, mən səni qucum,
Onun ləyaqəti belədir yalnız.

Çingizin çəkdiyi görüntülərdə,
Körpə uşaqları nə künə salıb.
Baxdıqca ekrana biz pərdə-pərdə,
Cavan ata-ana dərhal qocalıb.

Necə dözə bilsin o etdiyinə,
Dözə bilməz heç an insan ürəyi.
Heç kim qarşı durmur səhv getdiyinə
Tutsun erməni türkün çörəyi.

Daim dolanıbdır türk çörəyilə,
Çörəyi unutdu Zori yaramaz.
Balayan böyüdü türk xörəyilə,
Yaramaz yazıçı, yaramaz qanmaz!

Gündə haray saldı Hacıyev Əlif,
Onu eşitmədi Vəzirov, Ayaz.
Mərmilər yağırdı hər gün müxtəlif,
Əhəmiyyət vermədi əqildən dayaz.

Vəziryan deyildi Əbdürrəhmana,
Baxmadı sözlərə həmin bambılı.
Qışqırdı küçədə nə qədər ana,
Ayaz da dinmədi həmin bambılı.

Qorudular vəzifəni, kürsünü,
İnandılar Qarbaçovtək alçağa.
Qəflətən Vəzirov qaçdı bir günü,
Ayaz tez yerində oldu bir ağa.

Xocalının başbiləni gəlsə də,
Ayaz onu yaxına buraxmadı.
Elman dedi ona yaramaz dədə,
Qəbul eyləmədi, sözə baxmadı.

Ayazın o cılız yaramazlığı,
Verdi Xocalını ikicə gündə.
Qarbaçova yaxşı gəldi qılığı,
Sonra başa düşdü uduzmuş bəndə.

O da baş götürüb qaçdı rusyaya,
Doğma vətənindən didərgin düşdü.
O vaxtdan başına düşübdür "qaya",
Azərbaycanından o sürgün düşdü.

Cəsarəti çatmır gələ vətənə,
Çünki sayılıbdır xalqın düşməni.
Qaçqınlıq vətəndə oldu ənənə,
O da eşitmədi xalqı deyəni.

Xalqının səsinə səs verdi Öndər
Baxın vətənində nələr yaratdı.
Ondaydı igidlik, ondaydı hünər,
Çiçəklənən çox bölgələr yaratdı.

Qısa vaxtda oldu əmin-amanlıq,
Onu tez yaratdı Heydər zəkası.
Götürüldü aradan hər həyəcanlıq,
Kəsdi bölgələrdən gələn hər yası.

Olsaydı olmazdı Xocalımızda,
Bu qədər amansız olan qırğınlar.
Atəşkəs kəsdirdi olan o yazda.
Davalar səngidi həmin o anlar.

Allah götürməsin belə zülümü,
Nə qədər insanlar qırıldı o gün.
O ağır hal yandırıbdır elimi,
Altı yüz on üçü məhv oldu bütün.

Min iki yüz yetmiş beşi əsirdi,
İtənlərin isə bilinmir sayı.
Əsir düşənlərin çoxu yesirdi,
Döyülür, göylərə düşür harayı.

Əsirdən gələnlər söyləyir nələr,
Zənənləri lüt gəzdirir çöllərdə.
Əzab çəkən əsir quzutək mələr,
Döydükcə düşürlər çox ağır dərdə.

İşlədirlər ağır iş olan yerdə,
İnsanlıqdan kənar rəftarları var.
Düşürlər ən ağır bəlaya, dərdə,
Vəhşi ermənilər eyləməyir ar.

Yoxdur nə qeyrəti, nə də namusu,
Axçi gəzdiyini gözüylə görür.
Dərhal ələ alır hər gələn rusu,
Ruslar erməninin çiçəyin dərir.

Giribdir o kefli rus qılığına,
Minir maydan kimi hər yerə sürür.
Həqiqi sözümdür, ha məni qına,
Rusun səbəbinə gündəlik hürür.

Rus çəkilib getsə Ermənistandan,
Qarabağda bircə erməni qalmaz.
Qan çıxsa erməni tez qorxur qandan,
Qalsa da orada qalar xeyli az.

Birdəki qalacaq gəlinlərimiz,
Çünki arvadıdır biqeyrətlərin.
Səhv edib əzəldən uduzmuşuq biz,
Bu işin kökləri dərindir-dərin.

Qarabağ erməni torpağı deyil,
Sovetlər dövründə alıb torpağı.
Sonra hissə-hissə verdi neçə il,
Verdi o torpağı rusun bayrağı.

Gözəl Qarabaği almalıyıq biz,
Sonrada alarıq O İrəvanı.
Qərbi Azərbaycan bizimdir təmiz,
Tamam almalıyıq o hayıstanı.

Bütün toponimi dəyişdi onlar,
Sovetlər dövründə rus da dinmədi.
Bizlər də dinmədik biz müsəlmanlar,
Ruslar isə dediyindən enmədi.

Adlar dəyişildi, kəndlər, şəhərlər,
Qədim Vedi adı oldu Ararat.
O zamandan artdı dərdlər, qəhərlər,
Qəlbimiz olmadı heç zaman rahat.

Adını unutdu Zəngibasarım,
Erməni adına çöndü o yerlər.
Dağıdıldı hər ziyarət hasarım,
Yeni adla çağırıldı şəhərlər.

***

Bütün toponimi dəyişdi alçaq,
Vaxt gələr yenidən dəyişəcəyəm.
Mənimdir o yerlər, mənimdir Ocaq,
Vaxt gələr səninlə əyişəcəyəm.

Elə ki, əmr etdi Baş Komandanım,
Onda öz işimi tez görəcəyəm.
Koroğlu qanıdır bil mənim qanım,
Başmı barıya mən hörəcəyəm.

***

Heç zaman güvənmə rus şinelinə,
Şineli başına keçirəcəyəm.
Aldanma sən onun saxta dilinə,
Səni nökər tutan o həmin bəyəm.

Necə tez yadından çıxıbdır onlar,
Yeyirdin süfrəmin qırıntısını.
Yalvarırdın mənə o həmin anlar,
Görmürdünmü axçi harıntısını?

İndidə qudurdun keçmiş nökərim,
Müharibə edirsən başından yekə.
Səni məhv etməyə vardır hünərim,
Bu geniş dünyaya olmusan ləkə.

Güvənmə heç kimə yekəbaş dığa!
Etdiyim səhvləri etməyəcəyəm.
Başının üstündə olacam ağa,
Birdə o səhv yolu getməyəcəyəm.

Yazığım bir daha gəlməyəcəkdir,
Qonaq kimi qəbul etməyəcəyəm.
Heç kim torpağımı bölməyəcəkdir,
Bir daha səhv yolu getməyəcəyəm.

***

Aşıq papağını geyən bir insan,
Oldu ordumuzun Baş Komandanı.
O Rəhim Qazıyev xain, bivicdan,
O gözəl Şuşada çıxmadı cam.

Şuşadan tökmədi O bombalan,
Xankəndinə, ermənin başına.
Olmadı bar verən, oldu cır an,
Çıxmadı o "ərimgəldi" qarşına.

Gizləndi komada, min hiylə qurdu,
Neçə igidimi güllələdi də.
Güya satılıbdır, neçəni vurdu,
Neçələrinə də söylədi hədə.

"Şuşa getsə başma güllə vuracam",
Şuşa getdi, O gülləni vurmadı.
Mən Babəkə, Cavanşirə möhtacam,
O gündən xaindi Rəhimin adı.

Elçibəy maymaqlar yığdı başına,
Dedi ki, sürüyə bir təkə bəsdi.
Əhəmiyyət vermədi dağa-daşına,
Bakıda hərdənbir titrədi, əsdi.

Onu aldatdılar qoçu bəyləri,
Qol da çəkdirdilər neçə boş fərman..
Qoydu iş başına olan səyləri,
Heç kimin dərdinə olmadı dərman.

Hərə öz işində, öz yığmağında,
Yaddan çıxdı o gözəl Qarabağım.
Hərləndi solunda, həm də sağında,
Bizi uduzdurdu başsız olmağım.

Həmin gündən Qarabağım satıldı,
O yaltaq, yaramaz ermənilərə.
Neçə insan ağaclardan asıldı,
Qışqırdı Xocalım gündə min kərə.

Kürsü davasından açılmadı baş,
Bakıda başbilən itirdi özün.
Qarabağım getdi tez yavaş-yavaş,
Heç kim cəsarətli demədi sözün.

O gözəl Xocalım tarimar oldu,
Qırıldı orada nə qədər insan.
Kənardan baxdıqca bizə ar oldu,
Sanki unutmuşdu bizi Yaradan.

Dörd qətnamə yazılsa da nə fayda,
Avropa Şurası bir iş görmədi.
Yığıncaqda qəraq yazmaq bir qayda
O qərarlar heç bir xeyir vermədi.

Avropa Şurası iki üzlüdür,
Nala vuran zaman mıxa da vurur,
Ikili iş görür, qəlbi buzludur,
Havaya söz deyib kənarda durur.

Aldadıb dünyanı çoxdan erməni,
Qeyrəti itirib, namusdan keçib.
Həqiqi deyirəm, doğru say məni,
Yaltaqlıq yolunu daimi seçib.

Köksündəki deyil insan ürəyi,
Xocalıda neçə körpə öldürüb
Gözümlə görmüşəm eyləyib nəyi
Əl ilə çox vurub zərbə öldürüb.

Ağbirçək qadının ayıb yerinə,
Nələri yeridib, nələr eyləyib.
Görübdür işləri rus hünərinə,
Türklər düşmənimdir söyləyib.

Kəlpətinlə ölü dişini çəkib,
Ordakı bir qırıq dişindən ötrü,
Çoxunun daşında şırımlar əkib,
O alçaq nanəcib işindən ötrü.

Uşağı mismarla vurub ağaca,
Dərisini soyub qan axa-axa.
Nifrət eyləyirəm bu alçaq aca,
Uşağı doğrayıb anası baxa.

Eylədiyi hər iş vəhşi işidir,
Insan olan heç kim bu işi görməz.
Ermənінin daimi vərdişdir,
Faşistlər də onu etməyib əvəz.

Düşmənsən, eybi yox, öldür kişitək,
Təhqir eyləmək də öz vərdişindi.
Güllə ilə atdın, kənardan əl çək
Ağlagəlməz alçaqlıqlar işindir.

Heyif səndə qalmaz, ay vəhşi dığa,
Məhf edəcək səni Mübarizələrim.
Axır birləşəcək nə qədər ağa,
Gündəlik böyüyür nə qədər Nərim.

Biz qan istəmirik, sülh istəyirik,
Sizin kimi vəhşi deyilik bilin!
Müqqəddəs Qurana bil baş əyirik,
O vəhşi adəti qəlblərdən silin!

Əgər insansansa düşün insan tək,
Vəhşilik eyləmə, acgöz erməni.
Erməni kişisi sanki bir köpək,
Axçisi daimi sevibdir məni.

Köpək olmasaydı əgər erməni,
Ölən cəsədləri təhqir etməzdi.
O elə xəstədir yoxdur dərməni,
İnsan olsa vəhşi yola getməzdi.

Öldürmüsən güllə ilə qoy ölsün,
Cansız meyidləri təhqir nə demək?
Ay vəhşi, sifətin saralsın-solsun!
Tanrım da etməsin heç sənə kömək.

Uyma daşnakların xasiyyətinə,
Qırdıqca qırdırır öz millətini.
Axırda düşəcək çox ağır günə,
Onda görəcəkdir onda çətini.

Vəhşilikdən bezən ermənistanlı,
Gündəlik dağılıb oradan gedir.
O daşnaq ürəkli, ürəyi qanlı,
Dayanıb orada pisliklər edir.

Xocalını qırdı rus ilə birgə,
Nə qədər insanlar əsir də düşdü.
Insan cəsədləri düzülmüş cərgə,
Çoxlar o dünyada bəlkə görüşdü.

Yoxdur erməninin heç bir dünyası,
Çünki sinəsində vəhşi bir ürək.
Saymır eylədiyi minlərlə yası,
Seçilib dünyada qırılsın gərək.

İnsanlığa layıq deyil bu millət,
Əcdadından yetişməyib heç zaman.
Daim qan axıdıb, toplayıb sərvət,
Yamanlıq eyləyib gündəlik yaman.

Ekranlardan görün nə etdiyini,
Ölən insanları nə günə salıb.
Özü də bilməyir nə etdiyini,
Çoxunun qarnına dəmirlər çalıb.

Nə idi günahı körpə uşağın,
Öldürüb gözünü çıxarıb onun
Vecinə almayıb birçəyi ağın,
Çırıb əynindəki paltarı donun.

Abır-həyasını gözləməyibdir,
O gördüyü işi faşist etməyib.
Namusu-qeyrəti izləməyibdir,
O cansız cəsədin hər yerinə dəyib.

Necə insan deyim, necə mən sənə,
Əcdadın oxşayıb canavarlara.
Daimi demişəm, deyirəm yenə,
Erməni vəhşidir, getsə də hara.

Bu yerişlə yaşayammaz millətin,
Hansı insan vəhşilərlə dost olar?
Pislik eyləyənlər yaşayar çətin,
Alçaqlıq eyləyən daim alçalar.

Sən necə yazarsan Zori Balayan?
Yazmağınla milyon düşmən qazandın.
Ay beyni çürük, ürəyi çirk-qan,
Saxtadır düşüncən, saxtadır andın.

Silva  Kaputyan da səntək yaramaz,
Yoxdur sinəsində ana Ürəyi.
Sizin ürəyiniz şişibdir, nasaz,
Unutmusuz türk verdiyi çörəyi.

Gec tez tutacaqdır o çörək sizi,
Yoxuydu vətənin türk verdi sizə.
Özünüzə saydınız bizim dənizi,
Alçaqlıq yaraşır səviyyənizə.

Qovdular sizləri o yad ellərdən
Yığıldınız bura, qonaq eylədik.
Sizi insan bilib yığdıq çöllərdən,
Eybi yox, qonşumuz olsun söylədik.

Kök saldınız sonra tez qudurdunuz,
Çünki əcdadınız vəhşi canavar.
Bu mənim vətənim deyib durdunuz,
Utanmaz-utanmaz etmədiniz ar.

Bir xalqın yazanı alçaqsa əgər,
Başqa yaramaza nə demək olar.
Yazmaq olardımı "Ocağı" məgər?
Axırda vətənin tarimar qalar.

Qərbi Azərbaycan mənim Vətənim,
Sən yaxşı bilirsən başı boş dığa.
İrəvanda çoxdan mənimdir mənim,
Vermənəm səníntək olan alçağa.

Serijlə Koçaryan qısqırdı sizi,
Hürüdünüz bizə, qarabağlıya.
Göstərdiniz onda səviyyənizi,
Qarabağ sizindi sayırsız güya.

Oranı heç zaman verməník sizə,
Birdəfəlik çıxart səfeh başından.
Kişilik yaraşmır səviyyənizə,
Birdəfəlik düşün, birdəfəlik qan!

Səninki vətənin heç vaxt olmayıb,
Müxtəlif yerlərə səpələnmisən.
Başa da düşmürsən, etmirsən ayıb,
Verdiyim Rəvanda topalanmısan.

Bilmirsənmi İrəvanı Xan Rəvan,
Tikib eyləyibdir böyük bir şəhər.
Orda olmamısan heç vaxt anadan,
Olmayıb nə atın, nədə ki, yəhər.

Stalin bizləri ordan köçürtdü,
Yığıldınız başqa ellərdən ora.
Mikoyan da ona zəhər içirtdi,
Sizə kömək etdi, ürəyi yara.

Biz köçəndə orda az idi erməni,
Yaşayırdı bəlkə bir neçə faiz.
Həqiqi sözümdü eşidin məni,
Ermənidən vardı orada az iz.

İndi Ermənistan olan o yerdə,
Min evdən on idi erməni evi.
Deyirəm başa düş, ağılsız bir də,
Rəvanda bir neçə erməni evi.

Cəsarət etmirdi çıxsın küçəyə,
Ermənilər gizlənirdi evlərdə.
Axşamlar çıxmırdı heç vaxt eşiyə,
Pəncərəyə çəkilirdi cüt pərdə.

Bax beləcə idi erməni günü,
İndisə çoxalıb qudurub yenə.
Başa salmaq olmur o namümkünü,
Onda pislik yaratmaqdır ənənə.

On beş, on səkkizdə etdiyi işi,
Yenə təkrarladı Xocalımızda.
Tərgidə bilməyir olan vərdişi,
Başa düşə bilmir azcacıq az da.

Uşaq öldürmüsən ay vəhşi insan,
Nə olsun ki, düşmən sayırsan bizi.
Daim doğulmusan ilan anadan,
Gündə göstərirsiz səviyyənizi.

Bir də görəcəksən Milli Ordumuz,
Qovdu sizi paytaxt İrəvanadək.
Eşit məni dığa, ay ürəyi buz,
Vedibasar, Göyçə, ta Sevanadək.

Köhnə yurdlarımı tam almalıyıq,
O alçaq Stalin veribdir sizə.
Mütləq qələbəni biz çalmalıyıq,
Qırılmaq yaraşır əqidənizə.

Xocalı yarası sağalmalıdır,
Bu soyqırım yaralayıb qəlbimi.
Qarabağı əsgərim almalıdır,
Bu mənim qəlbimin şüarı, himi.

Qalx ayağa qalx silahlan əsgərim!
Sənin hünərinə bələdəm çoxdan.
Qələbə çalmaqdır daim hünərim,
Keçirt ermənini nizədən, oxdan.

O buna layiqdir, vəhşidir deyə,
Elə eylə birdə heç dirilməsin.
Ruslar o vəhşiyə olsa da yeyə,
Qırılsa qorxacaq kəsəcək səsin.

O buna layiqdir oxucum bilin,
Məni də o qədər saymayın zalım.
Düşməndir vətənə olan bu elin,
Onları görəndə sönür əhvalım.

Belə vəhşiləri yaradan Allah,
Nə üçün yaradıb, bilmirəm hələ.
Çoxdan düşünürəm, çoxdandı vallah,
Onlar olan yerdə daim vəlvələ.

Nə saymır Allahı, nə də insanı,
Ağlına nə gəlsə onu eyləyir.
Zəhərdi iliyi, çirklidir qanı,
Dünyada sülənir hər yerə dəyir.

Qəflət bir gecədə hücum eylədi,
Üç yüz altmış altı rusun alayı.
Erməninin nökəriyəm söylədi,
Erməniyə satılmış həmin ayı.

Altı yüz on üçü məhv oldu o gün,
Min iki yüz yetmiş beşi itkindi.
Nəticəsi hələ bilinmir bütün,
Odur ki, ürəyim alışdı dindi.

Belorus Xatında olan soyqırım,
Xocalıdan betər olmayıb bilin.
Xocalı faciəsi qəlblərdə şırım,
Qəlblərində yaşayacaq bu elin.

Tibb bacısı olan o Zöhrə xanım,
Yaralı görəndə sürücü İlqarı
Tez keçir sükana olsa da xanım,
Çatdırır Xocalıya yarsa da qarı.

Erməni tənəsinə dönür igid qız,
Onu axtarırlar öldürmək üçün.
Sonrakı döyüşdə o ölür yalnız,
Vəfasız dünyadan yükləyir köçün.

Bacısı Nəzakət ana olmamış,
Həyat yoldaşım dərhal itirir.
Onun aqibətin söyləyir yalnız,
Başı kəsmələri gözüylə görür.

Səkkiz ailə isə tamam yox olub,
Sanki olmayıbdır Xocalıda onlar.
Nə də birisindən nişanə qalıb,
Onlarla birlikdə nə qədər canlar.

Hamı çıxıb gedib Zakir tək qalıb,
Deyib ki qalacam öz evimizdə.
Axıradək döyüşüb o əl çalıb,
Orada məhv olub, qalmayıb iz də.

Elmira Zəkara qızı dindikcə,
Donur damarımda o qızıl qanım.
Necə dözə biləsən axı necə?
Qırılıb orada neçə aslanım.

Söylədi Elmira getdim Ucara,
Gəlmədi mənimlə öz oğlum Mahir.
Dedi erməniyə vuracaq yara,
–Nə məni aparma, nə burdan ayır.

–Sinif yoldaşlarla vuruşacağıq,
–Xocalını qoyub gedən deyilik.
–Qalıb ya torpağa qarışmalıyıq,
–Ya qırıb ortada gəzməliyik dik.

–Biz getdik orada qaldılar onlar,
Vuruşub orada şəhid oldular.
Onuncu sinifin tam uşaqları,
Qırıldı üstünü aldı soyuq qar.

Qardaşlarım qırıldılar hamısı,
Bacım oğlanları hamısı orduda.
Qırıldıqca keçirirdik biz yası,
Qırıldı orada xeyli ordu da.

Atam-anam, yoldaşım və anası,
Həlak oldu bir gecənin içində.
Bacım ilə körpə Lalə balası,
Qırıldılar Xocalının köçündə.

Çingizin hönkürüb o ağladığı,
Göstərin dediyi bizim Lalədi,
Taleyin anası kürəyinə bağladığı,
Yaş yarımlıq olan oğlu Samirdi.

Çingizin çəkdiyi o cəsədləri
Gördükcə ürəyim yanıb yaxılır.
Qırılıb igidlər, nə qədər pəri,
San ki ürəyimizi şişə taxıbdır.

Xumar Səlimova söylədim ki mən,
Görmüşəm gözümlə nə olduğunu.
Qardaşlarım üçü ordaydı həmən
Gördüm ki kimlərin boğulduğunu.

Qarqarın çayını keçmək üçün biz,
Bizə kömək etdi Valeh Hüseynov.
Qorxudan çıxmırdı bircə səsimiz,
Erməni ovçuydu, bizsə ona ov.

Tələsirdik "Kətiyin meşəsinə",
Eşitdik ki əsir düşübdür Valeh.
O kömək etmişdi yüz neçəsinə,
Qəflətən tutmuşdu erməni səfeh.

Nə deyim taleyin bu vərdişinə,
Kimi tuta bilir erməni dığa.
Məəttələm  Allahın bu işinə,
Dığaya nə üçün tutulur ağa..

Qəhrəman Mikayıl, Araz Səlimov,
Qardaşları Fəxrəddinlə bir yerdə.
Erməniyə gəlirdilər onlar dov,
Öldülər Xumarı saldılar dərdə.

Xumar ağladıqca nələr söyləyir,
Görüb gözləriylə hər ağır günü.
Çox ağır bir günə düşmüşdüm deyir,
Dəf edə bilmirdik o namümkünü.

-Namərdin əlinə düşməyim deyə,
Qardaşım istədi məni öldürsün.
Atam mane oldu, tez oldu yeyə,
-Əsir düşmə qızım, qaç sən tez bütün.

-Öpdüm qardaşımı, bir də atamı,
Bildim ki bir daha görüşmənik biz.
Bir anda ayrıldı qohumlar hamı,
Qırıldı nə qədər olan nəslimiz.

Otuz nəfər adam qaçırtdıq o gün,
Bizi qarşıladı çox saqqallılar.
Olan kişiləri qırdılar bütün,
Vəhşi o dığalar, o yaramazlar.

Taleh Quluyevin o Ramilləsi,
Uşağı belində qaçdı düzünə.
Güllələr dəydikcə gəlirdi səsi,
Bilmədik nə oldu, sonra düzü nə.

Eşitdik dəyirmiş daldan güllələr,
Uşağın cəsədi saxlarmış onu.
Allah nələr gördük o günü nələr,
Bu dərd yaddan çıxmaz ta ömür sonu.

Mən yıxılan zaman ölü biliblər,
Gediblər qalmışam mən ölü kimi.
Namussuz, qeyrətsiz deyib gülüblər,
Mənsə tərpənmədim bir ölü kimi.

Gördüm ki zarıyır bir cavan oğlan,
Məndən su istədi, qar yığdım ki mən.
Verim, gördüm ermənilər gəlir həmin an.
Gözlərimi tamam yumdum yenidən.

Bizi ölü bilib getdilər onlar,
İstədim oğlana qar verəm dərhal.
Gördüm oğlan ölüb, əlindədir qar,
Mən də zarıyaraq çox oldum bihal.

Silkələdim onu, oyadım deyə,
Gözlərini açıb güc ilə baxdı.
Of Allahım deyib boylandı göyə,
Mənim gözlərimdən qanlı yaş axdı.

Qardaşlar ölümünü görməsəm də mən,
Yanımda öləni qardaşım sandım.
Ağladım, ağladım dərhal yenidən,
Yaralı-yaralı yandım odlandım.

Yanımdakı o oğlan da öləndə,
Ümidim kəsildi səbir qalmadı.
Elə bil ölmüşəm orada mən də,
Gözlərimlə gördüm yaxını-yadı.

Qalmadı həyatla ölümün fərqi,
İstədim özümü öldürəm özüm.
Ölənlər cəsədi sanki bir sərgi,
Tükənirdi məndə getdikcə dözüm.

Birdən bizimkilər haray eylədi,
Onların səsini eşitdim dərhal.
Bu səs mənə dözümlü ol söylədi,
Səsləndim onları olsam da bihal.

Ermənilər mənə atəş açanda,
Bizimkilər tezcə verdilər cavab.
Atəş ortasında olmaz güman da,
Allaha yalvarıb eyləyirdim tab.

Yenidən huşumu itirən zaman,
Ağdamlılar bizi xilas eylədi.
Mənsə söyləyirdim Allaha aman,
Allahım ölümdən məni əylədi.

Məni xilas edən neçə igidin,
Bircəciyin adı qalıb yadımda.
Elgiz idi adı həmin igidin,
Mənə kömək etdi öz fəryadında.

Sağ qalıb qalmayıb bilmirəm hələ,
O bircə deyildi, çox idi onlar.
Arzumdur sağ qala yanıma gələ,
Mən çox sevinərəm həmin o anlar.

Atam qardaşlarım şəhid olmağın
Üççə aydan sonra bilmişəm onu
Onların dağıdır ən ağır dağım,
Unuda bilmənəm ta ömrüm sonu

Qəhrəman qardaşım Araz həmin gün,
Plemiyotu ilə qırmışdır çoxun.
Qumbaralar ilə qırmışdır bütün,
Çoxunu qırmışdır o axın-axın.

Patronları tamam qurtaran zaman,
Sonuncu qumbara açılmamışdı.
Birini özünə saxlamış haman,
Səbiri tükənmiş, tamam daşmışdı.

Son anlarda onu əsir tutublar,
Doğmalar yanında nələr ediblər.
O vəhşi erməni eyləmədən ar,
Onun üzərində nələr görüblər.

Axırda özünün pulemyotunu,
Başına çaxaraq öldürübdülər.
Cəsədi üstünə neçə lotunu,
Çıxarıb nə qədər əcir veriblər.

Kiçik qardaşımı, Mikayılı da,
Qətlə yetiriblər o həmin anda.
Polis işçisiydi o zaman o da,
Bilməm necə əcir veriblər necə.

İgid qardaşların igidliyi üçün,
Qürurla danışmaq yaraşır mənə.
Fəqət Xocalımız qurtarsa bütün,
Ağdamla birlikdə qurtarsa yenə.

Şikəstliyim onda çıxar yadımdan,
Mən rəqs eyləyərəm Xocalmızda.
Qalmayacaq onda o fəryadımdan,
Bərpa olacaqdır Xocalımız da.

Yusif  Mirzəyevin heyifini biz,
Almalıyıq vəhşi həmin yanlardan.
Şirin, Əlif kimi igidlərimiz,
Fred Asif igid həmin onlardan.

Canpoladın igidliyi, qeyrəti,
Ermənini yaman qorxuya saldı.
Heç kimdən qorxmazdı o igid qəti,
Heyif ki, namərdlər gülləyə aldı.

Döyüşdə vuruşan Elman Hüseynov,
Vəzir Orucovla qəhrəman oldu.
Aslan Kərimov da igid dəlisov,
Moxrator kəndində o həlak oldu.

Otuz səkkiz yaşlı bu qəhrəmanın,
Nələr danışırlar igidliyindən.
Qurban verdi Vətəninə o canın,
Onu qəhrəmantək sevəcək Vətən.

Ağdərə rayonu azad olanda,
Aslan çox kəndləri azad eylədi.
Leninavanla  Marquşavanda,
İgidliklər edib nələr söylədi.

Marağa, Levonarx Çaylı kəndini,
Ulu Qarabəyi onlarla bütün.
Kasapet, Mehratac bərə-bəndini,
Çardaxlı, Meteşen kəndi neçə gün.

Aslan Kərimovun igidlikləri,
Yayıldı ellərin hər bir yerinə.
Hamı tərif etdi həmin o nəri,
Nümunə göstərdi igidlərinə.

Vətən heç vaxt igidini unutmaz,
Unudulur qorxub qaçan nadanlar.
Vətənini sevməyənlər yaramaz,
Töhmətli olacaq onlar hər anlar.

Nə qədər igidlər qırıldı gündə,
Bəzi cəsədlər də qaldı çöllərdə.
Ona yana-yana qaldı Vətən də,
Ağladı, sızladı bizim ellər də.

Atəşkəs olsa da gündə davadı,
Dayanmır bir yerdə vəhşi erməni.
Toponimlərimin dəyişir adı,
Hər olan dəyişmə incidir məni.

Gözəl Laçınımın adı dəyişib,
Nədir ermənicə bilinmir hələ.
Baxıb Kəlbəcərin beli əyişib,
Gözləyir Cavanşir qoç Nəbim gələ.

İstisuyu heç vaxt vermərik yada,
Dəlidağım kimi gözəl dağımı.
Onu heç vaxt sevə bilməz dünya da,
Alagölü, Sarıyer yaylağımı.

Baş Komandan versin hücum əmrini,
Cihad elan edib gedək hamımız.
Başlarına vuraq paslı dəmrini,
İcazəni versin Baş İlhamımız..

Ağlama Xocalım, ağlama heç an,
Vaxt gələr heyfini alarıq bir gün.
Ağlayıb qəlbimi dağlama heç an,
Düşmənə təbili çalarıq bir gün.

Artıq çiçəklənir gündə yurdumuz,
Babək ordusuna dönür ordumuz.
Düşmən vəhşiliyi olsa da hər gün,
Onu pis günlərə salarıq bir gün.

Güvənməsin heç vaxt rus ordusuna,
Mən getsəm qarşımda olacaq cuna.
Onu məhv etməsəm sən onda qına,
Başının tükünü yolarıq bir gün

Bil ki, o günlərim deyil uzaqda,
Mən dəmir parçası o cürük taxda.
Zəfərlər çalmağım durur qabaqda
Nifrət çələngitək dolarıq bir gün.

Cavanşir nəsliyəm, Koroğlu nəsli,
Qəhrəman Soltanbəy, Nəbi nəfəsli.
Heyif ki, Kərəmi incitdi Əsli,
Kərəmin qeydinə qalarıq bir gün.

Rədd olacaq erməni tək qonağım,
İrəvana sancılacaq bayrağım.
Azad olacaqdı o Dəlidağım,
Düşməni çöllərə salarıq bir gün.

Xocalı heyfini almasaq olmaz,
Tənbəllik eyləsək olarıq nasaz,
Xankəndində çalınacaq telli saz,
Şuşada tar kaman çalarıq bir gün.

Laçını heç zaman verməmik ona,
İnsantək düşünə o tezcə qana.
Bir od vuracayıq ermənistana,
İrəvanda namaz qılarıq bir gün.

Haydı igidlərim, haydı irəli!
Göstər erməniyə olan hünəri.
Baxıb dəli olsun axçinin əri,
Zimistana döndər onun yazını!

Donuz koldan çıxmaz, qırmasan onu,
Öldürsən çatacaq ömrünün sonu.
Tərsinə başına keçirək donu,
Dayanmaz, almasan murdar canını.

Marş deyirəm, marş irəli əsgərim!
Ay mənim igidim, ay mənim nərim.
Sən yaxşı bilirsən çoxdur hünərim,
Qeyrətinə heyran olum, çıx başa!
Düşmən hünərinə etsin tamaşa.

O sənin qarşında çürük bir kötük,
Düşüncəsi dayaz, əqidəsi puç.
Qeyrətinin qarşısında o sönük,
Marş irəli, marş deyirəm qardaşım!
Sənin hünərinə ucalsın başım!

Ağlama Qarabağ, ağlama heç an!
Səni heç bir zaman darda qoymanam.
Məni igid yaradıbdır Yaradan,
Səni heç bir zaman darda qoymaram.

Gündəlik böyüyür qoç igidlərim,
Əzəldən də vardır böyük hünərim.
Axır olacaqdır mənim zəfərim,
Səni heç bir zaman darda qoymaram.

Yadımdan çıxmayır göydən asılan,
Körpə uşaqların sinəsində qan.
Təhqir eylədilər neçə gözəl can,
Səni heç bir zaman darda qoymaram.

Saçımdan asılıdı gözəl sənəmlər,
Dərisi soyulan gözləri nəmlər.
Meşələrdə qaldı kürdlər, əcəmlər,
Səni heç bir zaman darda qoymaram.

Bu vəhşilik olmayıbdır dünyada,
Qulaq asdıq Xocalıda fəryada.
Hələlik erməni orda qalsa da,
Səni heç bir zaman darda qoymanam.

Çox da səni verdi bəzi nadanlar,
Torpağını satan əyri vicdanlar.
Başlı - başınaydı o həmin anlar,
Səni heç bir zaman darda qoymanam.

Şükür artıq vardır baş bilənlərim,
İndi başda durub İgidim, Nərim.
Tarixən olubdur mənim hünərim,
Səni heç bir zaman darda qoymanam.

Düşmən də olammaz Cavanşir yurdu,
Gündə böyüməkdə o Milli Ordu.
Öndərim ordunu gedəndə qurdu,
Səni heç bir zaman darda qoymanam.

İndi başda durur Öndər balası,
Qulağında qalıb ana laylası.
Unudulmayacaq Heydər qaydası,
Gözlə Xocalımız, gözlə sən hər an,
Orda qala bilməz o erməni yan.

Gözünü tökəcəm mən Azəroğlu,
Birləşəcək əmi, dayı, xaloğlu.
Məhv olacaq ermənitək itoğlu,
Darıxma Xocalım, gözlə sən məni,
Verməněm yadlara ana Vətəni.

Vətənim Qarabağ uludan ulu,
Azərim ağaydı, erməni qulu.
O erməni indi azıbdır yolu,
Qudurğanlığını məhv edəcəyəm,
Birləşəcək Kürdüm, Talışım, Əcəm.

Ləzgim, Tatım, Avarım da birlikdə
Vuruşacaq həm dərədə, həm dikdə.
Qıracaq düşməni dağda, gədikdə,
İlhamımın ilhamıyla alarıq,
Ermənini yaman günə salarıq.

Öndərimin planları çox dərin,
İlham davam edir, ona afərin.
Ay əsgərim nə yorulma, nə ərin,
İlhamın zəkası qalib gələcək,
Biz aslanıq, erməni öndə böcək.

Arxayın olmasın o daşnaqlara,
Daşnaq düşmənindir, ay bəxti qara
Bu yerişlə gedəcəksən sən hara?
Mən səndən böyüyəm, sən beşdə birim,
Gündəlik böyüyür nə qədər irim.

Güvənmə Serijə, ya Koçaryana,
Zori Balayantək o bevicdana.
Vətənini  bələyəcəm mən qana,
Rədd ol vətənimdən, rədd ol erməni!
Qırılanda onda qınama məni.

Marş irəli, març deyirəm əsgərim!
Ay mənim igidim, ay mənim nərim!
Bilirəm ki çatacaqdır hünərim,
Əgər məhv olmasa o Emənistan,
Arxeyin olammaz şən Azərbaycan.

# QARAÇI QIZI QARAGİLƏ

## (poema)

Qonşumuzda bir qaraçı qızı var,
Mən onu sevirəm, dillənmir fəqət.
Dinmədikcə qəlbim tamam olur dar,
Bu da mənim üçün olacaq dəhşət.

Soruşdum ki, niyə sevmirsən məni?
Söylədi ki, məndən gözəlsən dedi.
Düşündükcə araşdırdım deyəni,
Dedi ki, bu sevgi səninçün nədi?

Yenə söylədi ki, sən ilk yaşından,
Günlər keçir gündə baxırsan mənə.
Onu hiss etmişəm hər baxışından,
Məndə altdan-altdan baxmışam sənə.

Sən azəri, mən qaraçı qızıyam,
Ata-babalarım dilənib gündə.
Sənin gözlərində dan ulduzuyam,
Baxdıqca onlara diləndim məndə.
Sən ala bilməzsən dilənçi qızı,
Yanağımdan tökülsə də gözəllik.

Bəyənməzlər sizlər məndəki nazı,
Alsan, başın daim ola bilməz dik.

Sənə lağ edəcək qohum əqraban,
Dilənçi qızını almısan deyə.
Razı ola bilməz bəlkə də baban,
Onlarda ah-nalə yüksələr göyə.

Çoxda ki, Yevlaxda böyümüşük biz,
Qonşuyuq, birlikdə dərsə gedirik.
Fəqət bir deyildi heç əqidəmiz,
Hərdən birdə zarafatlar edirik.

Zarafatlar ürəyimdən deyildi,
Kənardan baxanlar gülürlər bizə,
Bu baxışlar bilirəm on bir ildi,
Hiss edirəm sevmək deyildi təzə.

Ancaq çox fikirləş, çox düşün dərin,
Ata-ananı da cəlb eylə işə,
Razı eyləməyə olsun hünərin,
Razı olmasalar düşmə təşvişə.

Atanın-ananın fikiri əsas,
Bir də qardaş-bacı razılaşmalı,

Onların sözünə daim qulaq as,
Dəqiq yoxlamalı, alanda balı.

Tövsiyəm belədi, bu həqiqətdi,
Bu ömür sövdası deyildi oyun.
Bu sözüm sizlərə olan hörmətdi,
İnsan nə quzudur, nədəki qoyun.

Çoxda ki, sevirsən, hər sevən almır,
Qisməti yazıbdır o Qibləgahım.
Sanma ki, sevənlər heçdə qocalmır,
Yazıb alnımıza olan Allahım.

Allahın yolundan çıxmaq çətindi,
Çıxanlar rast gəlir nə qədər aha.
Tanrı yolu tutmaq hər millətindi,
Söylədiklərimi düşün sən daha.

Qaraçı qızının bu qədər dərsi,
Məni çox apardı fikrə, xəyala.
Fəqət ola bilməz heç hədər dərsi,
Xeyli fikirləşdim mən bala-bala.

Bir baxın dilənçi qaraçı qızı,
Nələri söylədi, nələri Allah.
Xeyli düşünməli olacam azı,
Belə bir əqilə əhsəndi vallah.

Gözəl bir qızcığaz dərs verir mənə,
Xeyli qulaq asdım bu qızcığaza.
Qulaq asdım dönə-dönə mən yenə,
Bir də onda olan yüz cürə naza.

Nə olsun ki, qaraçının qızıdı,
Onda ki, əqilə, düşüncəyə bax.
Qaragilə onun inci adıdır,
İncədir üz-gözü, incədir dodaq.

İllər gəlib keçir, sevirəm onu,
Bu sevgi qəlbimi yandırıb yaxır
O da hiss eyləyir nə olduğunu
Mən baxdığım kimi o da tez baxır.

Qaraçı tayfası köçəri tayfa,
İllərlə dolanıb diyarbədiyar.
Dilənər həm oğlu, həm əri tayfa.
Fəqət sovet vaxtı oldu son qərar.

Köçərilik ləğv edildi qərarla,
Çoxu məskən saldı Yevlağımızda.
Saraylar tikdilər dilənmiş varla,
Bizə qonşu oldular həmin yazda.

O gündən bu qızı sevirəm gündə,
Sevgim alovlanır gündəlik öndə.
Əl çəkə bilmirəm mən yazıq bəndə,
Sevəcəyəm onu mən dönə-dönə.

Onunla birlikdə dilənsəm belə,
Əl çəkən deyiləm bu sevgilimdən.
Ömrümü sovurub versəm də yelə,
Aralanmayacam qönçə gülümdən..

Məni ovsunlayıb qaraçı qızı,
Həqiqi sevirəm özümdən betər.
Toy edim, çaldırım sədəfli sazı,
A Məmməd etdiyin səbirin yetər.

Səbri səpələdim ağ vərəqlərə,
Səpdim ata-ana ayaqlarına.
Alıb oxudular vərəqlər hərə,
Sevən gərək sevgisinə sarma.

Söyləmişdim belə, ay atam-anam!
Vurulmuşam qonşum olan bir qıza.
İndi istəmirəm artıq utanam,
Bu sevgim çıxıbdır nə qədər yaza.

O qonşumuz qaraçının qızıdı,
Bir yerdə oxuyub dərs öyrənmişik.
Baxtımın ilkidir, hətta yazıdı,
Sanmayın ki, onu tərs öyrənmişik.

Qoy bilsin qohumlar, bacı qardaşlar,
Onda sevinəcək məni sevənlər.
Fəqət sevməyəcək ürəyi daşlar,
Başa düşəcəkdi yeni sevənlər.

Tərəddüd etməyin əziz qohumlar,
Qaraçını sevmək əzizdir mənə.
Bu sevməyi heç vaxt anlamayın ar,
Sevmişəm, sevirəm, sevəcəm yenə.

Tanıdığınız o qaraçı qızı,
Nə qədər ağıllı düşüncəlidir.
Odur ki, sevmişəm hər gələn yazı,
Sanmayın ki, Məmməd artıq dəlidir.

Bir misqal qüsuru yoxdur o qızın,
Yüz şalvarlı qızdan təmizdir təmiz.
Min dəfə çəkərəm mən onun nazın,
Qəlbim də billurdan daim tərtəmiz.

Bax belə bilirəm ay atam-anam,
Qoymayın qəlbimdə sönsün bu arzu.
Elə iş görmürəm sonra utanam,
Əridin qəlbimdə olsa da buzu.

Siz icazə verin toy eyləyək biz,
Sizin icazəniz şərəfdir mənə.
Artıq başa çatsın olan sevgimiz,
Üzür istəyirəm yenidən yenə.

Naümid qoymayın sevən qəlbimi,
Onu mən sevmişəm illərdən bəri.
Heç vaxt sevməyəcəm başqa bir kimi,
Bu sevmək Məmmədin axır hünəri.

Qız deyir ki, valideyinsiz gəlmə,
Müqəddəsdir ata-ana sevgisi.
Atasız anasız almağı bilmə,
Gəlməlidir ata-ana ikisi.

Əgər istəyirsiz yaşayım rahat,
Mənim sevməyimə irad tutmayın.
Mən onu sevmişəm illərlə qat-qat,
Mənim bu sevgimi dünyaya yayın.

İlk dəfə sarılıb anamı öpdüm,

Dərdimi söylədim həmin an ona.
Qəhər məni boğdu köpdükcə köpdüm
Eşqimi söylədim mən yana-yana.

Anam razılaşdı, öpdü gözümdən,
Söylədi: Gözəldi qaraçı qızı.
Onda razı qaldım özüm-özümdən,
Yaxşı ki, sevmişəm o işvə-nazı.

Atam anam ilə elçi getdilər,
Şükür razılaşdı qaraçı ata.
Hamısı birlikdə şükür etdilər,
Kaş hamısı belə xoş günə çata.

Başlandı Azəri-qaraçı toyu,
Qarışdılar hamı yallı getdilər.
Bu xoş günlər olsun ta ömür boyu,
Qaraçılar qaraçı rəqs etdilər.

Çox şükür xoşbəxtəm o gündən bəri,
Sizə də söylədim bu hekayəti.
Sevmək olsun hər igidin hünəri.
Heç vaxt uduzmasın bir nəfər qəti!

***11.09.2011.***

# RÜBAİLƏR

Nə deyim fələyin hər gərdişinə,
Yaramaz olanı çəkir döşünə.
Yararlı insanlar bəzən görürəm,
San ki yaramayır onun işinə.

* * *

Dərisi beş qəpiyə dəyməyən kəsi,
Ucaldır, gur çıxır onun nəfəsi.
Özünü aparır hamıdan üstün,
Şişir, danışanda gur çıxır səsi..

* * *

Kölgəsiz insanın xoş gedir işi,
Sayılmayır heç vaxt onun keçmişi.
Yadından çıxarıb keçmişini də,
Yaramazlıqlardır onun vərdişi.

* * *

Dişisi boyayır gündə qaş gözü,
İcazəni verir erkəyin özü.
Gözəllik evindən çıxmayır gündə,
Erkəyin dişiyə keçməyir sözü.

* * *

Qeyrətsizi başa salmaq olmayır,
Boş gəzməklə heç vaxt cibin dolmayır.
Boş-boş gəzib kimsələrdən umma sən,
İşləyəni ancaq işləyən sayır.

* * *

Söyləmir ki arvad. Vardır nəticən,
Az qalıbdır hətta olsun kötücən.
Mən ki səni bəyənmişəm gənclikdə,
Niyə dayanmayır o olan öcən?

* * *

Özünü bəzəməz ağıllı arvad,
Bəzənəndə mənə olursan ki yad.
Axı səni sevib almışam ki mən,
Kimə bəzənirsən ay evi bərbad?

* * *

Bəzəndin qız vaxtı aldı bir kişi,
Cavanlıqda bu iş hamının işi.
İndi kimin üçün bəzənirsən sən?
Burax birdəfəlik moda vərdişi.

* * *

Dörd yanına dolub oğulun, qızın,
Kinayəli baxar olan baldızın.
Sənin bəzənməyin xoş gəlmir heç an,
Vaxtsızdır, keçəmməz olan hər nazın.

* * *

Tərgit bu adəti ay vətən qızı!
Sevdiyin kişinin ayı-ulduzu.
Tumar ver telinə öz əllərinlə,
Qəbul etmə bəzənən hər arsızı.

* * *

Yuyun səhər-səhər çeşmə başında,
Qoy qalsın yerində qara qaşın da.
Heyifdi qaşını qırxma heç zaman,
Ona rəva bilməz ahıl yaşında.

* * *

Çox sıxır gündəlik məni zəmanə,
Vaxtsız başa saldı dəni zəmanə.
Şair qəm qüssəni qov sən başından,
Qovmasan tez yıxar səni zəmanə.

* * *

Varlılar bürünüb qızıla, zərə,
Yığırlar daş-qaşı gizli bir yerə.
Fəqət bilməyirlər faydası yoxdur,
Gedəndə məzara verməz səmərə.

* * *

Qanmazlar görəndə könlüm usandı,
Əhilləşdirməyə heyvan asandı.
Vay halına qanmazı dindirəndə,
Görəcəksən insanlığını dandı.

* * *

Ömür çaylar kimi axdıqca gedir,
Xoş gün görmədikcə qəlbləri didir.
Bir də görürsən ki ömür tükənib,
Bilmirsən ki gedən ömürdən nədir.

Yorulandan sonra işləmir beyin,
Gedə bilməyirsən sən yeyin-yeyin.
Getməyə dizlərin taqətdən düşür,
Onda ha əsəbləş, ha gündə deyin.
* * *

Çox deyinməyin də yoxdur mənası,
Bircə yaddan çıxmır ana laylası.
Çün ki o laylalar qana sorulub,
Silir qana düşən olan hər pası.
* * *

Mən də pərvanətək oda yanmışam,
Yandıqca dünyanı onda qanmışam.
Cavan ikən çəkmişəm ev qeydini,
Sanmayın ki, etdikcə usanmışam.
* * *

Usanmağım olmayacaq heç zaman,
Məğrur doğulmuşam əjpıl anadan.
Atam cavan getdi, O sıxdı məni,
Şair həqiqəti nə gizlət, nə dan.
***

Həqiqəti danan nakişidir bil,
Tərbiyə görməyən yaramaz, səfil.
Elə yaramaza ha hörmət eylə,
Hörmət eyləsən də o qanan deyil.
* * *

Hörmətlər eylədim yaxına-yada,
Xeyrini görmədim fani dünyada.
Yaxşılığı qanmaz heç başa düşməz,
Çünki o sahibdir şərəfsiz ada.

* * *

Çox yatma əzizim, yatan ac qalır,
Ac qalan insan da vaxtsız qocalır.
Çatdır öz ömrünü əməklə başa,
İşsiz adam utanaraq alçalır.

* * *

İnsan gümrah olar gündə görsə iş,
İşlədikcə yaranar onda vərdiş.
Boş gəzən insanın hörməti olmur,
Fikirdən özünü eyləyir təftiş.

* * *

Duran öküz yatanları ayaqlar,
Yatan onda təsirlənib edər ar.
İnsan da elədir, yatdıqca gündə,
Ondan uzaqlaşır perik düşür var.

* * *

Varı olmayan kəs hörmətsiz olur,
Varlını gördükcə saralıb, solur.
Peşman olub özünü danlayanda,
Görür ki uduzub başını yolur.

* * *

Peşmançılığın da faydası yoxdur,
Gündə işləyənlər daimi toxdur.
Tənbəlin heç zaman varı olmayıb,
Təəssüf dünyamızda tənbəllər çoxdur.
* * *
Doğrudur tənbəl var daim qudurur,
Çünki havadarın yanında durur.
Ya atası məmur, ya da anası,
Ata kölgəsində bığların burur.
* * *
Əqili, kamalı olmasa belə,
Özünü göstərir ağıllı elə.
Bahalı maşınlar minib səirdir,
Bilmir öz hünəri deyildi hələ.
* * *
Əqidəsiz ata baxıb sevinir,
Nə fikir verməyir, nə də ki dinir.
Bir də görür oğlu narkoman olub,
Onda alovlanır yandıqca sönür.
* * *
Zəhmətsiz var ilə o quduranlar,
Varla cılızlaşır o ölücanlar.
Varı olanadək belə olacaq,
Varı gedən kimi özünü danlar.
* * *

Belədir əzizim, köks ötürməyin,
Çoxalıb dünyada nökərin, bəyin.
Nə qədər ki, bərabərlik görünmür,
Olacaq həm bəyin, həm də ki, səyin.

* * *

Namusla yaşamaq daha şərəfdi,
Alın təri ilə yığdığın nəfdi,
Xalqının malını oğrasan əgər,
Onda hörmətsizlik edən hədəfdi.

* * *

Yığ alın təriylə varı-dövləti,
Onda töhmətləri almazsan qəti.
Gözlər baxa-baxa zəhmətsiz yığsan,
Olacaqdır sənə xalqın töhməti.

* * *

Xalqın da nifrəti yaman bəd olur,
Onu başa düşən saralıb solur,
Elə ki nifrəti qazananda sən,
O nifrət daimi üstündə qalır.

* * *

Çalış xalq yanında qazan hörməti,
Xalq hörməti unutmayır heç qəti.
Hörmətsizlik qazandığın həmin an,
Onda itirirsən həm də şöhrəti.

* * *

Şöhrətli olmağı istəsən əgər,
Özün əziyyət çək, üzdən axsın tər.
Alın təri ilə qazandıqların
Halalın olacaq hər şeydən betər.

* * *

Zəhmətsiz qazanclar müvəqqətidi,
Müftə yeyib şişmək haram ətidi.
Tər töküb yaşayıb yaratsan əgər,
O da insanlığın bir şöhrətidi.

* * *

Şöhrətlə yaşayıb yaratdıqların,
Heç zaman eyləməz sizləri harın.
Harınlıq hər kəsin başına bəla,
Kişiyə yaraşmaz həm yekə qarın.

* * *

Yekəqarın kişi arvada bənzər,
O qarınla boğaz arvadlar gəzər.
Bu hal yaraşmayır heç bir kişiyə,
Kişi nəcib olar, oynayar, süzər.

* * *

Kişilər oynayar Süleymanini,
Bir də məhv eyləyər olan canini.
Yaramazlıq yaraşmayır insana,
Yaşayaq doğruca həm də qanuni.

* * *

Eşit sözlərimi, eşit ay insan,
Hamı pak doğulub əziz anadan.
Pak ol paklığını gözlə həmişə,,
Kişiliyi nə gizlətmə, nə də dan.

* * *

Bir yerə yığılsa bütün insanlar,
Onlar bir-birini yaxşıca anlar.
Hərə bir tərəfə yönün çevirsə,
Ağıllılar ağılsızları danlar.

* * *

Ağ vərəqtək doğulubdur hər insan,
Çox pak olub doğulanda anadan.
Həyat çirkləndirir bulayır onu,
Bəzi vicdanlıdır, bəzi bevicdan.

* * *

Şərabın nəşəsi çox uzun çəkmir,
Nanəciblər sağlam toxumu əkmir.
Səviyyəsiz insan şərablar içsə,
Rast gələn insanı düz yola çəkmir.

* * *

Çoxluca yükləmək olmaz ürəyi,
Çünki ürək daim insan gərəyi.
Onu çox incidib qəmlərə salsan,
Fikirləş ki incidirsən sən nəyi.

* * *

Ürəyi incitmək olmaz əbədi,
Bilməlisən canlı üçün o nədi.
Onu incidənin əqili olmaz,
Ya dəlidi, ya da qanmaz gədədi.

* * *

Ürək deməz qocalmışam heç zaman,
Onu işlək yaradıbdır Yaradan.
Yaradanın sərəncamı çıxanda,
Özü hököm edəcək, ay ürək dayan!

* * *

Sərəncam olmamış yaşa arxeyin,
Sərəncama əməl eyləyir beyin.
Hər şey Yaradanın öz əlindədir,
O sərəncam versə nə dillən, deyin.

* * *

Yoxdur bu dünyanın heç bir mənası,
Əzəldən belədir onun qaydası.
Elə ki, vaxt gəldi, vədə yetişdi,
Onda hər bir kəsin başlayır yası.

* * *

Çox ağlamağın da yoxdur faydası,
Gün keçdi ömürdən, getmək qaydası.
Dünya belə gəlib, belə gedəcək,
Qalır incə yaşamağın mənası.

* * *

"Yaşamaq yanmaqdır" deyib Bəxtiyar,
Vahabzadə daim könüllərdə var.
Səmimi yaşadı fani dünyada,
Neçə milyon sözü qaldı yadigar.

* * *

Qorxusuz yaşamaq istədikdə sən,
Heç kimə yamanlıq eyləmə həmən.
Yamanlıq eyləsən bil ki, o zaman
Sənə də yamanlıq edəcək düşmən.

* * *

Özün alimsənsə nadandan yayın,
Çünki o deyildi heç sənin tayın.
Haqq acı olsa da dinlə sən onu,
Mənalı keçəcək günlərin, ayın.

* * *

Ləyaqətsizləri saymayın diri,
Nə qədər olsa da yekəpər, iri.
İrilik insanın əqilindədir,
Əqilsiz gözəllər deyildi diri.

* * *

Buraxma tamahı özünə yaxın,
Allahın verdiyi ruziyə baxın.
Tamahı çox olan tezcə qocalır,
Günü çox pis olur elə axmağın.

* * *

Özünə bir koma qurmağa tələs,
O zaman əməyin üzərində əs.
Elə ki qalmağa evin düzəldi,
O çəkdiyin əmək deyildi əbəs.

* * *

Bu fani dünyada ölüm gerçəkdi,
Ölüm ölüm deyil, yer dəyişməkdi.
O dünya var, yoxsa hələ bilmirəm,
Ölüm bu dünyadan getmək deməkdi.

* * *

Nə yuxu, nə şəhvət, nə də ki yemək
Birinin də mənası olmasın gərək.
Öz adına layıq işlər gör ki sən,
Hər zaman yaşadar səni tək əmək.

* * *

O şey ki insana tam aşikardı,
Demək orda nəsə xəzinə vardı.
Xəzinəni tapmaq ağıllı işi,
Ağıllı olanlar çox bəxtiyardı.

* * *

Səbirli olanda qazanır insan,
Olan o səbirli olammaz peşman.
Səbirsiz heç zaman qazana bilməz,
Səbirsiz olanlar tez itirər can.

* * *

Divar tez yıxılar zəifsə təməl,
Təməli də gərək eyləsin düz əl.
Bacarıqsız bənna təməl qoyarsa,
Axırda binada olacaq əngəl..

* * *

Dövran bir günəşdir, ömür isə qar,
Qar günəş düşəndə olur tarimar.
Əzəldən belədir insanın ömrü,
Mənalı keçirtmək, nə qədər ki var

* * *

Düzlük sevən şair taleyi yazar,
Nə yolun itirməz, nədə ki azar.
Artıq zarafatlar olur qüsurlu,
Mənasız yaşayan qəbrini qazar.

* * *

Baş salamat olar, dili saxlasan,
Çox danışan rahat olammaz heç an.
Sözün də yeri var, yeri gələndə,
Söylə həqiqəti, nə gizlət, nə dan.

* * *

Təəssüflənmə malın, dövlətin getsə,
Varı özü verən alıbsa nəsə.
Görünür nanəcib çıxdığın üçün,
Əlindən alıbdır o verən, kəsə.

* * *

Gül içində olan alağı kəsin,
Gülü bəsləməyə üstündə əsin.
Güllərə bənzəyir bəzi gözəllər,
Görəndə çoxalır onda həvəsin.

* * *

Dostunun dostuyla sən də dostluq et,
Dostun düşməninin yanından tez öt.
İlanın üstünə qonan milçəkdi,
Zəhərlidir onun yanından tez get.

* * *

Özünə rəvam bilməsən nəsə,
Dostuna da rəva bilməyin kəsə.
Həqiqi dostunun yanında ol ki,
Etibarlı dostdur, səndən küsməsə.

* * *

Ağıl gücdən üstün olur hər zaman,
Onu belə yaradıbdır Yaradan.
Ağılını işlət, gücə güvənmə,
Eylədiyin səhvi nə gizlət, nə dan.

* * *

Normadan çox olan yaxşılıq etmə,
Bir də uzun olan çox yola getmə.
Qəddarlıq eyləmək yaxşı iş deyil,
Nə pislik eyləmə, nə də ki itmə.

* * *

Mehriban olanda məhəbbət olar,
Mehribanlıq edən hörmətli qalar.
Pislik eyləməyin nə mənası var,
Pislik eyləyənlər sonra edir ar.

* * *

Söz də şərab kimi məst edər səni,
Məst etdiyi kimi ayıldar yeni.
Çox bilən olsan da az danış, az din,
Həqiqətdir eşit şair deyəni.

* * *

Yaxşılıq eyləsən pis ola bilməz,
Yaxşılığa heç nə olammaz əvəz.
Yamanlıq eyləmək nadan işidir,
Yaxşı işlərinlə get dünyanı gəz.

* * *

Gücsüzə rəhm eylə, güclüdən qorun,
Çün ki o güclülər olurlar harın.
Tək Allahın çatır harına gücü,
Ay harın köməyin olammaz varın.

* * *

Yaxşılıq pislik də özünə layıq,
Pislik eyləyəndən daim ol ayıq.
Nə pislik eyləmə, nə ayıq olma,
Dalğa güclü olsa saxlamaz qayıq.

* * *

Acımamış yemə, doymaqdan əl çək,
Az yemək mədəyə eyləyir kömək.
Çox yeyib mədəni yormaq nə lazım,
Çox yeyənlər şişir, az çəkir əmək.

* * *

Yazdığına əməl etməyən alim,
Ona hörmət etməz qayğıkeş elim.
Özün ki yazmısan ay alim onu,
Əgər doğrudursa qoy olsun təlim.

* * *

Kimin sərvəti çox, səxavətsizsə,
Sərvət başına dəysin, söylədim kəsə.
Zahirən yoxsuldur həmin o insan,
Düşməsin kim ilə o bəhs ha bəsə.

* * *

Çalış həddən artıq özünü öymə,
Namərd qarşısında qəddini əymə.
Dolan kişi kimi, dolan mərdanə,
Qudurub heç zaman yoxsulu döymə.

* * *

Sözü ki, aşkarda deyə bilmirsən,
Daldada da onu heç söyləmə sən.
Nə qədər gizlində söyləsən onu,
Çıxacaq aşkara o söz yenidən.

* * *

Ağladan yaxşıdır, güləndən qorun,
Güldürənlər olur nakişi, harın.
Heyvan kimi yeyir, şişirdir özün,
Boğaz kimi olur o yekə qarın.

* * *

Nadanın yanında susmaq yaxşıdır,
Pisliyi eyləmək nadan naxışıdır.
Sən isə heç kimə pislik eyləmə,
Pisliyi eyləmək vəhşi baxışıdır.

* * *

Yaramaz adama qoşulan insan,
Yaramazlıqları öyrənir ondan.
Çalış yaramazı yaxın buraxma,
Yaramazı yaxın buraxar nadan.

* * *

Hər zahiri göyçək gözəl ola bilməz,
Bu bir həqiqətdir, get dünyanı gəz.
Üzdən gözəllərin çirkini çoxdur,
Daxildən gözəli eyləməz əvəz.

* * *

Ağıllı adamlar dalaşmaz heç an,
Ona o ağılı verib Yaradan.
Özünü aparır daim ağıllı,
Heç vaxt əyə bilməz onları nadan.

* * *

Danışıb başqanın sözünü kəsmə,
Nə də ki hirslənib havayı əsmə.
Səndən əvvəl danışana qulaq as,
Ağıllı sözündən heç zaman küsmə.
* * *

Bir məclisdə tək danışıb coşma ki,
Bəlkə orda var səndən ağır çəki.
Danışdırmasalar danışma heç an,
Artıq danışarsan çəkərsən yükü.
* * *

Düşməni dostuna çevirən insan,
Ağıllı adamdır sən ona inan.
Nə lazım daimi düşmənlik etmək,
İnsan düşmən doğulmayıb anadan.
* * *

Əsil dost odur ki eybini desin,
Dost ilə daimi düz çörək yesin.
Üzdə dost, daldada giley eyləsə,
Elə dostdan daim aranı kəsin.
* * *

Verilən suala tez cavab vermə,
Qönçələnən gülü tezliklə dərmə.
Sözü də tez desən çaşa bilərsən,
Hər olan işləri tələsik görmə.
* * *

Mümkün olmayanı heç arzu etmə,
Tanış da olmayan yollara getmə.
Bir də görəcəksən azıbsan yolda,
Cəviz ağacının altında yatma.

* * *

Qadına vacib şey həya ismətdir,
Həya insan üçün olan sərvətdir.
Həyası, isməti olmayan kəsin,
Ömürü keçdikcə ona töhmətdir.

* * *

Vaxt keçdikcə ömür çatacaq başa,
Çalış ki, ömrünü yaxşıca yaşa.
Elə ömür sür ki hər zaman, hər an,
Havayı dəyməsin ayağın daşa.

* * *

Bəd söz var daimi kəsdirər başı,
Söz də var dəyərli, kəsər savaşı.
Elə söz söyləmək gərəkdir sənə,
Deyəndə başına vurmasın daşı..

* * *

Lovğalıq eyləmək son xəcalətdir,
Axırda insana böyük töhmətdir.
Nə lovğalıq etmə, nə yalan danış,
İnsanı yüksəltmək ancaq zəhmətdir.

* * *

Var-dövlət dənizin suyuna bənzər,
Onu çox yığdıqca qəlbini əzər.
Yığdıqca qədrini bilməyən kəslər,
Axırı itirər, sərvətsiz gəzər.

* * *

Elmlə, ədəblə tapılar şərəf,
Mirvari olmasa nə lazım sədəf..
Çox bəzənməyin də vəfası yoxdur,
Bəzənmək acgözün gözünə hədəf.

* * *

Ağıllı adamlar kin saxlamazlar,
Kin saxlayar ancaq ağılı azlar.
Qardaş da qardaşdan inciyər bir an,
Kin saxlayan ancaq var yaramazlar.

* * *

Dost dostun yolunda düşər zindana,
Dost odur ki, hər əziyyətə dayana.
Dostun arxasından tez qaçan insan,
Doğru tərbiyəni verməyib ana.

* * *

Kədər qarşısında baş əymə heç an,
Hər olan ağrıya mərdliklə dayan.
Zəiflik göstərib tez əyildinsə,
Onda çox əziyyət çəkəcəkdir can.

* * *

Pisliyə pisliklə sən cavab vermə,
Nanəcib etdiyi işləri görmə..
Pisliyə yaxşılıq edin deyiblər,
Yaxşı yetişməmiş meyvəni dərmə..

* * *

Tamah qul eyləsə səni dünyada,
Yaradan Allahı daim sal yada.
Allah səni təmiz yaradıb deyə,
Daimi nəzarət edəcək o da.

* * *

Ağlın az olsa da özünün olsun,
Yaxşı işlər daim beyninə dolsun..
Xoşa gəlməz işi yaxına qoyma,
Yaxşı əməllərin dünyada qalsın.

* * *

Həyat səhnəsində insan aktyordu,
Aktyorluq insanı daimi yordu.
İşsiz bu dünyada gəzən adamlar,
Ya beyni zəifdi, ya gözü kordu.

* * *

Həqiqəti demək hünərdi, hünər,
Bu insan qəlbində olan bir təpər.
Hünərin yoxdursa yalan danışma,
Boş sözlə günlərin gedəcək hədər..

* * *

Ölümə bərabər tənha bir ömür,
İşləməyən zaman paslanır dəmir.
İnsan da elədir işləmədikcə,
Bədəni qaralır sanki bir kömür.

* * *

Hirsli başda ağıl olmadığı tək
Onu hirsləndirmək olmasın gərək.
Nə yalan danışma, nə hirsli olma,
Qoy səni yüksəltsin daimi əmək.

* * *

Elimsiz adamlar biliksiz olur,
Elimli adamlar kamala dolur.
Havayı ömrünü boş keçirənlər,
Başa düşən zaman saralıb-solur.

* * *

Haqsız olmağını etiraf etsən,
Başa düşüb onu söyləyirsən sən.
Həqiqəti desən hörmətin olur,
Onda səhv etməzsən bir də yenidən.

* * *

Dilin dediyini dana bilməzsən,
Gülməyin gəlməsə onda gülməzsən.
Doğrudur ölümlər haqdır dünyada,
Ölümün gəlməsə heç vaxt ölməzsən.

* * *

Ağıllı baş güclü qolla qalıbdı,
Ağılsız baş güclü olsa da tipdi.
Nə qədər ağılı göstərsə özün,
İnsan kimi insanlıqdan itibdi.

* * *

Məhəbbəti qanan etməz xəyanət,
Məhəbbət insançün böyük bir sərvət.
Məhəbbəti qazanmayan bir insan,
Olacaqdır ona daimi töhmət.

* * *

Gedəndə iz qoy ki yada düşəsən,
İz qoymasan onda bilinmir nəsən.
Pisliyi eyləyib getsən dünyadan,
Onda insan deyil bir müqəvvasan.

* * *

Divar tez yıxılar, olmasa təməl,
Yararsız təməllər eyləyir əngəl.
Ev tikəndə təməli möhkəm eylə,
Etməyəndə uçar, boşca qalar əl.

* * *

Dövran bir günəşdir, ömürlər də qar,
Günəş əridəndə olur tari-mar.
Heç də güvənmə ki, ömrün xoş keçir,
Bir də gördün getdin, məzarındır dar.

* * *

Düzlüyü sevəndi, həqiqət yazan,
Düz yazan daimi olmayır azan.
Həqiqəti söylə, düz danış ki sən,
Öndədir qıl körpü, həm də qır qazan.
* * *
O körpüdən keçmək böyük hünərdi,
Körpü də keçirir sınanmış mərdi.
Namərdlik eyləyib yolunu azsan,
Körpü keçirəmməz sən tək namərdi.
* * *
Namərd namərdliklə öyünməməli,
Əgər öyünürsə demək o dəli.
Bu dünyada ancaq yaxşılıq qalır,
Yaxşıların qalır yaxşı əməli.
* * *
Zəhmətsiz varlanan öyünməsin heç,
O var halal deyil, axır ondan keç.
Şüurlu övlada var lazım deyil,
Şüursuzsa varı tezcə olar puç.
* * *
Özü qazanacaq, şüuru varsa,
Heç qazana bilməz əqilli darsa.
Əqilsiz tənbələ ha güzəşt eylə,
Qazanmaz əgər ki işləmək arsa.
* * *

Tənbəli ha buyur, olammaz fayda,
Çünki o tənbəllik ondadır qayda.
Qeyrətli işini yaxşıca bilir,
Onu qorxutmayır nə qış, nə yay da.

* * *

Ay azan özünü çəkmə heç zaman,
Sən ki uduzmusan gənclik olan an.
Bundan sonra ola bilməz faydası,
Eylədiklərini nə gizlət, nə dan.

* * *

Görüblər, görmüşəm eylədiyini,
İndi düzəldirsən onun nəyini?
Eylədiyin işi hamı da bilir,
Fərq qoymadın nökərini, bəyini.

* * *

İndisə özünü sanırsan mələk,
İndi nə xəlbir yox, nə də ki ələk.
Ələnməmiş unlar yoğrulur gündə,
Başımıza gündə açılır kələk.

* * *

Kələyi açmağa yoxdur qüvvəmiz,
Həqiqəti söyləməyə yoxdur iz.
Etiraz etsən də keçməyir sözün,
Ağzını yumursan indi tər-təmiz.

* * *

Yummasan da onun yoxdur faydası,
Pozulubdur hər bir şeyin qaydası.
Hüzürün də düşsə, göstərişlər var,
İcazəsiz keçirmək olmur yası.
* * *
Adətlər də başbilənə bağlıdır,
İcra başçısının zəif ağlıdır.
İcazəni vermir üç gündən artıq,
Əməl eyləyənlər qəlbi dağlıdır.
* * *
Düzlüyü də sevir düz sözlər yazan,
Düz yolda olanlar olmayır azan.
Düz sözü söyləmək daha gözəldir,
Düz ol rəhmətliyi diriykən qazan.
* * *
Qüsurludur gündə zarafat etmək,
Zarafat eyləmək lazımdır tək-tək.
Bəzən zarafatlar tərsinə dönür,
Davaya çevrilir hər olan hənək.
* * *
Dövlət malda deyil, kamalda olur,
Ağıl yaşda deyil, saf başda qalır.
Ağılsısda olmaz nə dövlət, kamal,
Ağılsızlar ağılsız da qocalır.
* * *

Yaxşılıq eyləmək özünə qayıdar,
Pislik eyləyənə axır olar ar.
Pisliklər eyləmə, nə də arlanma,
Yaxşılıqlar daim qalır yadigar.

* * *

Acımamış yemə, doymamış əl çək,
Hər zaman ziyandı, hər artıq yemək.
Yeməkdən tez ayrıl, qoy gözün qalsın,
Normadan çox yemək ziyandır demək.

* * *

Xoşbəxtdi qazancı rahatca yeyən,
Bədbəxtdi özünü gündəlik öyən.
Allah verib sənə, özünü öymə,
Öyünsən olarsan dizini döyən.

* * *

Sərvətlisə, səxavəti olmayan,
Əslində yoxsuldur, olmaz bir sayan.
Toplayıb üstündə yatır ilan tək,
Söyləyən də yoxdur, yatıbsan oyan!

* * *

Çalış həddən artıq özünü öymə,
Nə də saxladığın nökəri döymə.
Allah yaratdığı bəndədir o da,
Nə də nakişilik eyləyib söymə.

* * *

Sözü aşkarlıqda demədikdə sən,
Gizlində də demə, faydasız həmən.
Çalış ki mərdanə de həqiqəti,
Doğruluğu danış daim yenidən.

* * *

Xəbər ürək açan deyilsə demə,
Tanış olmadığın yeməyi yemə.
Əgər oxuyursa gözəl xanəndə,
Qulaq as həm zilə, həm də ki bəmə.

* * *

Pis edən yaxşılıq qazana bilməz,
Yaxşılığa yaxşılıq olur əvəz.
Yaxşılıq eyləyən utanmaz heç an,
Yaxşılıq edənin lampası sönməz.

* * *

Hər zahiri göyçək olammaz gözəl,
Batili də gözəl olmalı əzəl.
Zahiri gözəlin batili çirkin,
Olanda başına tez düşər xəzəl.

* * *

Sədaqətə xəyanət eyləmə heç an,
Vara xəyanətdən ağırdır inan.
Heç nəyə xəyanət etməyən insan,
Demək saf doğulub sağlam anadan

* * *

Dost odur ki eybi üzünə desin,
Onunla birlikdə saf çörək yesin.
Üzdə dost, daldada qeybət eyləsə,
Elə dostluq onun başına dəysin.

* * *

Mümkün olmayam heç arzu etmə,
Tanımadığın o yollara getmə.
Nakişi, nanəcib düzələn deyil,
Onlardan heç zaman yaxşılıq güdmə.

* * *

Həmişə ölməyi tez yadına sal,
Ölmüşlərdən daim gündə ibrət al.
Məzarstanlığın yanından keçsən,
Oranı fikirləş, tez xəyala dal.

* * *

Deyərsə eybini, dostuna inan,
Gizlətsə eybini, ilandır ilan.
Dostisə dostuna doğrunu desin,
Nə yalan danışma, nə də ki utan.

* * *

Zülümkar heç zaman cəzasız qalmaz,
Nə də ki xalqından mükafat almaz.
Xalqının dərdinə yan, onu eşit,
Kişilik eyləyən saralmaz-solmaz.

* * *

Gül dərsən tikandan çəkinmə heç an,
İlanı da yaradıbdır Yaradan.
Layiqli əllərə tikanlar batmaz,
Tikanı götürür Xudam aradan.

* * *

Qadına ən vacib həya, ismətdir,
Kimlərdə varsa da böyük sərvətdir.
Həyası, isməti olmayan kəsin,
Daimi üzünə gələn töhmətdir.

* * *

İnsanları sevə bilməyən insan,
Həqiqəti sevə biləmməz inan.
İnsanı sevməyən insan deyildir,
Tək fərqi ondadır danışan heyvan.

* * *

Söz var ki daimi kəsdirər başı,
Söz də var yerində kəsər savaşı.
Sözü də söz kimi demək yaxşıdır,
Söz var parçalayar qayanı-daşı.

* * *

Elə söz söyləmək gərəkdir ki sən,
Söyləyə biləsən onu yenidən.
Söylədiyin sözdən ziyan dəyməsin,
Ziyan dəysə başa düçar tezcə dən.

* * *

Hörmət eylə özün hörmətlə yaşa,
Vaxt gələndə ömür çatacaq başa.
Elə işlər gör ki xalq səni sevsin,
Nəin ki gedəndə tutsunlar daşa.

* * *

Lovğalığın sonu xəcalət olur,
Xəcalər olanlar saralır-solur.
Lovğalıq eyləmə, kişi tək yaşa,
Kişi kişi kimi daimi qalır.

* * *

Sən hərəkət eylə, sükut ölümdü,
Boş işsiz dayanmaq bilin zülümdü.
Yaşamaq eşqiylə daim işlər gör
İşləmək insançün böyük təlimdi.

* * *

Ağıllı adamlar kin bəsləməzlər,
Yaxşı düşünməli hər düşünən sər.
Nə lazım, kin-küdrət kin yaxşı deyil,
Yaxşılıqla daim göstər sən hünər.

* * *

Ölüm ayağında olanda hər kəs,
Ümüdünü kəsməz, alacaq nəfəs.
Ölümlü olsa da ölmək istəmir,
Nəfəsi kəsilib çıxmasa da səs.

* * *

Dost dostun yanında düşsə ziyana,
Həqiqi dostdursa məğrur dayana.
Ziyandan ötəri dostu itirmə,
İtirsən qalarsan sən yana-yana.

* * *

Kədərə baş əymə, bədbəxtliyə döz,
Atalar deyibdir, bu yaxşı bir söz.
Bədbəxtlik üz versə sən məğrur dayan,
Kənardan boylanır istəməyən göz.

* * *

Düşmənin acdırsa ona yemək ver,
Düşmən olsa belə yaxşılığı gör.
O başa düşəcək sənsən mərd kişi,
Çalışacaq olsun o da səntək mer.

* * *

Pisliyə pisliklə cavab verməzlər,
Nanəcibin gördüyünü görməzlər.
O bir nanəcibdir pislik eyləyir,
Nanəcib bağından meyvə dərməzlər.

* * *

Başı sərin saxla, ayağı isti,
Atalar deyibdir, o nəyi pisdi.
Atalar sözünü yaddan çıxartma,
Çıxartsan başmı bürüyər tüstü.

* * *

Ağlın az olsa da özünün olsun,
Çalış ki yaxşı söz başında qalsın.
Hər nalayıq sözə fikir də vermə,
Olan nəsihətim beynində qalsın.

* * *

Sevgilim şərab süz, nuş edək bir az,
İçdiyimiz şərab faydasız olmaz.
Şərab hərdən qovur qəmi-qüssəni,
İçək nəşələnək, çalaq telli saz.

* * *

Telli saz olmasa qəm basar bizi,
O saz ozanların qaldığı izi.
O tayda da çalır onu soyadım,
Vəsf edir yurdumuz olan Təbrizi.

* * *

Soyadım hardadır, saz da var orda,
Saz zinət veribdir bizim hər yurda.
Çalıb Borçalımız, Göyçəmiz müdam,
Nə qədər çalanlar olubdur orda.

* * *

Böyük Ələsgərim qalıb Göyçədə,
Həm onun ustadı o Alı Dədə.
Səsləyir bizləri onların ruhu,
Alçaq erməniyə söyləyir hədə.

* * *

Erməni başına biz vurmalıyıq,
Zəngəzuru, Vedini almalıyıq.
O Oğuz elləri qalmasın yada,
Yenə də Göyçədə saz çalmalıyıq.
* * *
Onda bağışlayar Ələsgər ruhu,
Azad etdiyimiz hər Ceyran-Ahu.
Gözləyir bizləri itkin İman da,
Bir də orda yatan soyadın çoxu.
* * *
Yenə şərab gətir qəmim azalsın,
Ağlım püxtələşsin, xəyala dalsın.
Gündə söylədiyim dəyərli sözüm,
Xalqımdan ötəri tarixdə qalsın.
* * *
Tarixi yaratmaq çətin olsa da,
Dönə-dönə yazaq biz salaq yada.
Sovetlər dövründə saxtalaşıbdır,
Eybi yox saxlansın o tarix, o da.
* * *
Şükür yetişibdir alimlərimiz,
Onlar qoyacaqdır bu dünyada iz.
Baş Komandan deyib yenidən yazın,
Gündə çiçəklənir gözəl ölkəmiz.
* * *

Ölkəni qoruyaq suveren kimi,
Üzeyir yazdığı o gözəl Himi.
Üç rəngli bayrağım bir daha enməz.
Məmməd əmin deyib onu səmimi.

* * *

Dilin öz başına bəladır Fira,
Paxıllıq çəkirsən, qəlbindi qara.
Qalmısan evində tək bayquş kimi,
Özün də bilmirsən gedirsən hara.

* * *

Yoxdur öz yanında arvad, oğlan, qız,
Qalmısan yararsız evdə tək yalqız.
Doğma millətini təhqir edirsən,
Başın çönüb tamam olmusan arsız.

* * *

Sənin tək insana yazığım gəlir,
Başın tamam itib, qəlbini dəlir.
Sənə qulaq asan başa düşəndə,
Kinayəli baxıb güldükcə gülür.

* * *

Özünü qoymusan gülünc yerinə,
Sözlərin çönübdür çirkə, irinə.
Özün də bilmirsən nə söyləyirsən,
Xoş gəlmirsən məhləmizdə birinə.

* * *

İtirmisən tamam ağsaqqallığı,
Ağsaqqalın olmalıdır qılığı.
Görünmür başında bir misqal ağlın,
Tapdayırsan gündə palçığı-lığı.
* * *
Sənə heç yaraşmır o olan adın,
Görünür olmayıb yaxşı ustadın.
Kimsə sənə öyüd verməyib əsla,
Nə də səni saymır olan övladın.
* * *
Saysaydılar olardılar yanında,
Deyən qarışıq var o qanlarında.
Sənə övlad kimi qulluq etmirlər,
Övladlılıq hissi yox canlarında.
* * *
Mən yazıq sanıram səni ay yazıq,
Bilin qocalmışıq dünyada azıq.
Sən ki, itirmisən özünü tamam,
Nə həmin cavanıq, nə arvadbazıq.
* * *
Heç vaxt utanmırsan dediyin sözdən,
Əl çəkən deyilsən geydiyin bezdən.
Paxıllıq hisləri yandırır səni,
Durub danışırsan gündəlik tezdən.
* * *

Fira tərs adındır, heyif o ada,
Bazlıq soyadınla düşürsən yada.
Özüm tək ağsaqqal olduğun üçün,
Salmaq istəmirəm səni fəryada..

* * *

Həqiqəti demək hünərdir - hünər,
Onu deməyə də lazımdır təpər.
Təpərli olmayan hünərli olmaz,
Bəziləri yaşayırlar bir təhər.

* * *

Tənha keçən həyat ölmə bərabər,
Onu keçirirlər ancaq bir təhər.
Hər kəs tənhalığı bacara bilməz,
Bacaranlar yaşayırlar çox hədər.

* * *

Düzgün yaşamaqçün fikirləşməli,
Fikirsiz iş görən bilin ki dəli.
Yaxşı düşünməsən gördüyün işlər,
Sonra olacaqdır tamam gülməli.

* * *

Özünüzü daim təkmilləşdirin,
Təkmilləşmiş olsan olacaq yerin.
Boş işlərlə həyatını keçirmə,
İşlədikcə deyəcəklər afərin

* * *

Müsahib danışsın çox hissəsini,
Fəqət danışığı yormasın səni.
Yoxsula qulaq as, düşün sən dərin
Saxla hafizəndə yaxşı deyəni.

* * *

Haqsızlıq eyləsən tez etiraf et,
Həqiqəti söylə, sonra sona get.
Etiraf etməsən, köməklik olmaz,
Həqiqəti öyrən daim onu güd.

* * *

Narahatçılıqlar qorxu yaradar,
Nə pislik eyləmə, nə eyləmə ar.
Pislərin cavabın yaxşılıqla ver,
Yaxşılığın daim qalar yadigar.

* * *

Dilək bəndədəndir, kömək Allahdan,
Olan köməkliyi nə gizlət, nə dan.
Yaxşılıq eyləsən daha xoş olar,
Pisə də yaxşılıq eyləyin hər an.

* * *

Dilin dediyini danmaq çətindi,
Doğrunu söyləmək həqiqətindi.
Yalanlar danışıb olma yalançı,
Doğru söz söyləmək saf qeyrətindi.

* * *

Sözün qüdrətlisi ağıldan gələr,
Qüdrətli sözdürsə ürəklər dələr.
Boş söz danışmağın mənası yoxdur,
Doğru danışanın qəlbi dincələr.

* * *

Sözün qüdrətsizi ağıldan gələr,
Qüdrətsiz gələrsə qəlbləri dələr.
Qüdrətli sözlərin yoxsa danışma,
Havayı söz deyən axırda "mələr".

* * *

Ağıllı baş güclü gələr hər şeyə,
Ağıllılar çıxır səmaya, göyə.
Ağıllılar olmasa bu dünyada,
Rast gələrik çoxlu ağılsız səyə.

* * *

Əyri yolla qazandığın nə varsa,
Payla yoxsullara o sənə arsa.
Əyri yolla qazanmısan onu sən,
Bəsdir sənə özün üçün qalarsa..

* * *

Dərdli ürəkləri dərman sağaltmaz,
Ağır dərdi olan insanlar qalmaz.
Allah veribsə də o dərdi əgər,
Heç zaman da onun qarşısın almaz.

* * *

Külfətini sevən millətin sevər,
Millətini sevən o nər oğlu nər.
Xalqını sevməyən Vətəni sevməz,
Vətəni sevməyən, yox qəlbdə təpər.
* * *
Məhəbbəti olan etməz xəyanət,
Sevən sevgisini itirməz əlbət.
Əzəl sevgisini unudan kəslər,
Bilən insanlardan o alar töhmət.
* * *
Gedəndə iz qoy ki yada düşəsən,
İz qoymasan onda bilinmir nəsən.
Yaxşı əməlini öyrət övlada,
Əbədi deyilsən, bil ki gedənsən.
* * *
Bu dünyada yaxşı qalsa əməlin,
Yaxşı iş görmüsən onu da bilin.
Nanəciblik edib pislik eyləsən,
Pis də yola salacaqdır bu elin.
* * *
Pisliyin heç zaman yoxdur qiyməti,
Pislikdən kimsələr qazanmaz qəti.
Yaxşılıqlar eylə, yaxşı dolan sən,
Yaxşıların olur daim sərvəti.
* * *

Sərvətin də gərək qədrin biləsən,
İtirərsən qədirini bilməsən.
Havayı xərcləmə heç zaman onu,
Mənasız xərcləsən demək gədəsən.

* * *

Məhəbbət kor olur, düz görməyəndə,
Düz görməyən insan, kordu o bəndə.
Sonra peşman olsa faydası yoxdur,
Peşman olmaz o vaxt doğru görəndə.

* * *

Zahiri gözəllik aldatsa kimi,
Alarsa yazıqdır, zəifdi himi.
Sonra peşman olsa nə faydası var,
Qırmaq olmur uduzulan tilsimi.

* * *

Raqli tez aldandı üzdən gözələ,
İradda söylədik baxmadı hələ.
İndi ha özünü danla nə fayda,
İstər bundan sonra quzu tək mələ.

* * *

Baxmadı nə xala, ana sözünə,
Aldandı  uduzan cavan gözünə.
Gündəlik danlayır nadan düzəlmir,
Gündə bəzək vurur olan üzünə.

* * *

Nə qayını saymır, nə qaynatanı,
Utanmadan tez çağırır atanı.
Ata da zəifdir, qarşısın almır,
Günortaya kimi gündə yatanı.

* * *

Yatsa da saxlamır heç vaxt dilini,
Başa düşmək olmur onun felini.
Ağılında nə var onu işlədir,
Başa salmaq olmur belə dəlini.

* * *

Görmür gözəl olan balalarını,
Balalar da görür gönü qalım.
Tərbiyə versən də faydası yoxdur,
Azca da dəyişmir o əhvalını.

* * *

Anasından doğulubdur utanmaz.
Demək doğulanda o olub nasaz.
Nasazı sağaltmaq xeyli çətindi,
Qozbeli qəbirsiz düzəltmək olmaz.

* * *

Qozbellik yaransa əgər kimsədə,
Qozbeli alanlar olurlar gədə.
Qozbeli düzəltmək xeyli çətindi,
Düzəlməz heç zaman eyləmə hədə.

* * *

Ailə quranda uduzma heç an,
Uduzandan sonra ha alış, ha yan.
Tanrım insan kimi yaradıb səni,
Heç zaman səhv etmir bizi Yaradan.

***

Dərdim çoxdur heç azalda bilmirəm,
Ona görə mən daimi gülmürəm.
Bir ağır daş asılıbdır yaxamdan,
Gücüm çatmır deyə onu bölmürəm.

* * *

Şair olmağımda dərdə borcluyam,
Həm səmada həm də yerdə borcluyam.
Dərdim olmasaydı şair olmazdım,
Ona görə ona birdə borcluyam.

* * *

Varlının da öznə görə dərdi var,
Bu dünyanın həm namərdi, mərdi var.
İnsanlığı unudub çox yığanlar,
Ona görə ürəyində qurdu var.

* * *

Qanmazı qandırmaq xeyli çətindi,
Mırıldamaq insanın yox, itindi.
İnsansansa mırıldamaq yaraşmır,
Mırıldamaq ancaq biqeyrətindi

* * *



Atam Əyyub və anam Xatun



Bacım Əfruz



Qardaşım Salman



Osman Əfəndiyev və Nəriman Əyyub



Nəriman Əyyub, Qəzənfər Paşayev və Tahir Süleyman



Musa



Nəriman Əyyub


Nəriman Əyyub və Ağa Laçınlı


Nəriman, Rəhman, Salman Məmmədovlar



Salman



Əyyub (nəvə)



Zakir Mahmudov



Mail, Gülbəniz, Şamam Məmmədovlar



Bacım Tamam



Dursun Məmmədov və Nəriman Əyyub



Məmməd, Zakir, Bəsti və Zinyət



Etibar və Nəriman Əyyub




Nəriman Əyyub, Qönçə, Gülsəbah və Bəxtiyar



Sevinc və Aynurə



Qönçə və Akif Rəhimovlar



Nəriman Əyyub, Etibar və Aynur



Nəriman Əyyub Cavid, Salman və Mehman (nəvələr)



Mahir, Araz, Murad və Əfruz



Salman, Şəhriyar və Mehman (nəvələr)



Salman, Rəhim və Mehman (nəvələr)




Cavid və Piruzə Əyyubzadələr

* * *

Boş gəzənlər daim sayılmır inan,
İşləməyə yaradıbdır Yaradan.
Yaradandan ancaq olur bərəkət,
İşsizdə bərəkət olmayıb heç an.

* * *

Atalar söyləyib, işlə ki dişlə,
İnsanlar sayılır gördüyü işlə.
Veyil-veyil gəzsən hörmətin olmaz,
Məhv olarsan işləməyən vərdişlə.

* * *

Əgər insansansa düşün çox dərin,
Elə işlər gör ki olsun afərin.
Biqeyrətcəsinə gülmə heç zaman,
İşləsin beyinin işləsin sərin.

* * *

Hörmətsizlik etmə heç bir insana,
Hörmətlə böyüdüb qeyrətli ana.
Səni xoşbəxt görüb o da xoş olur,
Pozulsan qalacaq o yana-yana.

* * *

Unutma ananı, halal südünü,
Bir də ki verdiyi hər öyüdünü.
Yadından çıxartsan pis olar sənə,
Faydası yox peşman olduğun dünü.

* * *

Əlacım olsaydı mən insanlara,
Deyərdim, uymayın dövlətə-vara.
Yüz il yaşamırsan ağılsız bəndə,
Acgözlüklə görən gedirsən hara.

* * *

O çirkli pulları çürütmə heç an,
Xalqından gizlətmə, nədəki heç dan.
Zəhmətsiz yığdığın xalqın malıdı,
Xalqına baxanda bir azca utan.

* * *

Dəyişdi zəmanə, yox bərabərlik,
Çörək qazanmağa olmuşuqləlik.
Vəzifədə olan özəlləşdirdi,
Atasından qalıb, dedi üstəlik.

* * *

Genişləndirdi o müftəcə varı,
Özünü öydükcə olmadı arı.
Sanmadı özünün zəhməti deyil,
O var sovetlərin bir yadigarı.

* * *

Yaxınlıq, qohumluq modalaşdıqca,
Tikildi saraylar ucadan-uca.
Hər varlanan lotu ədalanaraq,
Getdilər Məkkəyə, getdilər Haca.

* * *

Hacc da qənim olsun yaramazlara,
Deyin lotu hara, o Məkkə hara?
Dəyişib zəmanə, bir baxan yoxdur,
Başları qarışıb dövlətə-vara.

* * *

İstər halal olsun, istərsə haram,
Varı çox sevənlə olmayıb aram.
Beş günlük dünyada yaşayacaqsan,
Sanma varım çoxdur mən bəxtiyaram.

* * *

Bəxtiyarlıq təkcə var ilə deyil,
Varın çox olsa da xalqına əyil.
Yekəlik eyləyib qudurma heç an,
Var gəldi-gedərdi onu yaxşı bil.

* * *

Nə qədər biliyin olsa da əgər,
Onu işlətməyə lazımdır hünər.
İşlədə bilməsən o biliyi sən,
O bilik yenidən sıfıra dönər.

* * *

Çalış sən daimi işlət biliyi,
Bir də yaddan çıxarma səmimiliyi.
Səmimi olmasan faydası yoxdur,
Sanki itirmisən əldən çəliyi.

* * *

Böyrümü kəsmisən ay bibim qızı,
Mənim ürəyimin ayı, ulduzu.
Səndən ayrı artıq dura bilmənəm,
Sənsən ürəyimin həm qanı, duzu.

* * *

Mən səni sevmişəm gənclik yaşımda,
O sevgi daimi qalıb başımda.
Başımdan heç zaman silinə bilməz,
Əbədi qalacaq o yaddaşımda.

* * *

Fəqət zəifləşib olan yaddaşım,
Qocalmışam deyə ağarıb başım.
Sevgimin ilk himi möhkəm tikilib,
Gedən günümədək sənsən yoldaşım.

* * *

Allahım yarımçıq qoymaz bu işi,
Keçirtmə qəlbindən heç vaxt təşvişi.
Nə qədər ki sağam fani dünyada,
Unutmanam səni sevən vərdişi.

* * *

Sevmişəm, sevirəm, sevəcəm yenə,
Sənə söyləmişəm mən dönə-dönə
İnan sözlərimə ay bibim qızı,
Dayın oğlu kimi güvən sən mənə.

* * *

Düzdür ilk sevdiyim qismət olmadı,
Ürəyimdə qaldı o sevgi adı.
O da yaxın idi yaxşı bilirsən,
Sonra səni sevdim, sevmədim yadı.

* * *

Yad yamaqdır deyib bizim babalar,
Qohumu yaxşı sev, deyib atalar.
Ataların sözü həqiqət olub,
Baxmayanda ona olur xətalar.

* * *

Atalar saxlayıb bu kainatı,
Minib kəhər atı, sürüb Qıratı.
Heyif o kişilər minib getdilər,
Saxladılar bizə fani həyatı.

* * *

Əgər belə qalsa dünyamız belə,
Qorxuram dünyamız daha bəd gələ.
Azad yaşayırıq, suverenik biz,
Bakıda bələndik çiçəyə gülə.

* * *

Bakıda gündəlik güllər əkilir,
Körpülər tikilir, yollar çəkilir.
Bu xoş günlərimiz daimi olsun,
Baxıb ermənin gözü tökülür.

* * *

Dünya dəyişdikcə qeylü-qal oldu,
Çoxuna sakitlik cah-cəlal oldu.
İşsizin əlinə keçmədi heç nə,
Vəzifə olana beçə bal oldu.

* * *

Yetmiş il yığılan xalqın malını,
Varlandırdı neçə gönü qalını.
Kiminki əlində qaldı vəzifə,
Yığdı dəyişdirdi tamam halını.

* * *

Zəhmətsiz sərvətə sahib olan
Qudurtdu, kasıbca qaldı qalanı.
Biznes yaratdılar soydular xalqı,
Yaydılar ekranda gündə yalanı.

* * *

Yüz yaş bəs eyləyər hər yaranana,
Yaradır yaşadır hər doğan ana.
Elə ki vaxt gəldi getdin dünyadan,
Sanki gəlməmisən fani cahana.

* * *

Torpaq çox soyuqdur, tez yaddan çıxır,
Gedənlər məzara həsrətlə baxır.
Məzarıstan yada salır hər şeyi,
İnsan gəlib gedir, su kimi axır.

* * *

İnsan müvəqqəti yaşadığın üçün,
Ömrün zəmisinə olacaq biçin.
Əzrayıl  böyrünü kəsdiyi zaman,
Onda yüklənəcək o günü köçün.

* * *

Onu yaxşı anla ay varlı olan,
Yara heç güvənmə, vicdanla dolan.
Var əlin çirkidir, gəlib gedəndi,
Yaxşılıqdır ancaq insana qalan.

* * *

Şöhrət də dövlət də saxlamaz səni,
Heç nə saxlamayıb gəlib gedəni.
Neçə milyard varın olsa da belə,
Faydası yox, eşit şair deyəni.

* * *

Şairlər Allahın doğru yazanı,
Yola gətirirlər yoldan azanı.
O azan həqiqi insansa əgər,
Baxar doğru sözə, anlar mənanı.

* * *

Çətindir öyrətmək ağıldan azı,
Ha öyrət olammaz o səndən razı.
O bədbəxti belə yaradıb Allah,
Başa düşmür səndən olur narazı

* * *

Pulu çox olanlar olurlar harın,
Tapır məşuqələr, itirir yarın.
Uşağın anası yadından çıxır,
Mənliyi itirir o yekəqarın.

* * *

Alır məşuqəyə bahalı maşın,
Unudur yaxını həyat yoldaşın.
Pul onu qudurdub vəhşiləşdikcə,
İtirir əqlini, ağılsız başın.

* * *

Nifrət eyləyirəm mən sənə ey pul,
Neçə gözəlləri eyləyirsən dul.
Dul olan gözəlin yoxdur günahı,
Varlılar öyrənib bir axmaq üsul.

* * *

İndi qul olubdur millətin çoxu,
Onları görməyir vicdansız toxu.
O toxluq öz alın təri deyildi,
Xalqın zəhmətidir, xalqın var yoxu.

* * *

Bəzi mənimsəyib bu var-dövləti,
Gözləri kasıbı görməyir qəti.
İşlətmir yığdığın xalqın xeyrinə,
Xarici banklara qoyur sərvəti.

* * *

O sərvət qalacaq yad insanlara,
Qıymır öz xalqına o yaxınlara.
Yad yamaqdır xeyiri sənə çatmaz,
Güvənmə heç zaman o çirkli vara.

* * *

Var da əl çirkidir, gəlib gedəcək,
Bir də gördün səni müflis edəcək.
Çox arxeyin olma zəhmətsiz vara,
Xalqın ah naləsi səni didəcək.

* * *

Yemək olmaz xalqın alın tərini,
Göstər zəhmətini, öz hünərini.
Öz hünərin yoxsa arxeyin olma,
Aldatma evinin hər nəfərini.

* * *

Bəsdi, kədərlənmə ay dəli könlüm,
Tanrının işinə de bəli, könlüm.
Allahım istəyib yaşadır səni,
Kədərli həmi də gülməli könlüm.

* * *

Bir dəli könlümü kədərsiz sandı,
Səhvi anlamadı, nə də utandı.
Nə deyəsən belə ağılsız kəsə?
Özünün o alçaq keçmişin dandı.

* * *

Qocalıb bədənim, yazan əllərim,
Yavaş-yavaş solur olan güllərim.
Şükür ki yazmışam neçə min əsər,
Oxuduqca yada salar ellərim.

* * *

Gedib cavanlığım mən qocalmışam,
Narazı deyiləm kamım almışam.
Yaşıdlarım artıq yoxdur dünyada,
Onları cənnətə yola salmışam.

* * *

Arzumdur cənnətə gedəydim mən də,
Yoldaşlıq edəydim ora gedəndə.
Fələyin işindən baş açmaq olmur,
Bir də gördün azdın boranda çəndə.

* * *

Yaşamaq çətindi fani dünyada,
Yaşadır, incidir fani dünya da.
Dünyanı idarə eyləyənləri,
Sanki istəmirsən salasan yada.

* * *

Təkcə özlərini düşünür onlar,
Vicdanları çürük, eyləmirlər ar.
Ömrün qısalığın başa düşmürlər,
Bir də görürlər ki sıxır dar məzar.

* * *

Yolları düşəndə məzarıstana,
Onda yada düşür həm ata, ana.
Elə ki üstündən neçə gün keçir,
Təsir də eyləmir qeyrətsiz cana.

* * *

Başlara dəyəndə o əhlət daşı,
Onda başa düşür o nadan naşı.
İnanır ki ölən o özü imiş,
Artıq keçib gedib o cavan yaşı.

* * *

Bir də pul qudurdub çox insanları,
İtirib namusu, itirib arı.
Gözləri qapanıb heç nəyi görmür,
Varhlar dəyişir gündəlik yarı.

* * *

Qonşuluqda biri gündə "alt daşı",
Əyri yollar ilə ağarıb başı.
Öz gözündə tiri görməyir əsla,
Qıl axtarır başqasında o naşı.

* * *

Yalan da danışır o olan arsız,
Ömür keçib gedib o olub barsız.
Özü səhv etdiyin başa düşməyir,
Odur ki qalıbdır dünyada yarsız.

* * *

Aydın, lotuluğu eyləmə bəsdi,
Evlənəndən sonra etmək əbəsdi.
Cavanlığın gündən günə azalır,
Bir də görəcəksən əllərin əsdi.

* * *

Elə ki çoxaldı evdə körpələr,
Onda biləcəksən nələr var nələr.
Asılacaq ətəyindən neçəsi,
Onda qubarlanıb ürəyin mələr.

* * *

Hələ eşidilmir körpənin səsi,
Nə də qucağında yoxdur nəfəsi.
Elə ki dil açıb ata söylədi,
Sevəcək babası, bir də nənəsi.

* * *

Cavanlığın uzaqlaşıb gedəcək,
Gedən zaman səni peşman edəcək.
Nə qədər cavansan qədirini bil,
Evə gecikəndə yarın güdəcək.

* * *

Mən də cavanlıqda kəhərlər çapdım,
Dostluq eyləməyə insanlar tapdım.
Sonralar his etdim dostluq yalanmış,
Dostluğu təzək tək qalağa yapdım.

* * *

Lüğətdən dost sözü silinsin dedim,
Dost üçün dediyim sözümü yedim.
Dost sənin cibindi, bir də yaxının,
İstəmirəm yenidən dostluq edim.

* * *

Cibin boş olanda övlad saymayır,
Ayıb da bilməyir aləmə yayır.
Elə ki pozuldu mizan tərəzi,
Digəl yaxşılığı yamandan ayır.

* * *

Soyuqlaşıb indi bütün insanlar,
Şəhərdə pozulub nə qədər canlar.
Avropanın adətləri yayılıb,
Adəti dəyişdik biz müsəlmanlar.

* * *

Dar şalvarı geyir, gəzir tumansız,
Vecinə də almır həmin o arsız.
Nə atası dinmir, nə də anası,
Uduzur axırda o qalır yarsız.

* * *

Zəmanəmiz indi arsıza dönüb,
Abırlı olan da tərsinə çönüb.
İndi nə at qalıb, nə də minəni,
Hamı kəhər atın belindən enib.

* * *

Çox da güvənmə ki cavansan, Cavid,
Mən də cavan vaxtı gəzirdim sakit.
İndi qocalmışam, gəzə bilmirəm,
Hürüyür üstümə yoldan keçən "it".

* * *

Dizlərim saxlamır mən yeriyəndə,
Ona görə gedə bilmirəm kəndə.
Vaxt gələcək bu günümə düşərsən,
Dolana bilməzsən mənim tək sən də.

* * *

Çalış sən qurşanma nalayıq işə,
Qoçaqlığı eylə özünə peşə.
Günlər gəlib keçir, ömür azalır,
Beş günlük deyilib, inan o beşə.

* * *

Sanırdım heç zaman qocalmanam mən,
Yetmişi keçəndə his etdim birdən.
Bircə təsəllim var, köç edib getsəm,
Unudan deyildi sevdiyim Vətən.

* * *

Sənsən mənim üçün sevimli nəvəm,
Sən idin bir zaman körpəcə "dəvəm".
Şükür indi xeyli böyümüsən sən,
Elə işlər gör ki sağ ikən sevəm.

* * *

Təsəllim odur ki içki içmirsən,
Nə də ki zəhərli siqar çəkmirsən.
Əsil insanlığa onlar nümunə,
Nə də sel axıdan çaydan keçmirsən.
* * *
Tək bircə səhvini bağışlamadım,
Mən şair babayam, şairdir adım.
Şairin nəvəsi qoçaq olmalı,
Nümünə olmalı o istedadın.
* * *
Tənbəllik eylədin ali məktəbdə,
Güzəşt eyləmədi həmin məktəb də.
O mənim qəlbimə yaman toxundu
İncidi şairdə olan o təb də.
* * *
Tənbəllik eyləmə, canın ki sağdı,
Tənbəl olmayanın üzü də ağdı.
Yaşamaq şərəfli olduğu üçün,
Şərəflə yaşayan san uca dağdı.
* * *
Belə yaşamağı sən vərdiş eylə,
Yaxşı yaşamağı əqlinlə əylə.
Hörmətli ol xalq içində daimi,
Belə olmağı da övlada söylə.

* * *

Səhv eyləsən əgər tənqiddən əl çək,
Tənqid eyləyənlər sonra qalır tək.
Elə işlər gör ki hamı bəyənsin,
İnsanı ucaldar tək halal əmək.

* * *

Zəhmətsiz qazansan ha özünü öy,
Nə də havalanıb başqasını söy.
Söyməyin özü də nalayıq işdir,
Sonra peşman olub ha özünü döy.

* * *

Peşmançılığın da faydası yoxdu,
Ancaq zəhmət çəkən daimi toxdu.
Tənbəllik eyləyib işləmədinsə,
Bir də gördün qəmin hamıdan çoxdu.

* * *

Xoşa gəlməz sözü danışma, saxla,
O sözü süzgəcdən keçirib yoxla.
Gördün yaxşı deyil, bük bir əskiyə,
Heç kim oxumasın divara mıxla.

* * *

Çalış ki danışma heç zaman yalan,
Yalan danışdıqca olacaq bəlan.
Hörmətdən düşərsən yalançı kimi,
Səni sayan olmaz doğmaca balan.

* * *

Hər sözü səbirlə söylə, tələsmə,
Nə də danışanda titrəmə, əsmə.
Gördün səndən əvvəl danışanlar var,
Onların sözünü ağzında kəsmə.

* * *

Kəsərsənsə sayılarsan ədəbsiz,
Ədəbsizlik səndə daim qoyar iz.
Hörmətli olmaqçün ədəbsiz olma,
Əqilin, şüurun olsun tər-təmiz.

* * *

Səbirli olmağın böyük sərvətdi,
Səbiri itirsən sənə töhmətdi.
Çalış ki daimi ol sən səbirli,
Ağayanalığın bir əmanətdi.

* * *

Bu əmanət olub ata, babadan,
Çalış ki sən onu çıxartma yaddan.
Unutsan atalar dediyi sözü,
Daimi zərərlər görərsən hər an.

* * *

"Yaşamaq yanmaqdı", yan xalqın üçün,
Bəxtiyar söylədi, yüklədi köçün.
Dünya belə gəlib, belə gedəcək,
Ömrün zəmisində olacaq biçin.

* * *

Yaman azalıbdır ana laylası,
Gündəlik görürük nə qədər yası.
O gözəl zəmanə dağılıb getdi
Quruldu yenidən qullar dünyası.

* * *

Bəzən qul da qulluq tapmır işləsin,
Işsizlər küçədə çıxartmır səsin,
Nə etsin səsini çıxara bilməz,
Səsi çıxsa kəsəcəklər nəfəsin.

* * *

Çıxartmasın səsin, yedirt doyunca,
İş ver qoy işləsin ucadan uca.
Nə qədər küçədə işsiz dayansa,
Heç nə demək olmaz qarını aca.

* * *

Yaşayanlar hamı olmaz alverçi,
Bacarmayanın dərd çəkir içi.
Yoxdur nə bir zavod, fabrik işləsin,
Bacarmır otara həm qoyun, keçi.

* * *

Dolubdur Bakıya min faiz insan,
Gündə də neçə min olur anadan.
Əllicə il gəlib keçərsə əgər,
Məhv olar Bakımız, ha alış, ha yan.

* * *

Dal-dala düzülür hündür saraylar,
Milyonu boş qalır həmin o aylar.
Görən nəyə lazım tikib boş qoymaq
Çoxu çıxıb gedir xaricə yaylar.

* * *

Paytaxt dəyişməsə, iş dayanmasa,
Düşəcək insanlar Bakıda yasa.
Milyard maşınları yığırlar bura,
Yaxşı ola bilməz, deyirəm qısa.

* * *

Qarşısı alınmır bu axan selin,
Zibillənir gündə Xəzər tək gölün.
Yığılıb kənara çirk qalaq-qalaq,
Yadların yanında gödəlir dilin..

* * *

Düzdür gözəlləşir gündəlik hələ,
Gözəllik salmasa bizi əngələ.
Yollar kənarında güllər əkilir,
Əkdirir o gülü başbilən lələ..

* * *

Qoy olsun, bir az da çoxalt təqaüt,
Təqaüd çox azdır, xalqım qalır lüt.
Aldığı təqaüd kommunal xərci,
Təndir də yoxdur ki bişirsin o küt.

* * *

Səngərdən boylanır gündə erməni,
Xörək bişirirəm o görür məni.
Baxdıqca ekrana, ləziz xörəyə,
Nifrətlərlə dolu olur bədəni.

* * *

Qalıb erməniyə gözəl Qarabağ,
Kəsilib daşmır gündə bağça-bağ.
Bilir ki axırı onun ki, deyil,
Başına min oyun açır o alçaq.

* * *

Mən də qurşanmışam şou-mouya,
Gedirəm gündəlik çalınan toya.
Kefimdən qalmıram hər saat, hər an,
"Heyranam" məndəki qeyrətsiz boya

* * *

Çılpaq oxuyurlar ekranlarımda,
Xəcalətdə qalır ekranlarım da.
Nə qədər abırsız olanlarım var,
Gündəlik çoxalır onlar çox sanda

* * *

Sonu gözlənilir biabırçılıq,
Heç vaxt keçə bilməz yalançı qılıq.
Hərdən oynayırlar yadın toyunda,
O da bizim üçün ağır alçaqlıq.

* * *

Torpaqlar qalıbdır yad əllərində,
Fikirləşirik biz hələ dərində..
Bir əlac görmürük, gündə gəzirik,
Yadların yaramaz ölkələrində.

* * *

Göbələyə dönüb şadlıq sarayı,
Başqa ölkələrdə yox onun tayı.
Elə bil ki Vətən yad əldə deyil,
Oynayırlar qışı, həm yazı, yayı.

* * *

Hansı günümüzə oynayırıq biz?
Oynadıqca alçalır o səviyyəmiz.
Qarabağda erməni atım çapır,
Vecimizə almayırıq tərtəmiz.

* * *

Kim çəkəcək Vətənin qeyrətini?
Kim qurtarar əsir o millətini?
Erməni əlində qalıb neçəsi,
Götürürük qeyrətsiz töhmətini.

* * *

Heç olmasa kişilənmə heç zaman,
Hələlik başında dolanır duman.
Qeyrətini topla, yaxşı fikirləş,
Sənə həqiqəti söyləyir Nəriman.

* * *

Fikir eyləməyin yoxdur mənası,
Fikirli olanlar tez tutur yası.
Bu dünya fanidir, belə olubdur,
Yadından çıxmasın ana laylası.

* * *

Sən körpə olanda layla çalıbdı,
Gecə gündüz qeydinə qalıbdı.
Ömürümüz boyu borcluyuq ona,
Bizə baxa-baxa o qocalıbdı.

* * *

Fəqət unudurlar bəzi biqeyrət,
Bəzinin gözünü tez tutur sərvət.
Zəhmətsiz sərvətə sahib olanlar,
Gözləri tutulur, yox olur qeyrət.

* * *

Başları qarışır qeyrətsizliyə,
Bəzən də aldanır hər olan çiyə.
Unudur özünü, övladlarını,
Məşuqəyə verir maşın hədiyə.

* * *

Götürür maşını həmin zənənə,
Dönür simasından tamam dönənə.
Zənənlik simanı tamam itirir,
Əskikliklər qalır onda ənənə.

* * *

Belə qalsa pis olacaq axırı,
Yığmaq olmaz perik düşən "naxırı",
Buraxılıb millət başlı başına,
Getdikcə çoxalır olan "paxırı".

* * *

"Paslanır dəmiri" düzəlməyəndə,
İnsanlıqdan çıxır hər olan bəndə.
İndi işsiz qalıb bütün cavanlar,
Heç biri də getmir doğulan kəndə.

* * *

Kəndlər də qalıbdır başlı-başına,
Korroziya yayılıb torpaq daşına.
Öz başına qalıb çeşmə bulaqlar,
Qızlar da getməyir çeşmə başına.

* * *

Kəndimə gedəndə boğur vahimə,
Heç rast gəlməyirəm gördüklərimə.
Elə bil burada kimsə olmayıb,
Bir möhtac qalıram təkcə səsimə.

* * *

"Tək əldən səs çıxmaz", deyib babalar,
Təkin təklikdəki çox əzabı var
Nə edək zəmanə tərsinə döndü,
Yığan qudurğanlar eyləməyir ar.

* * *

Əgər sevirsənsə sən bir gözəli,
Ona yaxşı sözlə daim de bəli.
Şirinlik olmasa aranızdakı,
Sonralar çıxacaq onun əngəli.

* * *

Mehriban olmalı daim zənənə,
Olsun sizdə daim belə ənənə.
Mehribançılığın vardır faydası,
Lənətlər söylənir daim dönənə.

* * *

Həqiqi sevilən unudulmayır,
Özünü ən xoşbəxt bir insan sayır.
Bu sevgi onunla gedir qəbrədək,
Gözəl məhəbbəti ellərə yayır.

* * *

İnsan sevmək üçün gəlib dünyaya,
Yolunu kəsə bilməz sıldırım-qaya.
Doğruca sevənlər unudulmayır,
İstər düşsün qışa, istərsə yaya.

* * *

Mən də sevdim ilk sevdiyim gözəli,
Heyif ki dəymədi əlimə əli.
Qismətim deyilmiş mənim üçün o,
Ona görə sonra çıxdı əngəli.

* * *

Sevəndə də kaş ağıllı sevəsən,
Ağıllı sevməsən onda gədəsən.
Sevəndə özünə laiqlini sev,
Yaxşı olmaz sevgisini tez kəsən.

* * *

Bir də sevdicəyin sənə tay olsun,
Elə etmə axır dönüb zay olsun.
Atalar sözüdür son peşmançılıq,
Faydası yox istər qışı yay olsun.

* * *

Daldan atılan daş topuğa dəyir,
Atalar sözüdür insanı əyir.
Nə daş atma, nə daşa tuş gəlmə sən,
Daş dəysə topuğa onda göynəyir.

* * *

Göynəmək özü də yaxşı hal deyil,
Eylədiyin səhvi yaxşı düşün bil.
Çalış ki səhv etmə fani dünyada,
Səhvi eyləyənlər olurlar səfil.

* * *

Səfillik insana yaraşmayır heç,
Səhvə yaxınlaşma, yanından tez keç.
Davran insan kimi fani dünyada,
Bir də gördün yaxınlaşıb gedir köç.

* * *

Allahım mən sənə yalvarıram ki,
Dərdimi bir eylə, olmasın iki.
Yaşım keçib gedib, mən qocalmışam,
Götürə bilmənəm hər ağır yükü.

* * *

Bilməmişəm cavanlığım keçəndə,
Allahı sevənəm mən yazıq bəndə.
Hövsələm azalıb, dözə bilmirəm,
Ona görə gedə bilmirəm kəndə.

* * *

Təsadüf gedəndə dözmür ürəyim,
Artıq orda yoxdur mənim gərəyim.
Kənddə qalmayıbdır  tanıdıqlarım,
Baxanda zəhərə dönür çörəyim.

* * *

Orada qalmayıb artıq iş yeri,
Gündəlik geridir geridən geri.
Kəndlinin qüvvəsi yox ki yer əksin,
Tək yaxşı dolanır rayonun Meri.

* * *

Yığıbdır yanına yaxınlarını,
Neçə cib kəsəni, neçə harını.
Nə qanuna baxır, nə qaydalara,
Dəyişir gündəlik olan yarını.

* * *

Yara maşın alır, ev də tikdirir,
Xoşa gəlməyəni dərhal sökdürür.
Öz halal zənəni qalıb kənarda,
Yarın baxçasında ağac əkdirir.

* * *

Kənardan baxırsan belə harına,
Mənliyi itirən yekə qarına.
İnsanlıq sifətin tamam itirib,
Güvənir zəhmətsiz olan varına.

* * *

Oğurladığı var ilan zəhəri,
Yığdığı xalq mah illərdən bəri.
O çirkli pulları işlətdikcə o,
Nə qeyrəti yoxdur, nə də təpəri.

* * *

Allahım da bezib, heç nəyə baxmır,
Allahsız olanı yandırıb-yaxmır.
O qədər qudurub bu varlananlar,
Görməyən gözünə eynəyi taxmır..

* * *

Gözlərini tutub olan var-dövlət,
Bir də ki, havayı yığılan sərvət.
Vaxt gələr Allahım nəzər yetirər,
Belə gedə bilməz, bilirəm əlbət.

* * *

Qələtlər edirsən ay Zamin Hacı,
Qudurğanın olmayıbdır əlacı.
Sataşma atanız yaşda kişiyə,
Kişi sizə baxar çox acı-acı.

* * *

Ağsaqqal nifrəti çox yaman olur,
Nifrətə rast gələn saralır-solur.
Sən də rast gələrsən belə nifrətə,
Nifrətə layıqlar əbədi qalır..

* * *

Demişdim deyirəm, yenə deyəcəm,
Mən atan yerində, sənsə bir cücəm.
Sataşma ay cocuq bir daha mənə,
Sataşana mən də daimi öcəm.

* * *

Mən gür axan çayam, sən sısqa bulaq,
Mən palıd parçası, sən isə alaq.
Bir də qulağında saxla ay Hacı,
Elə et getməyə qoy olsun yolaq.

* * *

Üzümü görməyən ay cocuq bəndə,
Utanarsan nə vaxt məni görəndə.
Nə bilirsən kiməm, nəçiyəm axı,
Atanıza hörmət olmayıb səndə.

* * *

Olsa sataşmazdın atan kiminə,
Toxunmaya hər çalınam siminə.
Hörmət eylə yaşı keçmiş kişiyə,
Bir də onun ağsaqqallıq sininə.

* * *

Heç vaxt qürrələnmə, ayzamin Hacı,
Göz üstə yandırma hər olan sacı.
Sac səni yandırar, kömür olarsan,
Kömək edə bilməz nə qardaş-bacı.

* * *

Sıldırım qayaya sən sapand atma,
Atdınsa arxeyin yıxılıb yatma.
Qaya parçalanar altda qalarsan,
Üzmək bilmirsənsə dənizə batma.

* * *

Sataşmış olanda sataş harına,
O müftə yığdığı dövlət varına.
Təqaüdü ilə yaşayana yox,
Zəhmətsiz yığdığı yekəqarına.

* * *

Onda bilərəm ki həqiqət səndə,
Qoşulmuş olaram o zaman mən də.
Kişi kimi yaşa, kişi kimi ol,
Onda sayılarsan Ana Vətəndə.

* * *

Duran öküz yatan öküz başına,
Zibil tökür, zəhər qatır aşına.
İnsan da elədir, yatağan olsa,
Ac qalar aclıqlar çökər yaşına.

* * *

Gecdən durub səhər yelin udmasan,
Onda yaşamağın olammaz asan.
İnsan yaranıbdır yaşatmaq üçün,
Yaşatmaq üçün də işləmək hər an.

* * *

Tənbəlin heç vaxt varı olammaz,
İşləməyən insan çox olar nasaz.
Nasazlıq tənbəlin xüsusiyyətidir,
İşlədikcə insan olur sağlam, saz.

* * *

Kasıb da olanda azca fikir çək,
Fikir xeyir verməz bil onu gerçək
İşsiz gəzmək özü daha çətindi,
İnsanı yüksəldər tək olan əmək.

* * *

Düzdür zəhmətsiz də var yığanlar var,
Onlar utanmırlar, eyləmirlər ar.
Xəlvət çırpışdırıb xalqın malını,
O fikri çürüklər, ürəkləri dar.

* * *

Qismətdən də asılıdır hər şey,
Ha bifayda danış, ha eylə giley.
Gileyin də heç olmayır mənası,
İstər kamança çal, istərsə də ney.

* * *

Sazı da çalmağa lazım qismətin,
Qismətin olmasa çalarsan çətin.
Mən çalmaq istədim, çala bilmədim,
Tənbəl hərlənəndə olmur sərvətin..

* * *

Gileyli olmanam heç vaxt Xudadan,
Allahdan gileyli olanlar nadan.
Tanrımı sevirəm, yaşadır məni,
Gündə duaçıdır bu Milli Nəriman.

* * *

Artıq keçib gedir yetmiş beş yaşım,
Əlli beş yaşında getdi qardaşım.
Baxıram kəndimiz tamam seyrəlib,
Gözümə dəyməyir işçi yoldaşım.

* * *

Görmürəm onları qəlbim pərişan,
İş yoldaşlarımdan yoxdur bir nişan.
Şükürlər yaşayır Şirzad Rzasoy,
Sevinirəm onu görəndə hər an.

* * *

Ceyran da ovladım, cüyür də atdım,
Ovçularla gündə çöllərdə yatdım.
Ömür gəlib keçdi hiss eyləmədim,
Axırı qocalıq yaşına çatdım.

* * *

Nə edim, əzəldən belədir dünya,
Kimə xoş, kimsəyə tələdir dünya.
Nanəcib kimsəyə xoş günlər verir,
Əzəldən belədir, belədir dünya.

* * *

İnsan var insantək yaşayır hər an,
İnsan tək doğulub ilk gün anadan.
Əgər nanəciblə yoldaşlıq etsə,
O da dəyişərək olar bevicdan.

* * *

Vicdansızlıq bürüyübdür dünyanı,
Elə vicdansızı yaxşıca tanı.
Qohum da qohuma yaxınlaşmayır,
Varlanıbdır deyə bulanıb qanı.

* * *

Səbəblər səbəbi varlanan gəda,
Sanır ki tək odur fani dünyada.
Gözləri ayağın altını görmür,
Bilmir ömür axır gedəcək bada.

* * *

Bizim qonşuluqda vardır bir çoban,
Gündəlik çörəyi tapmırdı heç an.
Birinin səbəbinə varlandı birdən,
Tez çıxdı yadından yoxsullu zaman.

* * *

Azca insanların vardır qeyrəti,
Özündən çıxmayır tapsa sərvəti.
Belə insanlar da azalıb, azdır,
Qeyrətli olanlar dəyişmir qəti.

* * *

Çox  da kədərlənmə ay dəli könlüm,
Varı toplamağa olmayıb meylim.
Mən də başqalar tək yığsaydım əgər,
İstəməzdim vicdansıza, əyilim.

* * *

Varım olsa, tutsam mən də cangüdən,
Niyə arxeyin gəzməsin bədən?
Nəyə lazım belə qorxulu gəzmək,
Niyə də qorxulu gəzısın nədən?

* * *

Zəhmətsiz dövləti istəməmişəm,
Gənclikdən olubdur bu halal peşəm.
Alnımın təriylə çörək qazandım,
Odur ki arxeyin olubdur nəşəm.

* * *

Neçə dəfə dedim, yenə deyirəm,
Şərab içənləri gündə söyürəm.
Şərabla insanlar daim məst olur,
Nəsihət eylədikcə elə yayıram.

* * *

Şərab içənlərdən olmayıb kişi,
Bəlkə də vərdişli olub keçmişi.
Özünün qədrini bilməyən insan,
Tərgidə biləmməz olan vərdişi.

* * *

İşdikcə özünü bilməyir nadan,
İçir xəstələnir əldən gedir can.
Daxili orqanlar sıradan çıxır,
Ağırlaşır bədən çıxır aradan.

* * *

Anlamaz anlamır, nəsihət də versən,
Çünki spirtləşib olan saf bədən.
Verilən nəsihəti bayağı sanır,
Qayıtmır yolundan əyri yol gedən.

* * *

O yolu gedənlər xeyir görməyib,
Bağça becərməyib, barın dərməyib.
Kasıblaşıb daim pis günə düşüb,
Uçub dağıldıqca evin hörməyib.

* * *

Şərab içənlərin olmaz hörməti,
Onları hörmətli görmədim qəti.
Dilənçi halına düşür axırı,
Onun ola bilməz heç vaxt sərvəti.

* * *

Sələmlə borc alan məhv olur inan,
Söyləyirəm sənə yaxşı düşün qan.
Haramdır sələmlə alınan gəlir,
Xeyir görə bilməz sələmli heç an.

* * *

Sələmsiz borc vermək ayıb deyildi,
Mən də borc vermişəm neçə on ildi.
Artıq borc saymıram yadımdan çıxıb,
Kişiyana qəlbim o borcu sildi.

* * *

Verdiyim o nadan dedi vermişəm,
Nadanın sözündən pozuldu nəşəm.
Allahı çıxarıb nadan yadından,
Güzəştə getməkdir daimi peşəm.

* * *

Böhtançını tapşırıram Allaha,
Yalançı çıxmasın gələn sabaha.
Allahsızlıq edib yalan danışma,
Yalan danışanlar düşür günaha.

## BAŞ KOMANDANIM

Qeyrətinə qurban olsun Balayan,
Zori kimi Serj kimi bevicdan.
Ramili buraxdın, yandı Sarkisyan,
İki yüz il yaşa, Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Ramil ki gələndə Azərbaycana,
Sənə heyran oldu nə qədər ana.
Zorilər qaldılar çox yana-yana,
İki yüz il yaşa, Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Uç rəngli bayrağı qaldırdın göyə,
Erməni məhv olsun! Sən deyə-deyə.
İgidliyin xalqa oldu hədiyə,
İki yüz il yaşa, Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Çox şükür qürbətdə yaxşı qalıbdır,
Xalqının qəlbində O ucalıbdır.
Doğma xalqı üçün zəfər çalıbdır,
Sən də zəfər çaldın, Baş Komandanım,

Səninlə fəxr etsin Azərbaycanım.
İradən, İlhamın gətirdi Onu,
Sevindirdin Vətənimdə milyonu.
Prezidentimiz ol ta ömrün sonu,
İki yüz il yaşa, Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Bu igidlik qalıb Heydər atadan,
O da xalqı üçün bağışladı can.
Baxdı O Dahiyə, yandı Sarkisyan,
İki yaz il yaşa, Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

Gözün aydın olsun, Azərbaycanım,
Ay mənim şöhrətin, ay mənim şanım,
Səninlə fəxr edir Milli Nərimanım,
İki yüz il yaşa Baş Komandanım,
Səninlə fəxr etsin Azərbaycanım.

# GÖRMƏYƏYDİM KAŞ

***Bu gün "Ozan" məclisində gözəl şairimiz Zəlimxan Yaqubu çox qəmgin və pərişan gördüm. Ürəyim Alışıb yandı. Bu şer yarandı.***

Səni bu ovqatda görməyəydim kaş,
Baxdım qəlbim döndü qana, Zəlimxan
Ürəyimdən asıldı yekə bir daş,
Necə dözə bilir ana, Zəlimxan?

"Ozan" məclisinin qəlbi qan oldu,
Səni belə gördü bir tufan oldu.
Başa düşənlərim yarımcan oldu,
Dərd haradan gəldi cana, Zəlimxan?

Hər olan məclisdə aşıb-daşırdın,
Nə bir büdrəyirdin, nə də çaşırdın.
Sanki at çapırdın, dağlar aşırdın,
Gah gedirdin Türküstana, Zəlimxan.

Mən sənə söylədim göz dəyər sənə,
Zarafata saldın, baxmadın mənə.
İnanmadın şairə, söz deyənə,
Qaldım onda yana-yana, Zəlimxan.

Dəyən göz tökülsün, o yaman olur,
Dəydisə çətindir o güman olur.
Göz var ki dəyəndi o hər an olur,
Olmayıbdır heç utana, Zəlimxan.

Şerləri yazdım cavabları yox,
Mən səni sevirəm canımdan da çox.
Bu gün ürəyimə sancdın iti ox.
Yara vurdun Nərimana, Zəlimxan.

15.12.2012.

# GƏLƏM DÜNYAYA

Nə olar yenidən gələm dünyaya,
Anam qucağında böyüdə məni.
Qoymaya tullanan gur axan çaya,
Eşidirdim hər vaxt ana deyəni.

Bu arzular kaş ki çin olaydı çin,
Anam yenə mənə layla deyəydi.
Qayıdaydı yeni körpəlik həmin,
Anam başım üstə başın əyəydi.

Ürəyimdən gəlib keçir arzular,
Anam gəlir gözlərimin önünə.
Görməyəndə başa yağır soyuq qar,
Mən düşürəm qəmginliyin gününə.

Nə eyləyim arzularım böyükdü,
Arzuları olur hər bir insanın.
Ananı görmürəm qəlbimə yükdü,
Ana arzusudur hər bir qananın.

30.04.2013.

# ALLAHA KƏRİM

Bu gün teatrdan çıxdığım zaman,
Qarşıladı məni yaşlı bir insan.
Deyəsən futboldan gəlirdi "qardaş",
Qarpız tək görünür çiynində bir baş.
Futboldan danışdı o gülə-gülə,
Soruşmadı məndən sən hardan belə.
İki kolu vuran bir futbolçunu,
İnan İlyas ilə dəyişməzdi o
İstəmirdim eşidəm bu kopçunu,
Əymək istəsəm də əyişməzdi o.
Futboldan danışdı yüz cürə nağıl,
Başında tükü yox, içində ağıl.
Xahiş eylədi ki gedək çayçıya,
Orada istirahət eyləyək güya.
Dəniz kənarında çayçıya getdik,
Guya ki, xeylicə istirahət etdik.
Bütün söhbətləri oldu futboldan,
Başqa bir söhbəti olmadı inan.
Bir çaynik çay içdik, bilin qiyməti,
Demək istəmirəm o sözü qəti.
İki nəfərlik çay iyirmi manata,
Mən nifrət eylədim belə həyata.
Beləliklə burda dərəbəylik,

Danışanlar təhqir olur üstəlik.
Xalqım səbirlidir deyib Öndərim.
Yenə səbir edək Allaha Kərim.

*15.05.2013.*

## İSMAYIL

*İsmayıl Fərəcovun xatirəsinə.*

Gəldim evinizə, görmədim sizi,
Fikir qəlbdə oldu gilə, İsmayıl.
Elə də görmədim o Firəngizi,
Kaş o keçən günlər gələ, İsmayıl.

Səninlə neçə yol getdik Göygölə,
Həmin gözəl günlər yenidən gələ.
Sən mənə dost idin, mən sənə Lələ,
Günlər yaddan çıxmır hələ, İsmayıl.

Şuşaya gedərdik hər gələndə yaz,
İsa bulağında çalınardı saz.
Şuşada olmazdı bir nəfər nasaz,
Cıdırda rast gəldik gülə, İsmayıl.

Bu gün ad günümdü, sən harda qaldın?
Sən vaxtsız büdrədin, vaxtsız qocaldın.
Axırda sağalmaz bir yara aldın,
Bildirmədin onu elə, İsmayıl.

Unutmanam sizlə gəzdiyim günü,
Qaytara bilmənəm o namümkünü.
Nəriman Əyyub qardaş bilirdi səni,
Niyə birdən düşdün selə, İsmayıl?

20.05.2013.

# ŞÜKÜR EDƏK YENİDƏN

"Tapanlanmış yerdə gəzə bilmirəm,
Şumda necə şıllaq ata bilərəm?
Arsızlarla arsız-arsız gülmürəm,
Mənalı gülənlə mən də gülərəm.

Bu sözləri söyləyəndə Gülsəba,
Fikirləşdim xeyli xəyala daldım.
Bu əqlinlə arvad sənə mərhəba,
Şükür sənin ilə birgə qocaldım.

Həyat mürəkkəbdir, ömür dolaşıq,
İllər gəlib keçir bilə bilmirsən.
Dünya dəyişdikcə hər şey qarışıq,
Dərd qəm çoxaldıqca gülə bilmirsən.

Yetmiş beş ilimi bayram edirəm,
Elə bilirəm ki cavanam hələ.
Yolda büdrəmirəm, yaxşı gedirəm,
İnanmıram bir də cavanlıq gələ.

Bibim qızı göynətdin ürəyimi,
Şıllaq ata bilməməyi söylədin.
Baxırsan mənim də qalıbdır nəyim?
Məni indi çox pərişan eylədin.

Yenə şükür eyləyirəm Allaha,
Hələ ki, yaşadır, yaşayıram mən.
Ömürüm düşməyir amana-aha,
Gün keçdikcə şükür edək yenidən.

***19.05.2013.***

# QALDI

Gəncliyimdə mən də bir gözəl sevdim,
O ala gözləri gözümdə qaldı.
Hələ yetişməmiş çox əzəl sevdim,
O sevgi ürəkdə özümdə qaldı.

Unuda bilmədim illər uzunu,
Əridə bilmədim qəlbin buzunu.
İtirdim göydəki o ulduzunu,
Sevirəm sözləri sözümdə qaldı.

Özüm günahkaram, demədim ona,
Dediyim üçün o çatdı sona.
Onu sevdiyimi tək bildi ana,
Sevdiyim gəzdiyim izimdə qaldı.

Nə edim Tanrıdan qismətdir belə,
Sevgimi heç zaman demədim elə.
Uduzmuş olduğum mən bilə-bilə,
Özümə rəva bilən nazımda qaldı.

Nə edim fələyin budur vərdişi,
Başıma gətirdi belə bir işi.
Nəriman Əyyub unut sən o keçmişi,
O yanıqlı nalə sazımda qaldı.

***16.12.2012***

# KÜSƏN DEYİLƏM

Nə yaltaq deyiləm, nə də yalançı,
Pislikləri kəsən iti bir qayçı.
Qapıma gələrsə əgər bir payçı,
Payını verərəm, kəsən deyiləm.

Qaya parçasıyam, bərkdir qayalar,
İslanan deyiləm qışda yağsa qar.
Palıdın bərkliyi ürəyimdə var,
Güclü külək əssə, əsən deyiləm.

Həqiqət dilimdən düşməyir heç an,
Məni belə yaradıbdır Yaradan.
Doğrunu deyirəm, eşit yaxşı qan,
Arxadan danışan Həsən deyiləm.

Gözümdən yaş gəlir, böhtan görəndə,
Mən də yaranmışam belə bir bəndə.
Həqiqəti söylə, ay nadan sən də,
Yaxşı başa düş ki mən sən deyiləm.

Dilimə gəlməyir nalayıq bir söz,
Gəlsə ürəyimi yandıracaq köz.
Daimi demişəm Milli Nəriman döz,
Hər mənasız sözdən küsən deyiləm.

*24.11.2012*

# ANAMIZ GEDƏNDƏ YETİM OLURUQ

Hələ də səslənir ana laylası,
Böyümüş olsam da qulaqlarımda.
Əgər xəstələnsəm, yoxdur faydası,
Bir də ola bilməz ana yanımda.

Görsəydi kefim yox, kədərlənmişəm,
Qaça-qaça tez kəsərdi yanımı,
Elə ki, pozulub bir azca nəşəm,
Güldürüb açardı qara qanımı.

Deyərdi ki oğlum kədərli olma,
Kədər insanları tez məhv eyləyir.
Heç zaman kefindən kənarda qalma,
Gülüb şadlananda o nəf eyləyir.

Canın sağlam olsun, var da az olsa,
Eybi yox bir təhər dolanacaqsan.
Bağının meyvəsi barı az olsa,
Sağlam canın olsa dolanmaq asan.

Rəhmətlik anamın dediyi sözlər,
Sırğa tək asılıb qulaqlarımda.
Gözümün önündə o ala gözlər,
Ondan söhbət edit Etibarım da.

Yatdığın çarpayı gözə dəyəndə,
Sanıram ki orda hələ yatırsan.
Baxanda diqqətlə ordan ötəndə,
Yoxsan deyə əhvalımı qatırsan.

Anamız  gedəndə yetim oluruq,
Mən də yetim oldum altmış yaşında.
Yetimləşən zaman dərhal soluruq,
Bir daha yetimlik qalır başında.

***20.12.2012***

## SAĞALTDI MƏNİ

Aynur, əziz nəvəm, gözümün nuru,
Sənsən ürəyimdə şəffaf, dup duru.
Sevindirdin bu gün baban məğruru,
Yazdığın iynələr sağaltdı məni.

Yata bilməyirdi nənən səsimdən,
O səsi etmirdim mən həvəsimdəm.
Qurtara bilmirdim olan "tilsimdən"
Yazdığın iynələr sağaltdı məni.

Sənin ağılına heyranam düzü,
Yazmaq istəyirəm ən yaxşı sözü.
Balamın balası, nəvəmin gözü,
Yazdığın iynələr sağaltdı məni.

Oxuyanda bildim qeyrətin vardı,
Biliyin çoxaldı, uzandı ardı.
Baban gecələrdə çətin yatardı,
Yazdığın iynələr sağaltdı məni.

Son həftələr yaman göynədi dizim,
Ağradıqca saralırdı bənizim.
Qurtardın ağrıdan məni əzizim,
Yazdığın iynələr sağaltdı məni.

Uzaqdan öpürəm, ay gözəl quzum,
Kəndimizə işıq verən ulduzum.
Müalicənlə əridi dizdə buzum,
Yazdığın iynələr sağaltdı məni.

Həm də Ayişənin bu gün ad günü,
Şənliklə keçirsin olan ömrünü.
Görürəm ki sevir o da çox səni,
Yazdığın iynələr sağaltdı məni.

Baxıb sevindikcə Etibar atan,
Paxıllıq çəksə də bir neçə nadan.
Sevinir babanız Milli Nəriman,
Yazdığın iynələr sağaltdı məni.

***21.06.2012***

## AYNURUM

Bəyənməyən bəyənməsin balamı,
Gözümün önündə nurdu, Aynurum.
Allahım saxlasın qönçə lalamı,
Başını biliklə yordu, Aynurum.

Müalicələri sağaldır məni,
Ağrıdan qurtarıb şikəst bədəni.
Qəbul eyləmirəm kimsə deyəni,
Gündəlik halımı sordu, Aynurum.

Taleyi bəd gəldi, bulandı Vətən,
Döyüşdü nə qədər "ilan" bərk gedən.
Qanunsuz bağlandı məktəbi nədən?
Gözləyib həlalik durdu, Aynurum.

Gözləyir sonunu sakitcə hələ,
Ümidi var bəlkə ədalət gələ,
ABU-ya qurdular ən alçaq tələ,
Lənətlədi neçə qurdu, Aynurum.

Nədən bəzilərin götürmür gözü?
Söyləyirlər başa düşülməz sözü.
Gözü götürməyən savadsız özü,
Nadanlar gözünə qordu, Aynurum.

Nəriman Əyyubam, gözəl nəvəm var,
Təriflәsəm onu, eyləmirəm ar.
Dediyim sözlərim qalsın yadigar,
Sanmayın ki məni yordu, Aynurum.

***22.11.2012.***

## NECƏ OLMALI

Soruçdun necəsən? Eşit əzizim,
Tək qardaşsız qalan, necə olmalı?
Yaşım keçib gedib, işləmir dizim,
Qəlbi olan talan, necə olmalı?

Rəbbim də baxmayır indi işlərə,
İnsanlar uyuyub pis vərdişlərə.
Dünya çalxalanır gündə min kərə,
Eşitdikcə yalan, necə olmalı?

Dünyanın axırı yaxınlaşıbdır,
Dəryalar kükrəyib, aşıb daşıbdır.
Varlanan insanlar artıq çaşıbdır,
Vəhşiləşsə balan, necə olmalı?

Getdikcə azalır gündə iş yeri,
Yalanlar söyləyir şəhərin meri.
İnsanlıqdan bəzi qalıbdır geri,
Baxıb fikrə dalan, necə olmalı?

Çox da kədərlənmə Milli Nəriman,
Allahın saxlayıb, sağlam qalıb can.
Şükürlər, yaşadır hələ Yaradan,
Qalxmayanda nalən, necə olmalı?

***10.11.2012.***

## BAXÇADA

Bu gün oturmuşam sərin bir yerdə,
Evimin qabağı olan bağçada.
Gözümün önündə bağ pərdə-pərdə,
Sanki mənə baxıb gülür bağça da

Ətrafımda xoruz, toyuq, fərələr,
Bir-birinə cumub edirlər qa-qa.
Məni heyran edir bu mənzərələr,
Xoruzlar banlayır birdən qaqla-qa.

Yaman "kişiləşib" olan çil xoruz,
Atılır firənin üstünə hərdən.
Baxıb həvəslənir boynu çil xoruz,
Qoymur ki fərələr sakit yesin dən.

Xatirə onlara dən tökən zaman,
Yığılıb bir yerə boğuşur çoxu.
Haray-həşir qoparırlar həmin,
Dayanıb kənardan boylanır toxu.

Məni valeh edir bu xoş mənzərə,
Baxdıqca doymuram xoş mənzərədən.
Zarafatlar edir xoruzla fərə,
Azalmır ortadan səpilən hər dən.

Hoppanır fərənin belinə xoruz,
Göstərir fərəyə "kişiliyini".
Sığallar da çəkir telinə xoruz,
Fərə də bildirir "dişiliyini".

Bu gözəl mənzərə yoxdur Bakıda,
Girmişik betondan olan dar evə.
Doğrudur gözəllik çoxdur Bakıda,
Dar yerdə hərlənə bilməyir nəvə.

Etibarın evi san şah sarayı
İşsizlikdən burda yaşamıram mən.
Hərdən qalmaq üçün gəlirəm yayı,
Kəndlərdə iş yeri yaranmır nədən?

Gələn Alabaşın gözü kor olsin,
Dəyişdi ölkənin mənzərəsini.
Xainin qisməti dərin gor olsun,
Allahım eşitsin şair səsini.

***14.08.2012.***
***Yevlax Nərimanabad kəndi.***

# GƏLMİŞƏM EVİMƏ

Gəlmişəm evimə, gülür üzümə,
Soruşur sahibim bəs sən hardasan?
Yalanlar qatıram olan düzümə,
Deyirəm. Əzizim məni darda san.

Çörək qazanmağa getdim şəhərə,
İllər keçdi dözdüm mən bir təhərə.
Əziyyətlərlə çörək qazanır hərə,
Məni nə dövlətdə, nə də varda san.

Məvaciblə dolanıram bir təhər,
İşə tələsirəm gündə hər səhər.
Yetmiş beş yaşında məni boğur tər,
Yayda da sən məni soyuq qarda san.

Bir ay xəstələnsəm getməsəm işə,
Bibimin qızında pozular nəşə.
Çörəyi azalar, düşər təşvişə,
Qəlbimi soyumuş olan sarda san.

Səni yoxlamağa qalmayır vaxtım,
Qocaldığım kimi qocalıb baxtım.
Şükürlər hələlik sağlamdır taxtım,
Nərimanı nə sevgi, nə də yarda san.

***02.08.2012.***
***Yevlax rayonu Nərimanabad kəndi.***

# YANAN ŞAİRƏM

Fərmansız olsam da, yaxşı bilin siz,
Mən Xalqın şairi, siz Xalq şairi.
Məndən artıq deyil sizin səviyyəniz,
Fəqət mən yaşadım sizdən ayırı.

Taleh məni sıxdı, qaldım uzaqda,
Siz çap olundunuz şəhər yerində.
Məni çox incitdi həmin uzaq da,
Əyani oxuya bilmədim mən də.
Yazıb yaradsam da, oldum hesabdar,
Yevlax qəzetində çap oldum az-az.
Əhatə dairəm oldu tamam dar,
İstədim həsrətdən çalam telli saz,

Ustasız onu da çala bilmədim,
Sayqac dığırladım ömürüm boyu.
Arsızlara qoşulmadım, gülmədim,
Qorudum atamdan gələn mərd soyu.

Nə yaltaq olmadım, nə də yalançı,
Əlli beş ildir ki yoxdur boş günüm.
Nə də ki olmadım rüşvət alançı,

Yarı yaşdan artıq keçdi xoş günüm.
On doqquz kitabım çıxıbdır hələ,
Təəssüf ki onları oxuyan yoxdur.
Oxusalar qəlbə düşər vəlvələ,
Dəyərli iradlar, fikirlər çoxdur.

Oxusalar bilərlər ki mən kiməm,
Hər dərdi yerində anan şairəm.
Naləylə səslənən yanıqlı siməm,
Xalqımın dərdinə yanan şairəm.

**09.07.2012.**

## GÖZƏLİM

Qocalmış olsaq da biz innən belə,
Yada salaq cavanlığı, gözəlim.
Vurulmuşam sizin kimi gözələ,
Unutmayaq soltanlığı, gözəlim.

Sən gözəl qalmısan olduğun kimi,
Gündə incidirsən sevən qəlbimi.
İnan sözlərimdi daim səmimi,
İncitmə sən bir anlığı, gözəlim.

Mən baba olsam da, suluyam hələ,
Yenidən vurğunam siz tək gözələ.
Gəl qulac qolunu belimə bələ,
Sevək gecə qaranhğı, gözəlim.

Qaranhq olsa da yenə gözəlsən,
Ürəyimdə sevilən bir özəlsən.
Gəl incitmə məni eşqə düzəl sən,
Qəbul eylə qurbanlığı, gözəlim.

Hərdən çaşıb xətirimə dəyirdin,
Vicdanını düşünmədən əyirdin.
Sanki onda ürəyimə söyürdün
Unudurdun Nərimanlığı, gözəlim.

**19.06.2012.**

## YANIR ÜRƏYİM

Elə qəmgin olma, bibimin qızı
Səni qəmgin görsə yanır ürəyim.
Gülər üzlü görüm mən səni azı,
Qəmgin görsə tez utanır ürəyim.

Ürəyindən keçir bilinmir nələr,
Keçmişi arasan sanma ki, gələr.
O qəmgin baxışın qəlbimi dələr,
Səni ən yaxınım sanır ürəyim.

Qəmgin dayanmağın yoxdur faydası,
Gülmək könül açılmağın qaydası
Gülsən gələr cavanlığın sədası,
Fikirləşsən dərhal anır ürəyim.

Yada sal ilk eşqi. Ilk cavanlığı,
Sevib sevildiyin həmin anlığı.
Qov öz ürəyindən həyəcanlığı,
Səni qəmgin görsə qanır ürəyim.

Nəriman Əyyubam, ilk sevgilimsən,
Səhrada açılan qönçə gülümsən.
Məni sevən gözəl, sakit həlimsən,
Qəmgin görsə tez odlanır ürəyim.

***13.04.2013.***

## NƏRİMAN HƏSƏNZADƏYƏ

Görəndə "Ovqatda" əqlin, kamalın,
Məni heyran etdi bu gün yenidən.
Çox şükür hələlik açıqdır alın,
Görürəm başına çoxdan düşüb dən.

Nələri söylədin, nələri adaş,
Mən Nəriman Əyyubam, sən Həsənzadə.
Sizintək qocaldım mən yavaş-yavaş,
Sizdə ki dədəsiz, mən də ki, dədə.

Poyludan danışdın, düşdü yadıma,
O Milli dərəsi, Mirzik kəndimiz.
Hərdən Milliliyi yazdım adına,
Millini sayıram doğma və əziz.

Gec çap oldum onu bilin əzizim,
On doqquz kitabım çıxıbdır hələ.
Onu bilirəm ki qalacaq izim,
Lazım olacağam doğmaca elə.

Taleyim bəd gəldi, cavan yaşımda
Atam getdi, oldum ailə başçısı.
Çətin keçdi həm baharım qışım da
Ardıcıl başladı qəlbimin yası.
Altmış yaşım keçdi, nəşr olunmadım,
Ona görə tanınmıram ay adaş.
Odur ki kölgədə qalıbdır adım,
Yenə də yazıram mən yavaş-yavaş.

Ömrünə qıymasın uca Yaradan,
Sizi çox sevirəm ay böyük insan,
Bilirəm böyükcə gəldin anadan,
Yaxşı qorun hələ əldə ikən canlı.

***24.03.2013***

# SÖYLƏYİR

Tövsiyəmdi, ağlamayın, ömür gedəndə bada,
Hamı gedib, gedəcək, heç kim qalmır dünyada.
Görəcəksən dəyişdi, dünya tərsinə döndü,
Köməklər çata bilməz məhv olanda dünya da.

Tanrının öz hökmü var, nə etsə özü bilir,
İşinə qarışana nifrət eyləyir gülür.
Söyləyir ki ay nadan sən işimə qarışma,
Nadan başa düşməsə onu həyatdan silir.

Bu fələyin işinə qoşulsan olar çətin,
Kişiyanə dolan ki olsun kişi qeyrətin.
Qeyrətsiz olsa insan hörməti ola bilməz,
İnsan kimi dolansan olar daim hörmətin.

Pislik etmə heç kimə, yaxşılıqla ad qazan,
O qədər də hörmətli olmayır ki hər yazan.
Yazanda da elə yaz, dəyərli sözlər söylə,
Daim hörmətsiz olub doğru yolundan azan.

Qarışıq yaranıbdır, bu zəmanə, bu dövran,
Gah olub sakit günlər, gah da olub həyəcan.
Həyəcan olan zaman dolan daim təmkinli,
Ağıllı ol ay insan, sənə söyləyir Nəriman.

***06.01.2013.***

## GÖZLƏRİNƏ YAZIMMI

Dedin mənə bir şer yaz gözəlim,
Şeri sənin gözlərinə yazmmı?
Şer yazmaq gəncliyimdən əməlim,
Şirin-şirin sözlərinə yazmmı?

Baxanda baxışın alır canımı,
Qəmgin dursan o qaraldır qanımı.
Gülsən güldürürsən hər bir anımı,
Başımı qoyum dizlərinə, yazmmı?

Hər baxanda o baxışın incidir,
Qəlbimə də o axışın incidir.
Naxışlısan, o naxışın incidir,
Üzümü qoyum üzlərinə, yazmmı?

Sazı çox sevirəm, saza vurğunam,
Çiçək açan güllü yaza vurğunam.
Əlizaf nazlısan naza vurğunam,
Şeri sənin nazlarına yazmmı?

Mən gələndə gözün ilə mənə bax,
Mən sənə baxdıqca sən də yenə bax.
Qalsın səndə olsun bir ənənə bax,
Bazlı sanıb bazlarına yazmmı?

İşvə nazın məni gündə yandırır,
Sinimə görə də çox usandırır.
Nəriman Əyyub şer ilə qandırır,
Ananızın qızlarına yazımmı?

# ŞAHMAR HƏKİM

Əllərin qızıldı ay Şahmar həkim,
Məni xəstəlikdən qurtardı əlin.
Qurtara bilərsən vursa Mar həkim,
Birdə ki qurtardı o şirin dilin.

İynələri taxıb şer söylədin,
Şerlər qəlbimin məlhəmi oldu.
İynələri üz gözümdə əylədin,
İynələr qəlbimin həm dəmi oldu.

Aslanın da əli san loğman əli,
Üzümə, gözümə, sığallar çəkdi.
O da gözəl insan, bilin siz bəli,
Xəstəliyi sıxıb əlində bükdü.

Qonşu otaqdakı Arzunun səsi,
Mələk səsi kimi göylərdən gəlir.
Şirindi hər sözü, hər bir kəlməsi,
Nəvazişi ilə qəlbim dincəlir.

Bir də ki, görürəm cüt gözəlləri,
Rəfiqə, Minayə cəryanı düzür.
Şəfalıdır bax onların əlləri,
Cəryanı düzdükcə ortada süzür.

Sağ ol Şahmar ağa, sənsən komandan,
Burada olanlar sıravi əsgər.
Xəstələr axışır bura hər yandan,
Onları sağaltmaq səndədir hünər.

## QALAYDI KAŞ

Mənim o ilk sevgim olduğu ikimi,
Ölən günlərimə o qalaydı kaş.
Saxladım qəlbimdə həmin sevgimi,
Qaldı ürəyimdə oldu qara daş.

Asılmış o daşı ata bilmədim,
İllərlə gecələr yata bilmədim
O ülvi sevgimə çata bilmədim,
Unuda bilmədim mən onu yavaş.

Qəlbimdən getmədi ömrüm uzunu,
Hərarətim əritmədi buzunu.
Artırdı qəlbimin gündə duzunu,
Ağrıdı gündəlik o həsrətdən baş.

Gündəlik həsrətim vermədi fayda,
O qaldı o tayda, mən də bu tayda.
Ortadan da axdı gür axan çay da,
Bürüdü qəlbimi gündəlik təlaş.

Ömür keçib getdi, sevgi sönmədi,
Nə də o ilk sevgim geri dönmədi.
Ürəyimdə qaldı, heç də çönmədi,
Ağardı gündəlik həm sifət, həm qaş.

Nəriman Əyyubam, axdıqca yaşım,
Dişlərim töküldü, ağardı başım.
İlk sevgimi bildi həyat yoldaşım,
Əhəmiyyət vermədi, nə də qaldı çaş.

# ZAKİR

*Qardaşım oğlu İldırımın toyunda düşüncələrim.*

Dayısı oğlunun toyunda bu gün,
Gəlib oynamadı, gülmədi Zakir.
Bu dərd ürəyimdə oldu bir düyün,
Mənim bu halımı bilmədi, Zakir.
Oynaya bilmirəm, qolum qalxmayır,
Bəlkə də çoxları soyuqluq sayır.
Nanəciblər isə böhtanlar yayır,
Ağladım gözümü silmədi, Zakir.

Bizdən ayrılıbdır, yatır məzarda,
Bilirəm od tutub yanır məzar da.
Çağırdım Zakirim hardasan harda?
Səsin çıxartmadı gəlmədi, Zakir.

Kaş ki kor olaydı fələyin gözü,
Apardı getməyi yandırdı bizi.
Dindirdim olmadı sonuncu sözü,
Dərdini mənimlə bölmədi Zakir.

Qardaşım da yoxdur, mənəm pərişan,
Toyda oynamıram, ürəyim şan-şan.
Ay məni qınayan, fikirləş utan!
Vəfasız dünyada qalmadı Zakir.

Doğrudur ölənlə heç kim ölməyib,
Fəryadla bir nəfər geri gəlməyib.
Haqsız küsənlərim qəlbimə dəyib,
Soyuqlaşdı məzar, bilmədi Zakir.

Bilsəydi qınardı o küsənləri,
Kimsə qaytarmayıb o gedənləri.
Haqdır bu ölümlər illərdən bəri,
Qohumu-qardaşı bölmədi Zakir.

Hələ çox yazacam mən innən belə,
Dərdlərim çoxalıb dönübdür selə.
Mən idim Zakirə həm dayı Lələ,
Nərimanın qəlbində ölmədi Zakir.

***23.03.2012.***

# AY BİBİM QIZI

Əzizim, soruşma nədir yazdığın,
Dərdimi yazıram, ay bibim qızı.
Olmayıb heç zaman yoldan azdığım,
Daimi hazıram, ay bibim qızı.

Sən yaxşı bilirsən nadan deyiləm,
Adi bir şairəm, soltan deyiləm.
Yandırsalar məni yanan deyiləm,
Qəmimi pozuram, ay bibim qızı.

Dərdlə yüklənibdir, çəkir bu ürək,
Dərd çəkməyən ürək deyildir gərək.
Mən yazdıqca söyləyirlər mübarək,
Yazdıqca qızıram, ay bibim qızı.

Qozbeli düzəldər qəbir deyiblər,
İnsanı saxlayar səbir deyiblər.
Xoşa gəlməz işə cəbir deyiblər,
Qəlblərə sızıram, ay bibim qızı.

Əzizim Nərimanam dərdimdi qalaq,
Dərdi ürəyimə etmişəm calaq.
Qəlbimin zəmisi bitirib alaq,
Alaqda azıram, ay bibim qızı.

***10.05.2012.***

## DOSTUM, KƏDƏRLƏNMƏ

Dostum, kədərlənmə, Zahid Xəlilov
Artıq dünyamızda insan qalıb az.
Varlı bir ovçudur, kasıb isə ov,
Ona görə kasıb olubdur nasaz.

Çirkli pullar indi dəyişib çoxun,
İnsanlıqdan çıxıb hər olan toxun.
Səni saya salmır hətta lap yaxın,
Çünki onun işi artıq sazdır-saz.

Unudulub yediyiniz çörəklər,
Bir tavada bişirilən xörəklər.
Yaddan çıxıb gənclikdəki hənəklər,
Gedirdiniz dağa hər gələndə yaz.

Marks söyləmişdir nədir kapital,
Kapitalı olan dönüb olub kal.
Dostum, keçmişləri yaxşı yada sal,
Sazdan başı çıxmaz indi çalır saz.

Varlanan unudur keçmiş anları,
Möhkəmlənir dörd tərəfi yanları
Unudurlar sizin kimi canları,
Qocalmışam başın olub tamam daz.

Nəriman Əyyubam, hövsələm geniş,
Sən də heç özünü eyləmə təftiş.
Qoy qalsın geridə həmin o keçmiş,
Tək sənin ürəyin olmasın nasaz.

# ƏZİZ TEYMUR MÜƏLLİM

Sizi belə gündə görməyəydim kaş,
Gözlərində quruyubdur qanlı yaş.
Mən də belə oldum gedəndə qardaş,
Nə edək fələyin tökülsün gözü,

Vaxtsız qəmləndirdi incitdi özü.
Dərdinə şərikəm, ay böyük insan,
Özünə fikir ver əldə ikən can.
Ağıllı yaradıb sizi Yaradan,

Dünyamız vəfasız olub əzəldən,
Çoxunun başına düşür vaxtsız dən.
Üç oğul böyütmək böyük hünərdi,
Bilirəm ağırdı Fərhadın dərdi.

Fərhad da böyüdüb ikicə mərdi,
Faiq, Fizuli də təsəlli olsun,
Arzuladım ömrün yüz əlli olsun.
Ölüm haqdır, onu deyib atalar,

Fəqət vaxtsız olmayaydı xətalar.
Bir təsəllin odur övladların var,
Əziz Teymur müəllim, sağ olsun başın,
Allahdan istərəm yüz olsun yaşın.

Nəriman Əyyubam, istərəm sizi,
Kişiyanə olan əqidənizi.
İstəməyənlərin tökülsün gözü,
Yenə də deyirəm başın sağ olsun!
Övladların sənə min budağ olsun.

## YATA BİLMİRƏM

Gözmü dəydi mənə, "ildrım vurdu",
Büründüm yorğana, yata bilmirəm.
Sol ayaq ağrıyıb şişərək durdu,
İrəliyə doğru ata bilmirəm.

Nədir bu fələyin qəzəbi mənə?
Məni çox incidir o dönə-dönə.
Şikayət edirəm Tanrıma yenə,
Yaş keçir, arzuma çata bilmirəm.

Hələlik geridə var arzularım,
Yazdığım əsərlər dövlətim-varım.
Onlardı dünyada yadigarlarım,
Sevinci könlümə qata bilmirəm.

Şad olmaq istərəm mən ömrüm boyu,
Arzumdur görməyə nəvələr toyu.
Şükürlər çoxalıb nəslimin soyu,
Yazdığım kitabı sata bilmirəm..

Dostcan, qohumcanam, yaranışımdan,
Sevmişəm onları hər zaman hər an.
Fəqət bəziləri oldu bevicdan,
Taleyim qaçıbdır, tuta bilmirəm.

Sevmişəm Allahı, həm Peyğəmbəri,
Məndə olub daim kişi hünəri.
Nəriman Əyyubam, işlətdim səri,
Necə baxım bu həyata, bilmirəm.

***03.10.2012.***

# GÖZÜN AYDIN OLSUN

Gözün aydın olsun, Şamam, Gülbəniz,
Şamonun toyudur, mübarək olsun.
Sizsiz ürəyimdə mehriban, əziz,
Şamonun toyudur, mübarək olsun,
Bayramın evləri nəvəylə dolsun.

Oynasın burada qohumlar hamı,
Gültəkin Ayişəyə yandırsın şamı.
Baxıb coşa gəlsin şair ilhamı,
Şamonun toyudur, mübarək olsun,
Bayramın evləri nəvəylə dolsun.

Yallı başı çəksin Şamam nənəsi,
Oynasın Rəşadı, o bir dənəsi.
Yaşasın xalqımın bu ənənəsi,
Şamonun toyudur, mübarək olsun,
Bayramın evləri nəvəylə dolsun.

Oynasın Sevinclə Aynur tək balam,
Rəhimi, Dəşisi, Qönçə tək lalam.
Oynasın Səmayə, mən də saz çalam,
Şamonun toyudur, mübarək olsun,
Bayramın evləri nəvəylə dolsun.

Qardaşı toyudur, oynasın Çinar,
Çinarə gözəldi, Narifə san nar.
Bu gözəl toy daim qalsın yadigar,
Şamonun toyudur, mübarək olsun,
Bayramın evləri nəvəylə dolsun.

Bağışlasın yaddan çıxan qohumlar,
Şükürlər hələlik nə qədər toy var.
Nərimanın sözləri qalsın yadigar,
Şamonun toyudur, mübarək olsun,
Bayramın evləri nəvəylə dolsun..

***28.09.2012.***

## Q A L I R

Özgə danasını çatılayanlar,
Çatısı axırda əlində qalır.
Ağılsızdır məni gec anlayanlar,
Nalayıq sözləri dilində qalır.

Ölənlə bir adam ölməyib heç an,
O adəti yaradıbdır Yaradan.
Ay məni qınayan fikirləş, utan!
Mənə xain çıxan sonda saralır.

Peyğəmbərdən sonra Peyğəmbərəm mən,
Mənim sözüm deyil  Peyğəmbər deyən.
Ara qarışdıran, özünü öyən
Yalquzlaşır ancaq tək özü qalır.

Nə eyləyir ancaq edir özünə,
Axır heç kim fikir vermir sözünə.
Faydasızdır sonra vursa dizinə,
Günlər keçir o əqil də qocalır.

Çox danışma onun-bunun dalınca,
Danışaraq nifrət, töhmət alınca.
Xeyirxah ol, dayan ucadan-uca,
Ucalmayan günlər keçir alçalır.

Yaxşılıq et, yamanlığı tulla sən,
Qocalırsan saçlarına düşür dən.
Mən demişəm, deyəcəyəm yenidən,
Pislik edən özü də pislik alır..

Nəriman Əyyub həqiqəti söylədi,
Yaş ötdükcə yaxşılıqlar eylədi.
Ay nanəcib, bəs sən etdiyin nədi?
Şair necə idi elə də qalır.

***26.04.2012.***

## VAQİF YUSİFLİ

***Bu gün "Ovqat" verlişində olan görkəmli tənqidçi-alim Vaqif Yusifliyə.***

"Haray" da söz dedim, Vaqif Yusifli,
Ona cavab söyləmədin, incidim.
Sözlərim durudur, deyildi kifli,
Bir yaxşılıq eyləmədin, incidim.

Böyük alimsiniz, gözəl tənqidçi,
Bircə kitabıma baxmadınız siz.
Oxuyub görəydin nəçiyəm-nəçi.
Ay gözəl tənqidçi, qəlbimdə əziz.

Xalqın istək arzusunu söylədim,
Ona qiymət verənlərim olmadı.
Fikir versən görəcəksən neylədim,
Görəcəksən şair xeyli ustadı.

Nə dedimsə gündəlikdə düz dedim,
Nə yaltaq olmadım, nə də yalançı.
Xalqımın dərdindən milyon söz dedim,
Rüşvətxor olmadım, nə də talançı.

Əgər vaxtın olsa, bax kitabıma,
Dərindən oxusan dəfinələr var.
Rast gələrsən dolu olan qabıma,
Özün görəcəksən orda nələr var.

***26.04.2009.***

## YALANLAR

Siz Allah yalanlar söyləməyin siz,
Sovet Dövlətini yıxdı yalanlar.
Sözləri söyləyin doğruca, təmiz,
Yalanı söyləyir geri qalanlar.

Bir yalana mini çəpik çalardı
Çəpik çalan son xəyala dalardı.
Mənasını bilən zaman solardı,
Çoxalırdı ölkəmizdə talanlar.

O talanlar yıxdı böyük dövləti,
Kimsə qarşısını almadı qəti.
Daşıdılar xalq malını, sərvəti,
Başa düşən oldu başın yolanlar.

Yarmadılar  Qarbaçovun başını,
Başına vurmadılar çaylaq daşını.
Ermənıyə satılmış yoldaşını,
Tökdülər yollara nə qədər qanlar.

Gücümüz çatmadı o alabaşa,
Satılmış vicdansız ürəyi daşa.
Kənardan eylədik ona tamaşa,
Küçələrə çıxdıq həmin o anlar.

Onda xalq oyandı suveren oldu,
Hayıf vəhşi yanlar vətənə doldu.
Qarabağ alındı, gülləri soldu,
Çox başsız qalmışdıq həmin zamanlar.

Şükür xalq yetirdi Böyük Öndərim,
İlhamı böyütdü o Böyük Nərim.
O yaxşı işləyir, Allaha Kərim,
Yoluna çıxmasın əyri vicdanlar.

İndi söylənməsin bircə yalan da,
Yalan danışanı verirəm anda!
Yalanı saymayır Milli Nəriman da,
Yalan söyləyəni gördükcə danlar.

*16.04.2012.*

# SƏRDAR CƏLALOGLU

***"Qacarı, Nadir şahı Səməd Vurğun kimi dılğırın biri Xalq düşməni edib. Həcər rəsmən yeddi ərə gedib, ikisi ermənidir".***

***Sərdar Cəlaloğlu.***
***Aydın fikir" qəzeti 13-19 aprel 2013-cü il.***

Sərdar Cəlaloğlu başından yekə,
Bir qələt etmisən başa düşmədən
O səndə qalacaq daimi ləkə,
Bu fikir başına gəlibdir nədən?

Zori Balayanla fərqin görünmür,
Əkrəm Əylisliylə eyni vicdanlı.
Əsil kişi başqa səmtə sürünmür,
Sizi necə sayım Azərbaycanlı?

Səməd Vurğun dünya şöhrətli şair,
O, uca bir dağdı, sən isə təpə.
Onu xalq özünə peyğəmbər sayır,
Sən isə dənizdə sısqaca ləpə.

Ucalıb yurdumda böyük heykəli,
O heykəli heç kim tərpədə bilməz
O böyük dahidi, dahidi bəli,
İndi onu heç kim eyləməz əvəz.

Dılğırlığa qalsa sən özün oldun,
Böyük bir dahiyə dılğır deyirsən.
Qəlbimdə alçaldın, elə də qaldın,
Görünür Zoriylə çörək yeyirsən.

Həcərə də böhtan atmısan yaman,
Sanki öz nənənə böhtan atırsan.
Ruhlar daldasınca danışma, utan!
Bu ağılla axı nəyə çatırsan?

Həcər sağ olsaydı nifrət edərdi,
Alnıma sıxardı aynalı güllə.
Çəkdiyi daimi xalqının dərdi,
Yaxud da üzünə vurardı şillə.

Sənə nifrət edər o ruhu yatan,
Göstərmisən cılız o düşüncəni.
Səni bağışlamaz var isə atan,
Yandım, tənqid etdim, qınama məni.

Sən Cəlalın oğlu olsan da belə,
Fəqət xalqın oğlu ola bilmədin.
O boş fikirini tulla sən selə,
Xalqın ürəyində qala bilmədin.

Səməd  Xalq şairi, sən kimsən axı,
O boş sözlərinə xalq nifrət edir.
Ağarmış başına yax nəsə yaxı,
Fikirlərin görən haraya gedir ?

Çox söz söyləyərdim, yaraşmır mənə,
Sənin səviyyənə enən deyiləm.
Nifrət eyləyirəm böhtan deyənə,
Söyməmişəm deyə mən də söyüləm.

Sən böhtan atırsan Dahi insana,
O, palıd ağacı, sən solan yarpaq.
Səni bağışlamaz var isə ana,
İnanmıram qəbul eyləsin torpaq.

Sovetlər çörəyi haramın olsun!
Pulsuz ali təhsil, pulsuz müalicə,
Onu inkar edən saralsın-solsun,
İşsiz rast gələrdik ağılsız gicə.

İndisə alveri bacarmayan kəs,
Gündə işsiz gəzir, qalır yalavac.
Bunları gözlərin görməyirmi bəs?
Bax öz qonşuların tamam qalıb ac.

Bu dərdləri söylə, ay azmış bəndə,
Keçmişləri unut, indidən danış.
Vicdanın qalıbsa, dolan hər kəndə,
Həqiqəti söylə, desinlər alqış.

Yalanlar söylədin "Açıq söhbət” də,
Səni dinlədikcə yazığım gəldi.
Çoxlar sənə güldü həmin söhbətdə,
İnsanlar güldükcə qəlbim dincəldi.

Nəriman Əyyubam, dözmür ürəyim,
Nanəcib görəndə tez danlayıram.
Əqidəm olubdur daim gərəyim,
Həqiqəti mən belə anlayıram.

***31.05.2013.***

## AY VƏFALI

Ay Vəfalı, vəfasızlıq eylədin,
Yetmiş beş illiyi vermədin niyə?
Qəzənfərə verəcəyəm söylədin,
Xırda yaxşılığı görmədin niyə?

Bu şerimlə eyləmirəm hədəni,
Saymadınız qocalmış bir dədəni.
Sayırsınız irəlidə gedəni,
Qəlbimə sərinlik səpmədin, niyə?

Oxusaydın məndən bircə kitabı,
Bilərdin boş deyil şairin qabı.
Ədalətsizliyə qalmayıb tabı,
Poeziya gülümdən dərmədin, niyə?

Taleyim bəd gəldi çap olunmadım,
Sizlərdən olmadı mənim ustadım.
İyirmi kitabda vardır fəryadım,
Baxıb dərinliyə varmadın, niyə?

Bəlkə şairliyim sizə şübhəli?
Sovetlər şairi olmadım bəli.
Fəqət şair edib Tanrımın əli,
Yaralı qəlbimi sarımadın, niyə?

Bilirəm xalqıma olub cəfanız,
Mənim üçün görünmədi vəfanız.
Ay Ayaz Vəfalı, Nərimanın yalnız,
Qəzetində artıq vermədin, niyə?

***22.05.2013.***

## A Y A Z

Ay Qəzənfər, əziz dostum, əzizim,
Sizin sözünüzə baxmadı, Ayaz.
Artıq bulanıbdır Xəzər dənizim,
Ona görə orda axmadı, Ayaz..

Artıq dostluqlar da dönüb sal buza,
Bəzi insanlar da hey gedir duza.
İndi rast gəlirik həm qohumsuza,
Zəng etdin ortaya çıxmadı, Ayaz.

Bir böyük qohumum vəfasız çıxdı,
Bu kövrək qəlbimi yandırdı-yaxdı.
Mənə tərəf deyil, başqaya axdı,
Qəlbimə bir məlhəm yaxmadı, Ayaz.

Pozulubdur indi dünyanın işi,
Hamı unudubdur olan keçmişi.
Mənimsədik bu soyumuş vərdişi,
Qəlbimə şimşəktək çaxmadı, Ayaz.

Nəriman Əyyubam, fikrimdir dərin
İşlər gördüm, söylədilər afərin.
İndiki insanlar sərindir-sərin,
Mənimçün eynəyi taxmadı, Ayaz.

***16.06.2013..***

## BEŞ ARŞIN AĞDI

Sözlərim yağıştək yağır gündəlik,
Nədən bu yağışı görən olmadı?
Haraylar salmaqdan olmuşam ləlik,
Niyə qulaqlara girən olmadı?

O qədər tutulub o görən gözlər,
Kapital kor edib, görmür heç bizi.
Qulaqlara girmir deyilən sözlər,
Qalmayıb kimsədə kişilik izi.

Zəmanə dəyişdi, qudurdu insan,
Zəhmətsiz var dəyişdirdi çoxların.
İnsan çirkli doğulmayıb anadan,
Fəqət pul eyləyib çoxunu harın.

Alın təriylə qazansaydı var,
Belə dəyişməzdi, inanın mənə.
Sözüm həqiqətdir, qalsın yadigar,
İnanın bu yoxsul şair deyənə.

Harınlaşan insan kitab oxumur,
Çünki xəyalları göylərdə gəzir.
Kitablar görəndə gözünü yumur,
Nə vecinə almır, nə qəlbin əzir.

Faydası yox, yazma yazar bir daha,
Kimdir yazdığımı açıb oxuyan?
Təkcə ümidini bağla Allaha,
Ancaq kapitalı yığmağa cumur.

Faydası yox, axır beş arşın ağdı,
O da qismət olsa bir də dar məzar.
Qismət olmayanda ürəyə dağdı,
Kömək olmamışdır nə dövlət, nə var.

***29.09.2011***

# VEDİBASARIMIN QƏHRƏMAN OĞLU

Bu gün ürəyimi yandırdı bir söz,
Elə bil sinəmə düşdü yanar köz.
Ədalətsizliyə dözmədi ürək, Şairlər
Doğrunu söyləsin gərək.
Vedibasarımın qəhrəman oğlu,
Yığıldı başına bütün əmoğlu.
Vedibasarımda qəhrəman kimi,
Vuruşdu orada bir aslan kiıni.
İgid hünəriylə nələr yaratdı,
Bütün tay-tuşunu hərbə oyatdı.
Yaratdı özünə igid bir dəstə,
Vətəni qorumaq olan həvəsdə.

İgidlik göstərdi Vedibasarda,
Ordakı insanlar qalmadı darda.
Erməni boşaltdı bizim o yurdu,
Dövlət səviyyəsində işləri gördü.
Qərbi Azərbaycan oldu hayıstan,
Qovuldu oradan nə qədər insan.
Qəhrəmanım gəldi Azərbaycana,
Vətənçün qaldı o yana-yana.
Yığdı öz başına vedibasarlı,
Bölgələr olmuşdu boranlı-qarlı.
Hünərlər göstərdi Goranboyunda
Oynadı nə qədər olan "oyunda"
Az vaxtda alındı köhnə Şaumyan,
Axdı dərələrdən nə qədər al qan.
Erməni cəsədi çöllərdə qaldı,
Bu bir həqiqətdi, sanma xəyaldı
Boşaldı o zaman nə qədər kəndlər,
Alındı dərələr, alındı bəndlər.
Gündə söylənildi qəhrəman adı,
Ermənin çoxalırdı fəryadı.
Erməni ermənicə aldatdı,
Kürd dilində kürdlərini oyatdı.
Mərmiləri tökdü düşmən üstünə,
Durdu xainlərin tamam qəsdinə.
Qəhrəmanlıqları yayıldı elə,
Doğma eli üçün oldu bir Lələ.

İki dəfə "Qırmızı bayrağı" aldı.
Onları alanda xeyli ucaldı
Təqdimat verildi qəhrəmanlığa,
Qəhrəmanlıq isə rast gəldi dağa.
O onun qəlbinə böyük dərd oldu,
Onu pozan kəslər bil namərd oldu
Belə namərdliyə dözmədi heç an,
Olan həqiqəti nə gizlət, nə dan
Gördüyü işləri bəllidir hamı,
Ona görə düşündürür adamı.
Sığışdırmadı o öz qeyrətinə,
Yenə də vuruşdu, düşdü çətinə.
Nə qədər igidlik göstərdi yenə.
O igidlik onda oldu ənənə.
Erməni əlindən aldı tankları,
Sürdü o tankları onlara sarı.
Vuran təyyarəni göydən endirdi,
Ermənini öz dilində dindirdi.
Yaxşı bildi ermənini dilini,
Başa düşdü ermənini felini.
Aldatdı nə qədər o alçaqları,
Getdikcə gedirdi onlara sarı.
Boşaltdı hər iki Ağcakəndləri
Böyük işlər gördü onun hünəri.
Qarətlə gətirdi neçə min silah,

Şahiddi göylərdən o Qadir Allah.
Çaykənddə, Buzluqda qırdı yağını,
Kəsdi ordan erməni ayağını.
Sanırdı ki o qəhrəman olacaq,
Çünki igid idi o böyük qoçaq.
Xosrov Mustafayev olan o insan,
"Mısto" ləqəbiylə olan qəhrəman.
Olan hünəriylə nələr qazandı,
Nanəciblər qəhrəmanlığı dandı.
Bəlkə də səhv edib, cüzi olan səhf,
On faiz səhvinə yüz faiz hədəf,
Yüz faiz müsbətdi, on faiz mənfi,
Bağışlamaq olardı cüzi səhfi.
Cüzi bir səhf ilə tutdular onu,
Yandı qəhrəmana mini-milyonu.
Ədalətsizliyə dözmədi ürək,
Çıxdı qazamatdan altında xərək.
Nifrətlər eylədi tanıyanları,
Axdı insan seli məzara sarı.
Hamı haqsızlığa ağladı getdi,
Hayıf qəhrəmanım əbədi itdi.
Kəpəz nalə çəkdi, Qoşqar ağladı,
Azad eylədiyi dağlar ağladı.
Milli Qəhrəmana layıq bir insan,
Ədalətsiz getdi fani dünya. ***07 noyabr 2012***

## A Ğ L A Y I R

Yuxuda getmişdim kəndimə bu gün,
Gördüm qəmlənərək yaman, ağlayır.
Artıq qocalıbdır şair ömürün,
Ağrıyır bədənin hər yan, ağlayır.

Fəqət görməyirəm keçmiş insanı,
Köçüb bu dünyadan o gözəl canı.
Yadıma saldıqca o gözəl anı,
Başımda hərlənir duman, ağlayır.

Nadir Cabbarovu görmürəm daha,
Artıq qonaq gedib Qadir Allaha.
Tək bircə rast gəldim Kefqom Pənaha,
Baxdım onun üçün zaman, ağlayır.

Hanı Talıb, Misi əlbənd uşağı?
Artıq Tapdıq idi kəndin qonağı.
Heydərin itməsi bir ürək dağı,
Onu axtarmağa güman, ağlayır.

Gördüklərim yoxdur, gülməyir üzüm,
Yaş da saxlamayır bu kövrək gözüm
Qocalmışam artıq qalmayıb dözüm,

Dizim çox ağrıyır hər an, ağlayır.
Keçmiş kişilərdən qalmayıb biri,
Yusif Cabbarov tək başı çox iri.
Ürəyimdə qalıb çoxunun yeri,
Ona görə dözmür Nəriman, ağlayır.

***06.06.2013***

## ÖYÜNMƏSİN

Nadan öyünməsin ki, varı var, dövləti var,
Birdə gördü qəflətən varı oldu tarimar.
Bu dünyada qalacaq təkcə bircə kişilik
Elə işlər görmə ki, axır eyləyəsən ar.

Güvənmə yığdığını zəhmətsiz olan vara,
Bir də gördün, qalıbsan ortalıqda avara.
Ağlın olmasa əgər, varın faydası yoxdur
Varın dağılıb getsə, birdə olammaz çara.

Ölüm sevinməsin heç ömrünü versə bada,
Nəriman Əyyub adımla qalacağam dünyada.
Kişiyanə yaşadım, heç kimə əyilmədim.
Sahib oldum şərəfli, hörmətli olan ada.

***08.08.2013***



Kitabın nəşri üçün köməklik edən İmran Sədulla oğlu Rzayev cənaba dərim minnətdarlığımı bildirirəm.
Müəllif.

# Mündəricat

ƏDALƏTSİZLİYƏ DÖZMƏYƏN KÖVRƏK QƏLBLİ ŞAİR ....................3
ŞƏHİD XOCALI (poema)....................15
QARAÇI QIZI QARAGİLƏ (poema)....................70
RÜBAİLƏR ....................78
BAŞ KOMANDANIM....................170
GÖRMƏYƏYDİM KAŞ....................172
GƏLƏM DÜNYAYA ....................173
ALLAHA KƏRİM ....................174
İSMAYIL ....................176
ŞÜKÜR EDƏK YENİDƏN ....................177
QALDI....................178
KÜSƏN DEYİLƏM....................180
ANAMIZ GEDƏNDƏ YETİM OLURUQ ....................181
SAĞALTDI MƏNİ ....................183
AYNURUM ....................184
NECƏ OLMALI....................186
BAXÇADA ....................187
GƏLMİŞƏM EVİMƏ ....................189
YANAN ŞAİRƏM....................191
GÖZƏLİM....................192
YANIR ÜRƏYİM ....................193
NƏRİMAN HƏSƏNZADƏYƏ ....................194

SÖYLƏYİR......................................................196
GÖZLƏRİNƏ YAZIMMI..................................197
ŞAHMAR HƏKİM ...........................................198
QALAYDI KAŞ..............................................2000
Z A K İ R .......................................................201
AY BİBİM QIZI .............................................203
DOSTUM, KƏDƏRLƏNMƏ ............................204
ƏZİZ TEYMUR MÜƏLLİM ...........................206
YATA BİLMİRƏM.........................................207
GÖZÜN AYDIN OLSUN ................................209
Q A L I R.........................................................210
VAQİF YUSİFLİ.............................................212
YALANLAR ....................................................213
SƏRDAR CƏLALOGLU ................................215
AY VƏFALI.....................................................218
A Y A Z ...........................................................220
BEŞ ARŞIN AĞDI.........................................221
VEDİBASARIMIN QƏHRƏMAN OĞLU .......223
AĞLAYIR .......................................................227
ÖYÜNMƏSİN.................................................228